Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Gəncə Dövlət Universiteti

1938

# Gəncə Dövlət Universitetinin İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında HESABAT

Hesabat Gəncə Dövlət Universitetinin Elmi Şurasının (28.03.2024 (pr. № 07) tarixli iclasının Qərarı ilə təsdiq edilmişdir.

Tarix 28.03.2024

İmza ________________
(müəssisənin rəhbəri)

M.Y.

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ ELM VƏ TƏHSİL NAZİRLİYİ

2024

## Mündəricat

**I. Giriş**

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair

**II. Təhsil müəssisəsinin özünütəhlili**

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri
6. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

## I. Giriş

Gəncə Dövlət Universiteti (GDU) ilk fəaliyyətinə Azərbaycan Xalq Komissarları Sovetinin 14 aprel 1938-ci il tarixli qərarı ilə Kirovabadda (Gəncədə) N.K.Krupskaya adına İkiillik Müəllimlər İnstitutu olaraq başlayıb. İnstitut üçün münasib baza olmadığından şəhərin M.Qorki adına 1 nömrəli məktəbinin üçüncü mərtəbəsi bütünlüklə yeni təşkil olunmuş təhsil ocağının sərancamına verilib. İlk vaxtlar üçün institutda iki ixtisas – təbiyyət və fizika-riyaziyyat fakültələrinin təşkili planlaşdırılıb. Gəncə İkiillik Müəllimlər İnstitutu 23 müəllim və 244 tələbə ilə 01 oktyabr 1938-ci ildə fəaliyyətə başlayıb. 1939-cu ildə institutda daha iki yeni fakültə – tarix, Azərbaycan dili və ədəbiyyat fakültələri yaradılıb. Eyni zamanda təbiyyət fakültəsi təbiyyət-coğrafiya fakültəsi kimi yenidən qurulub. İkiillik Müəllimlər İnstitutu 01 sentyabr 1943-cü ildən etibarən ləvğ olunub, həmin təhsil ocağı yenidən qurularaq onun bazasında tam ali təhsil verən, ümumtəhsil məktəbləri üçün müxtəlif fənlərdən yüksək ixtisaslı müəllim kadrları hazırlayan dördillik Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu yaradılıb. 1943/1944-cü tədris ilinin payızında instituta Azərbaycanın görkəmli maarif-pərvəri, torpaqşünaslıq və aqrokimya elmlərinin banisi – ensiklopedik alim Həsənbəy Zərdabinin adı verilib. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında Təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli 349 nömrəli fərmanı ilə profili genişləndirilməklə GDU adlandırılıb.

GDU-nun Nizamnaməsi Azərbaycan Respublikası Təhsil Nazirliyi (ARTN) tərəfindən 17.01.2013-cü il tarixində təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 15.03.2013-cü il tarixli 53 saylı qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Universitet sonuncu dəfə 2016-cı ildə akkreditasiyadan keçirilmiş və 7 iyun 2016-cı il tarixli 008 qeydiyyat nömrəli sertifikatla 5 il müddətinə akkreditasiya olunmuşdur.

Qeyd edək ki, GDU-da 2019/2020-ci tədris ilində də Azərbaycan Respublikası Nazirlər Kabinetinin (ARNK) 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nın tələblərinə uyğun olaraq ARTN-nin 2019-cu il 27 may tarixli 03-23-683/15 nömrəli məktubuna əsasən akkreditasiya həyata keçirilmişdir. Bununla bağlı rektorluğun 2019-cu il 11 iyun tarixli 5/174 saylı əmri ilə “Özünütəhlil Komissiyası” yaradılmış və universitetin özünütəhlil hesabatı hazırlanmışdır. Özünütəhlilin nəticələri haqqında hesabat GDU Elmi Şurasının (EŞ) 15.11.2019-cu il tarixli iclasının (pr. № 8) Qərarı ilə təsdiq edilərək ARTN-ə təqdim edilmişdir. Universitet akkreditasiya qiymətləndirməsindən 67 bal toplayaraq fəaliyyəti “əsasən uyğundur” olaraq qiymət alsa da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində (ARETN) Akkreditasiya Şurası fəaliyyət göstərmədiyindən Şəhadətnamə verilməmişdir.

GDU öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununu, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, ARNK-nın qərar və sərəncamlarını, ARETN-nin əmrlərini, kollegiya qərarlarını, öz Nizamnaməsini və digər normativ-hüquqi aktları rəhbər tutur.

GDU-da idarəetmə prosesində mütəşəkkilliyi təmin etmək üçün ümumi qaydalardan, fakültə, kafedra və şöbələrin daxili Əsasnamələrindən əlavə GDU-nun Elmi Şurası tərəfindən Tədris-Metodiki Şura, Komissiyalar, İşçi Qruplar, Mərkəzlər, müəyyən fəaliyyətlərin icrasına dair Əsasnamələr, Siyasətlər, Qayda və Təlimatlar qəbul edilmişdir. Həmin sənədlərin hamı üçün əlçatanlığının təmin edilməsi məqsədilə universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

GDU təhsilin bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə təhsil proqramlarını həyata keçirən, regionun ən böyük dövlət təhsil müəssisəsidir. Hazırda GDU-da təhsil proqramları Filologiya, Fizika və texniki fənlər, İqtisadiyyat və idarəetmə, Pedaqoji, Riyaziyyat-informatika, Kimya-biologiya, Tarix-coğrafiya, Xarici dillər olmaqla 8 fakültədə, Qiyabi, Magistratura və Doktorantura şöbələrində həyata keçirilir.

2018-ci ildə 80 illiyini qeyd etmiş GDU tarixi inkişaf yolu keçmiş, ölkədə təhsilin və müəllim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərmişdir. Hazırda universitetdə 31 kafedra üzrə 121 nəfər dosent, 207 nəfər fəlsəfə doktoru, 269 nəfər baş müəllim və 181 nəfər müəllim fəaliyyət göstərir ki, onlardan 1 nəfəri AMEA-nın müxbir üzvü, 11 nəfəri elmlər doktoru, professor, 7 nəfəri elmlər doktoru, dosent, 1 nəfəri elmlər doktoru, müəllim, 2 nəfəri fəlsəfə doktoru, professor, 9 nəfəri fəxri professor, 5 nəfəri fəxri doktor, 1 nəfəri “Əməkdar elm xadimi”, 9 nəfəri “Əməkdar müəllim”, 1 nəfəri “Əməkdar mühəndis”, 1 nəfəri “Əməkdar jurnalist”, 1 nəfəri “Əməkdar rəssam” fəxri adına layiq görülmüş, eyni zamanda 16 nəfəri “Tərəqqi” medalı, 37 nəfəri “Qabaqcıl təhsil işçisi” döş nişanı, 1 nəfəri isə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilmişdir. Hazırda universitetimizdə 7301 nəfər bakalavriat, 572 nəfər magistratura, 44 nəfər dissertantura, 29 nəfər doktorantura səviyyəsində təhsil alır.

Azərbaycan Respublikası Prezidentinin 11.09.2014-cü il tarixli 284 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2000-ci il tarixli 13 iyun tarixli 349 nömrəli Fərmanında edilmiş dəyişikliklərə müvafiq olaraq Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının fəaliyyətinin hüquqi əsasları ortadan qaldırılmışdır. Qeyd edilən Fərmanın icrası ilə əlaqədar ARTN-nin 16.09.2014-cü il tarixli 1001 saylı əmri ilə Gəncə filialının bütün əmlakı

GDU-ya verilmişdir. Eyni zamanda ARNK-nın 3 fevral 2016-cı il tarixli, 30 nömrəli Qərarına əsasən Gəncə Texniki Kolleci və Gəncə Humanitar Kolleci birləşdirilərək Gəncə Dövlət Regional Kolleci adlandırılmışdır. ARNK-nın 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Baş Nazirinin 10 iyul 2020-ci il tarixli 250 saylı Qərarı ilə Gəncə Musiqi Kollecinin Gəncə Dövlət Regional Kollecinə qoşulması formasında yenidən təşkili yolu ilə GDU-nun nəzdində publik hüquqi şəxs statusuna malik olan Regional Kollec yaradılmışdır.

ARETN tərəfindən 2022/2023-cü tədris illəri üzrə MİQ imtahanlarının analitik təhlili aparılmış və əldə edilən nəticələrə əsasən, GDU məzunlarının ön sıralarda yer aldığı müəyyən edilmişdir. Belə ki, GDU namizədlərin ATM-lər üzrə bölgüsündə, illər və orta balına görə 5-ci, İbtidai sinif müəllimliyi ixtisası və İngilis dili fənni üzrə namizədlərin ATM-lər üzrə illər və orta balına görə 4-cü, Riyaziyyat, İnformatika, Fizika, Kimya, Biologiya, Tarix və Coğrafiya fənləri üzrə namizədlərin ATM-lər üzrə illər və orta balına görə 3-cü, Azərbaycan dili və ədəbiyyat fənni üzrə namizədlərin ATM-lər üzrə illər və orta balına görə 5-ci yerdədir. Son beş il üzrə məzunların cari MİQ nəticələrinə əsasən ATM-lərin reytinqində Coğrafiya fənni üzrə 1-ci, İngilis dili və Tarix fənləri üzrə 2-ci, İbtidai sinif müəllimliyi ixtisası 3-cü, Kimya və Biologiya fənləri üzrə 3-cü, Fizika və Fiziki tərbiyə fənləri üzrə 4-cü yeri tutub. Son 5 il üzrə fərqlənmə ilə məzun olan namizədlərin MİQ nəticələrinin təhlili (2022-ci il) üzrə statistikada İbtidai sinif müəllimliyi ixtisası və Biologiya fənni üzrə 1-ci, Azərbaycan dili və ədəbiyyat, Riyaziyyat və İnformatika fənləri üzrə 2-ci, Coğrafiya fənni üzrə 3-cü, Fizika fənni üzrə 4-cü yerdə dayanıb.

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsas götürülərək GDU-da Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi yaradılmış və nəzdində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "EU4Environment" proqramı çərçivəsində BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNİDO) tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və UNİDO-nun Milli İcraçı tərəfdaşı olan "ACE Group Consultants" şirkəti ilə birlikdə Azərbaycanda resurs səmərəliliyi və daha təmiz istehsal (RSDTİ) klubu yaradılmış və və həmin kluba regionda fəaliyyət göstərən KOB-lar cəlb edilib. Layihədə sənaye tullantılarının xəritələşdirilməsi, regionun ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün sənaye

müəssisələrinin tullantılarının azaldılması, həmin tullantıların təkrar emalı, enerji və su ehtiyatlarından qənaətlə istifadəsi, müəssisələrdə innovasiyalı infrastrukturun yaradılması və dairəvi (sirkulyar) iqtisadiyyat prinsiplərinin tətbiqi üzrə Avropa təcrübəsinin ən yaxşı nümunələrinin nümayişi, sahə üzrə təlimlərin keçirilməsi, sahibkarlara əlavə informasiya və məsləhətlərin verilməsi və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin tapşırığı ilə 2020-ci ildə Azərbaycanda ilk dəfə olaraq Gəncə şəhəri Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl Şəhərlər" proqramına daxil edilmişdir. AYİB-in "Yaşıl Şəhərlər" proqramı çərçivəsində icra olunacaq layihələr Gəncə şəhərinə ən aktual ekoloji problemləri, iqlim dəyişikliyi risklərini müəyyən etməklə prioritetləşdirilməsində, şəhərin ekoloji mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır. Layihə çərçivəsində İngiltərənin "ATKİNS Global" şirkəti tərəfindən Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) tərəfindən dəstəklənən "Yaşıl Şəhər" Fəaliyyət Planının (YŞFP) hazırlanması istiqamətində layihə icra olunur. Həmin layihədə dünyada ilk dəfə olaraq GDU tərəfdaş qismində iştirak edir. İnnovasiyalar departamentinin nəzdində fəaliyyət götərən "Nizami Gəncəvi adına dayanıqlı ağıllı şəhərlər və regionlar mərkəzi"nin əməkdaşları həmin layihənin yerli kordinatoru vəzifəsini icra edirlər.

Azərbaycan Respublikasının Prezidentinin 16 noyabr 2018-ci il tarixli 711 saylı Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" nəzərə alınaraq Türkiyə Respublikasının İzmir Dokuz Eylül Universiteti ilə Gəncə Dövlət Universiteti arasında ikili diplom proqramının yaradılması ilə bağlı müvafiq fəaliyyətlər icra edilmişdir. Hər iki universitet arasında 12 dekabr 2021-ci il tarixində imzalanmış əməkdaşlıq müqaviləsinin bəndləri əsas götürülərək tərəflər arasında ikili diplom proqramlarının icrası üçün ilkin razılaşma müqaviləsi, eyni zamanda Avropa İttifaqının Erasmus+ KA107 proqramı və Türkiyə Respublikasının Mevlana proqramı çərçivəsində tərəflər arasında müqavilə imzalanmışdır. Hər iki universitetdə İşçi Qrup yaradılmış və "Biologiya", "Tarix", "İqtisadiyyat" ixtisasları üzrə bakalavr pilləsi üzrə, "İqtisadiyyat" ixtisası üzrə magistr pilləsi üzrə İkili Diplom Proqramları haqqında Protokol hazırlanmışdır. Hazırlanmış Protokollar hər iki universitetin rektoru tərəfindən təsdiq edilmişdir. Hər bir protokol Türkiyə Respublikasının Yüksək Öğretim Kurulu tərəfindən də təsdiq edilmişdir. 2023/2024 tədris ilində Biologiya ixtisası üzrə proqrama start verilmişdir. Hazırda həmin ixtisasın tələbələri Protokola uyğun olaraq İzmir Dokuz Eylül Universitetində tədrisə başlamışdır. Digər ixtisaslar üzrə isə tələbə qəbulu gələn tədris ili üçün planlaşdırılmışdır.

Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2021-ci il tarixli Sərəncamı əsas götürülərək bir çox yerli və beynəlxalq konfranslar təşkil edilmişdir. Eyni zamanda Türkiyə Respublikasının İstanbul, Nişantaşı, Dokuz Eylül və Katip Çelebi Universitetlərində “Nizami Gəncəvi adına mühazirə otaqları” yaradılmışdır. Bu haqda məlumatlar universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Dövrümüzdə təlim və tədqiqat ilə yanaşı, innovasiya, yaşıl artım və sahibkarlıq kimi dayanıqlı inkişaf məqsədləri müasir ali təhsildə proseslərin bir hissəsinə çevrilmişdir. Bu sahələrin ali təhsilə inteqrasiyası və strateji yanaşmanın tətbiq olunması bizim universitet olaraq inkişaf etməyimiz üçün başlıca amil sayılır. İnanırıq ki, 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ın icrası universitetdə təlim və öyrənmə zamanı keyfiyyətin əldə olunmasına, tədqiqat prosesinin gücləndirilməsinə, innovasiya və sahibkarlığın inkişaf etdirilməsinə, universitetin beynəlmiləl bir universitetə çevrilməsinə, dayanıqlı inkişaf, yaşıl artım və dairəvi iqtisadiyyatın təşviq edilməsinə, müasir idarəetmə sisteminin qurulmasına və inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir.

Hazırda GDU-da Keyfiyyət təminatı siyasəti və daxili kefiyyət təminatı mexanizmləri əsasında kefiyyət təminatı mədəniyyətinin qurulması, qaydalara uyğun olaraq təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması, standartlara uyğun tələbəyönümlü tədrisin təşkili məqsədilə təhsil proqramlarının icrası nəticəsində şəffaf və obyektiv təhsil mühitinin yaradılması, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi ilə yeni təlim-tədris metod və üsullarının tətbiqi, müasir tələblərə cavab verən təlim-tədris resurslarından istifadə, təhsilalanların bilik və bacarıqlarının ədalətli, obyektiv və şəffaf qiymətləndirilməsi və təhsil sənədinin verilməsi, aktiv karyera xidməti və məzunlarla davamlı əlaqə sisteminin olması, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq rəqabətqabliyyətli mütəxəssislərin hazırlanması, elmi-tədqiqat strategiyasına uyğun tədqiqat resurslarından istifadə etməklə akademik dürüstlük mexanizminin tətbiqi ilə elmi-tədqiqat fəaliyyətinin təşkili, müasir idarəetmə sisteminin təşkili, maliyyə resurslarının səmərəli idarə edilməsi, müasir standartlara cavab verən informasiya idarəetmə sisteminin tətbiqi, beynəlmiləlləşmə siyasəti əsasında beynəlmiləlləşmə proseslərinin idarə edilməsi nəticəsində performansın artırılması əsas vəzifələr hesab edilir.

GDU cari institusional akkreditasiyadan uğurla keçərək qarşıdakı 5 il ərzində öz işini “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları” əsasında davam etdirməyi və mövcud fəaliyyətləri təkmilləşdirməyi planlaşdırır.

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Gəncə Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyun 2016-cı il,<br>Qeydiyyat № 008<br>5 il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin rəhbəri | prof. Yusif Əmiralı oğlu Yusibov |
| Fakültələrin sayı | 8 |
| Kafedraların sayı | 31 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 44 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 36 ixtisas (69 ixtisaslaşma) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 12 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 7301<br>Magistratura: 572<br>Doktorantura: 73<br>Elmlər doktorluğu proqramı üzrə: 18 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 583 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: 16<br>Saathesabı: 25 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@gdu.edu.az,<br>+994222667033 |
| Müəssisənin hüquqi ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |
| Müəssisənin faktiki ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Komissiyadakı funksiyası | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|---|
| 1 | Dos. Şahin Nadir oğlu Xurşudov | Sədr | Tədris məsələləri üzrə prorektor | shahin.xursudov@gdu.edu.az |
| 2 | Dos. Pərvin Orxan qızı Kərimzadə | Üzv | Elm və innovasiyalar üzrə prorektor | parvin.karimzade@gdu.edu.az |
| 3 | Dos. Gülsüm İsa qızı Fətəliyeva | Üzv | Humanitar məsələlər üzrə prorektor | gulsum.feteliyeva@gdu.edu.az |
| 4 | Fəxrəddin Şərif oğlu Həsənov | Üzv | İnzibati-təsərrüfat işləri üzrə prorektor | faxraddin.hasanov@gdu.edu.az |
| 5 | Dos. Asif Şəmil oğlu Cavadov | Üzv | Rektorun baş müşaviri | asif.cavadov@gdu.edu.az |
| 6 | Dos. Afaq Qulam qızı Qasımova | Üzv | AHİK sədri | afaq.qasimova@gdu.edu.az |
| 7 | Dos. Elturan Cahad oğlu Yusifov | Üzv | Tədris departamentinin direktoru | elturan.yusifov@gdu.edu.az |
| 8 | Dos. Vasif İlkan oğlu Həsənov | Üzv | İnnovasiyalar departamentinin direktoru | vasif.hasanov@gdu.edu.az |
| 9 | b/m. tar.ü.f.d. İsmayıl Akif oğlu İsmayılov | Üzv | Keyfiyyətin Təminatı Mərkəzinin müdiri | ismayil.ismayilov@gdu.edu.az |
| 10 | Prof. Muğan Salman oğlu Quliyev | Üzv | Fizika və texniki fənlər fakültəsinin dekanı | mugan.guliyev@gdu.edu.az |
| 11 | Prof. İsfəndiyar Cavid oğlu Alverdiyev | Üzv | Kimya-biologiya fakültəsinin dekanı | isfandiyar.alverdiyev@gdu.edu.az |
| 12 | Dos. Məsim Kazım oğlu Abadov | Üzv | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı | masim.abadov@gdu.edu.az |
| 13 | Dos. Zakir Aslan oğlu Ələsgərov | Üzv | Filologiya fakültəsinin dekanı | zakir.alasgarov@gdu.edu.az |
| 14 | Dos. Əjdər Əsgər oğlu Əsgərov | Üzv | Xarici dillər fakültəsinin dekanı | ajdar.asgarov@gdu.edu.az |
| 15 | Dos. Urfan Davud oğlu Həsənov | Üzv | Tarix-coğrafiya fakültəsinin dekanı | urfan.hasanov@gdu.edu.az |
| 16 | Dos. Zaur Rafael oğlu Hüseynzadə | Üzv | Pedaqoji fakültənin dekanı | zaur.huseynzada@gdu.edu.az |
| 17 | Dos. Oruc Mustafa oğlu Hüseynov | Üzv | Riyaziyyat-informatika fakültəsinin dekanı | oruc.huseynov@gdu.edu.az |
| 18 | b/m. r.ü.f.d. Seymur Arif oğlu Meşaik | Üzv | Elmi katib | seymur.meshaik@gdu.edu.az |
| 19 | Dos. Emin Kərim oğlu Yaqubov | Üzv | Magistratura şöbəsinin müdiri | emin.yaqubov@gdu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 20 | Elsevər Niyazi oğlu Nağıyev | Üzv | Qiyabi şöbənin müdiri | elsever.nagiyev@gdu.edu.az |
| 21 | Dos. Cabbar İbrahim oğlu Qarayev | Üzv | Təcrübə və karyera şöbəsinin müdiri | cabbar.qarayev@gdu.edu.az |
| 22 | Teyyub Camal oğlu Tağıyev | Üzv | Baş mühasib | teyyub.tagiyev@gdu.edu.az |
| 23 | Gülçöhrə Tağı qızı Tağıyeva | Üzv | İnsan resursları şöbəsinin müdiri | gulcohra.tagiyeva@gdu.edu.az |
| 24 | Elmira Teyyub qızı Kərimova | Üzv | Ümumi şöbənin müdiri | defterxana.elmira@lenta.ru |
| 25 | Ayşən Məhəmməd qızı Əhmədova | Üzv | Kitabxana müdiri | ayshan.ahmadova@gdu.edu.az |
| 26 | Gülnarə Tuhid qızı Cəfərova | Üzv | Nəşriyyat şöbəsinin müdiri | elm@gdu.edu.az<br>gceferova@rambler.ru |
| 27 | Rauf Telman oğlu Nağıyev | Üzv | Arxiv müdiri | +994557022151 |
| 28 | Məhərrəm Ramiz oğlu Babayev | Üzv | Tyutor xidmətinin rəhbəri | maharram.babayev@gdu.edu.az |
| 29 | Ruslan Həsən oğlu Məmmədov | Üzv | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | ruslan.mammadov@gdu.edu.az |
| 30 | Razim İzəddin oğlu Əliyev | Üzv | İnnovasiya Texnologiyalarının Transferi və Marketinqi şöbəsinin müdiri | aliyev.razim@gdu.edu.az |
| 31 | Aynur Ramazan qızı Qasımova | Üzv | İnformasiya resurslarının formalaşması şöbəsinin müdiri | aynur.qasimova@gdu.edu.az |
| 32 | Ariz Xalid oğlu İbrahimov | Üzv | Tələbə evinin direktoru | memmedli948@gmail.com |
| 33 | Günay Cahangir qızı Şirinova | Üzv | Hüquq məsləhətçisi | gunay.shirinova@gdu.edu.az |
| 34 | Günay Asif qızı Məmmədova | Üzv | Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətin rəhbəri | matbuat@gdu.edu.az |
| 35 | Pərviz Mürşüd oğlu Adıgözəlov | Üzv | Tələbə Həmkarlar Təşkilatının sədri | perviz.adigozalov@gdu.edu.az |
| 36 | Vidadi Adil oğlu Bayramov | Üzv | Təmir və tikinti üzrə mühəndis | vidadi.bayramov@gdu.edu.az |
| 37 | Lalə Vüsal qızı Ələkbərova | Üzv | Tələbə Elmi Cəmiyyətinin sədri | lala.alekberova.021@student.gdu.edu.az |
| 38 | Fuad Davud oğlu Dadaşov | Üzv | Tələbə Gənclər Təşkilatının sədri | fuad.dadashov.035@student.gdu.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | Dos. Şahin Nadir oğlu Xurşudov | • Komissiyanın ümumi fəaliyyətinə rəhbərlik<br>• Təlim və tədris, strateji inkişaf, keyfiyyət təminatı və idarəetmə sistemi istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 2 | Dos. Pərvin Orxan qızı Kərimzadə | • Elm-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik<br>• Strateji inkişaf, idarəetmə sistemi, infrastruktur və beynəlmiləlləşmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 3 | Dos. Gülsüm İsa qızı Fətəliyeva | • İdarəetmə sistemi, təlim və tədris istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 4 | Fəxrəddin Şərif oğlu Həsənov | • Strateji inkişaf, elmi-tədqiqat və infrastruktur istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 5 | Dos. Asif Şəmil oğlu Cavadov | • İdarəetmə sistemi istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik<br>• Strateji inkişaf istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 6 | Dos.(attestatsız) Afaq Qulam qızı Qasımova | • Keyfiyyət təminatı və idarəetmə sistemi istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 7 | Dos. (attestatsız) Elturan Cahad oğlu Yusifov | • Təlim və tədris istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik<br>• Keyfiyyət təminatı və idarəetmə sistemi istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 8 | Dos. (attestatsız) Vasif İlkan oğlu Həsənov | • Strateji inkişaf istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik,<br>• Elmi-tədqiqat, idarəetmə sistemi və beynəlmiləlləşmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 9 | B/m. tar.ü.f.d., İsmayıl Akif oğlu İsmayılov | • Keyfiyyət təminatı istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik<br>• Strateji inkişaf, təlim və tədris, elmi-tədqiqat və idarəetmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 10 | Prof. Muğan Salman oğlu Quliyev | • Fizika və texniki fənlər fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 11 | Prof. (attestatsız) İsfəndiyar Cavid oğlu Alverdiyev | • Kimya-biologiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 12 | Dos. Məsim Kazım oğlu Abadov | • İqtisadiyyat və idarəetmə fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 13 | Dos. Zakir Aslan oğlu Ələsgərov | • Filologiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 14 | Dos. Əjdər Əsgər oğlu Əsgərov | • Xarici dillər fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 15 | Dos. Urfan Davud oğlu Həsənov | • Tarix-coğrafiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 16 | Dos. Zaur Rafael oğlu Hüseynzadə | • Pedaqoji fakültə üzrə özünütəhlil qrupunun rəhbəri |

| | | |
|---|---|---|
| 17 | Dos. Oruc Mustafa oğlu Hüseynov | • Riyaziyyat-informatika fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri |
| 18 | Elsevər Niyazi oğlu Nağıyev | • Təlim və tədris, elmi-tədqiqat istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 19 | Dos. Emin Kərim oğlu Yaqubov | • Təlim və tədris, elmi-tədqiqat istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 20 | b/m.r.ü.f.d. Seymur Arif oğlu Meşaik | • Elm-tədqiqat, idarəetmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 21 | Dos. Cabbar İbrahim oğlu Qarayev | • Təlim və tədris istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 22 | Teyyub Camal oğlu Tağıyev | • Strateji inkişaf, elmi-tədqiqat, idarəetmə sistemi və infrastruktur istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 23 | Gülçöhrə Tağı qızı Tağıyeva | • Strateji inkişaf və idarəetmə sistemi istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 24 | Elmira Teyyub qızı Kərimova | • İdarəetmə sistemi istiqaməti üzrə özünütəhlil qrupunun üzv |
| 25 | Ayşən Məhəmməd qızı Əhmədova | • Təlim və tədris, elmi-tədqiqat və infrastruktur istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 26 | Gülnarə Tuhid qızı Cəfərova | • Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 27 | Rauf Telman oğlu Nağıyev | • İdarəetmə sistemi istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 28 | Məhərrəm Ramiz oğlu Babayev | • Təlim və tədris istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 29 | Ruslan Həsən oğlu Məmmədov | • Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupuna rəhbərlik<br>• Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 30 | Razim İzəddin oğlu Əliyev | • Strateji inkişaf, elmi-tədqiqat, infrastruktur və beynəlmiləlləşmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 31 | Aynur Ramazan qızı Qasımova | • Təlim və tədris və idarəetmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 32 | Ariz Xalid oğlu İbrahimov | • İdarəetmə və infrastruktur istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 33 | Günay Cahangir qızı Şirinova | • İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 34 | Günay Asif qızı Məmmədova | • İdarəetmə sistemi istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 35 | Pərviz Mürşüd oğlu Adıgözəlov | • Təlim və tədris, idarəetmə sistemləri istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 36 | Vidadi Adil oğlu Bayramov | • İnfrastruktur istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri |
| 37 | Lalə Vüsal qızı Ələkbərova | • Elmi-tədqiqat, idarəetmə sistemi və beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qruplarının üzvü |
| 38 | Fuad Davud oğlu Dadaşov | • Təlim və tədris, idarəetmə sistemi və beynəlmiləlləşmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |

### 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Gəncə Dövlət Universitetində son rəsmi akkreditasiya 2015/2016-cı tədris ilində keçirilmiş və onun nəticəsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin (ARTN) 20.05.2016-cı il tarixli 330 saylı əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 5 il müddətinə (Şəhadətnamə: Qeydiyyat № 008, 07.06.2016) akkreditə olunmuşdur. Akkreditasiya Komissiyasının arayışında universitet rəhbərliyinə akkreditasiya zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılmışdır.

GDU-da son akkreditasiya 2019/2020-ci tədris ilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin (ARNK) 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2019-cu il 27 may tarixli 03-23-683/15 nömrəli məktubuna əsasən həyata keçirilmişdir. Bununla bağlı rektorluğun 2019-cu il 11 iyun tarixli 5/174 saylı əmri ilə "Özünütəhlil Komissiyası" yaradılmış və universitetin özünütəhlil hesabatı hazırlanmışdır. Özünütəhlilin nəticələri haqqında hesabat GDU Elmi Şurasının (EŞ) 15.11.2019-cu il tarixli iclasının (pr. № 8) Qərarı ilə təsdiq edilərək ARTN-nə təqdim edilmişdir. Universitet akkreditasiya qiymətləndirməsindən 67 (altmış yeddi) bal toplayaraq fəaliyyəti "əsasən uyğundur" olaraq qiymətləndirilmişdir. Lakin akkreditasiyanın nəticələri barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində (ARETN) Akkreditasiya Şurası fəaliyyət göstərmədiyinə görə heç bir əmr verilmədiyinə görə Şəhadətnamə alınmamışdır. Yeni yaradılmış Akkreditasiya Şurası universitetin köhnə meyarlar əsasında akkreditə olunduğunu və yeni akkreditasiya meyarlarına uyğun gəlmədiyini əsas gətirərək nəticələri qəbul etməmişdir. Akkreditasiya Komissiyası tərəfindən universitet rəhbərliyinə akkreditasiya zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılmışdır.

Qeyd edək ki, 2019/2020-ci ildə keçirilən akkreditasiyanın nəticələrində ayrı-ayrı struktur bölmələrdə aşkar edilmiş nöqsan və çatışmazlıqlar GDU EŞ-nin 26 may 2021-ci il tarixli iclasında (pr. № 3) geniş müzakirə olunmuşdur. Eyni zamanda ümumilikdə bu nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün EŞ görüləcək işlərin istiqamətləri ilə bağlı qərar qəbul etmişdir. Qeyd edək ki, akkreditasiyanın nəticələri ilə bağlı Akkreditasiya Komissiyası tərəfindən təqdim edilmiş 108 səhifəlik hesabatda göstərilən nöqsan və çatışmazlıqların, tövsiyələrin bir qismi akkreditasiya aparılan dövrdə və bu müzakirəyə qədər aradan qaldırılmışdır.

Bütün bunlarla yanaşı, EŞ-da GDU-da akkreditasiya zamanı aşkarlanan və aradan qaldırılması tövsiyə olunan tədris-informasiya mənbələrinin müasirliyi, universitetin beynəlxalq informasiya şəbəkəsinə çıxışı, tədris-metodik materiallar, o cümlədən ARTN-nin qrifi ilə çap edilmiş dərsliklər və dərs vəsaitlərinin hazırlanması, magistrlik dissertasiyası və ya buraxılış işinə rəhbərliyə görə hər bir rəhbərə təhkim olunan magistrant və bakalavrların sayının mövcud normalara uyğunluğu, mütəxəssis hazırlığının strukturunda aparılmış dəyişikliklər və onların universitetin profilinə və əmək bazarının tələblərinə uyğunluğu, universitetdə tədris prosesinin təşkili, universitetdə təhsil proqramları üzrə hazırlığın keyfiyyəti, universitetdə kadr hazırlığı, universitetin elmi-tədqiqat fəaliyyəti, universitetin beynəlxalq əməkdaşlığı, universitetin maddi-texniki bazası kimi məsələlərə xüsusi diqqət yetirilməsi tövsiyə edilmişdir. TKTA tərəfindən 2015-2019-cu illər üzrə GDU-nun akkreditasiyası keçirilən zaman AK-nın tövsiyələrini nəzərə alaraq növbəti akkreditasiyaya hazırlıq üçün hazırlanmış “Fəaliyyət Planı” universitet EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 3) iclasında təsdiq edilmişdir. Bununla əlaqədar universitet üzrə 14.06.2021-cı il tarixli 5/195 saylı əmr verilmişdir.

“Fəaliyyət Planı”nın koordinasiyasını və hesabatlılığını təmin etmək məqsədilə rektorluğun 21.06.2021-ci il tarixli 5/205 saylı əmri ilə rektorun baş müşaviri “məsul şəxs” təyin edilmişdir. Məsul şəxs tərəfindən tövsiyələrlə bağlı görülmüş işlərə dair hesabatlar “Fəaliyyət Planı”nda qeyd edilmiş hesabatlılıq müddətində toplanılaraq universitet EŞ-da müzakirə edilmişdir.

Həmin dövrdən akkreditasiya ilə bağlı nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar GDU-nun Təşkilat Komissiyasının hesabatını təhlil etmək, yerində müvafiq araşdırmalar aparmaq və nəticələri Akkreditasiya Şurasının müzakirəsinə təqdim etmək məqsədilə Təhsil Nazirinin Təhsildə Keyfiyyət Təminatı Agentliyinin F-463 saylı, 12 noyabr 2020-ci il tarixli əmri əsasında yaradılmış Akkreditasiya Komissiyasının iradları üzrə görülmüş işlər barədə məlumat aşağıdakı kimidir:

| s/s | Tövsiyələr | Görülmüş işlərə dair məlumat |
|---|---|---|
| **I. Tədris-informasiya mənbələrinin müasirliyi** | | |
| 1 | Tədris vəsaitlərinin yenilənməsi, onların məzmunca və metodiki cəhətdən müasir təhsil standartlarına uyğunlaşdırılması, eləcə də ixtisaslar üzrə prioritet istiqamətlər üzrə tədris resurslarının yenilənməsinin sistemli şəkildə planlaşdırılması və həyata keçirilməsi | Tövsiyənin icrası ilə əlaqədar universitet kafedraları üzrə zəruri tədris və tədris-metodik vəsaitləri yenilənib, mövcud olmayanlar hazırlanıb və müvafiq qaydada qrif alınaraq nəşr edilib. Bu sahədə işlər davam etdirilir. |

| | | |
|---|---|---|
| 2 | Fənn proqramlarının hazırlanmasında maraqlı tərəflərin iştirakı ilə təkmilləşdirilməsi və müvafiq sahələr üzrə müasir standartlar və tələblərin (kompetensiyalar, təlim nəticələri, müasir ədəbiyyat, tədris və qiymətləndirmə metodları və s.) gözlənilməsi | Universitet üzrə fənn proqramlarının və sillabusların hazırlanmasına dair “Ali təhsil pilləsində fənn proqramları və fənlər üzrə işçi-tədris proqramlarının (sillabus) hazırlanması, təsdiq edilməsi Qaydaları” hazırlanaraq GDU EŞ-nin 31.01.2024-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 01.02.2024-cü il tarixli 5/38 saylı əmri ilə təsdiq edilmişdir.<br>Rektorluğun 26.05.2023-cü il tarixli 5/142 saylı əmri ilə kafedralar üzrə “Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət Komissiyası” yaradılmış və vaxtaşırı fənn proqramlarının hazırlanmasında maraqlı tərəflərin iştirakı ilə təkmilləşdirilməsi, müvafiq sahələr üzrə müasir standartlara və tələblərə uyğunluğunun (kompetensiyalar, təlim nəticələri, müasir ədəbiyyat, tədris və qiymətləndirmə metodları və s.) monitorinqi aparılmış və protokollaşdırılmışdır.<br>Təlim nəticələri, fənnin məqsəd və vəzifələri, son illərdə çap olunmuş elmi ədəbiyyat və dərs vəsaitlərinin də daxil edildiyi fənn proqramları tərtib edilmişdir. Son bir ildə çox sayda fənn proqramı yenilənmiş və çap olunmaq üçün qrif alınmışdır. Hazırda digər fənlərin proqramlarının tərtib edilməsi və yenilənməsi prosesi davam etdirilir. |
| 3 | Fənn proqramlarında fənn proqram və sillabuslarda qeyd olunan ədəbiyyatlar üzrə onların nüsxələrinin mövcud normalara uyğunluğunun kitabxana fondunda təmin olunması | Fənn proqramlarında və sillabuslarda qeyd olunan elmi ədəbiyyat və dərs vəsaitlərinin əksəriyyəti kitab formasında, bir qisminin isə elektron nüsxələri universitetin kitabxanasında mövcuddur. Müəllimlər və tələbələr tərəfindən ödənişsiz beynəlxalq elektron kitabxanalardan (google scholar, google books və s.) da istifadə edilir. |
| 4 | Sillabusların hazırlanmasında fənn proqramına uyğunluğun təmin edilməsi ilə yanaşı fənn ilə bağlı müasir və aktual hesab olunan mövzuların (proqramda olmayan) da sənədə daxil edilməsi | Bu prosesə kafedralar üzrə yaradılmış “Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət Komissiyası” tərəfindən nəzarət edilir. |
| 5 | Universitetin keyfiyyət təminatı sisteminin tərkib hissəsi olaraq tədris resurslarının (fənn proqramı, sillabuslar və s.) hazırlanması ilə bağlı ayrıca təlimat hazırlanması (təlimat digər müvafiq məsələlərlə bərabər tədris vəsaitlərinin məzmunun yeniliyi, aktuallığı və tələbə-yönümlülüyü nəzərə alınmaqla) | Universitet üzrə “Ali təhsil pilləsində fənn proqramları və fənlər üzrə işçi tədris proqramlarının (sillabus) hazırlanması, təsdiq edilməsi Qaydaları” hazırlanaraq GDU EŞ-nin 31.01.2024-cü il tarixli (Pr. № 05) Qərarı və rektorluğun 01.02.2024-cü il tarixli 5/38 saylı əmri ilə təsdiq edilmişdir. |
| 6 | Seçmə fənlərin müəyyənləşdirilməsi məqsədilə əmək bazarı nümayəndələri ilə hər hansı məsləhətləşmələrin keçirilməsi | Universitet tərəfindən müəyyən edilən fənlər müasirlik və əmək bazarının tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilir. Bu məqsədlə Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin, Gəncə şəhər Kəpəz bələdiyyəsinin, Gəncə şəhər Nizami bələdiyyəsinin, AFB BANK ASC Gəncə filialının, Premium hotelin, Gəncə Regional Poçt filialının, |

| | | |
|---|---|---|
| | | Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi Publik hüquqi şəxs Gəncə şəhər Birləşmiş Xəstəxanasının, Dövlət Arxivi Gəncə filialının, Kapital Bank ASC-nin Gəncə filialının, VİS PALM HOTEL-in, Rabitə bank ASC-nin Gəncə filialının, Bakı Hotel Gəncə MMC-nin və Gəncə Mehmanxana ASC-nin əmək bazarının tələblərinə uyğun kadr hazırlığı barədə rəyləri alınıb. |
| **II. Universitetin beynəlxalq informasiya şəbəkəsinə çıxışı** | | |
| 1 | Elmi-tədqiqat fəaliyyətinə əhəmiyyət verən universitet tərəfindən digər beynəlxalq informasiya bazalarına (Elsevier, JSTOR və s.) çıxış imkanlarının yaradılması | GDU ARETN-nin yaratdığı Konsorsiumda yer alaraq müəyyən məbləğdə maliyyə ödəmək şərti ilə Clarivate Analitics şirkətinə məxsus olan “Web of Science” bazasından istifadə imkanı əldə etmişdir. Eyni zamanda Elsevier, Springer, Scopus kimi beynəlxalq informasiya bazalarına çıxışı təmin etmək üçün yeni bir Konsorsiumun yaradılması işlərinə başlanılmışdır. Lazımi texniki və təşkilati proseslər yekunlaşdıqdan sonra bu bazalardan istifadə üçün əməkdaşlara şərait yaradılacaqdır. 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da “2.1.2. Universitetin beynəlxalq elmmetrik bazalarda (məs., Scopus, Web of science, Elsevier, Springer, JSTOR və s.) korporativ profilinin, professor-müəllim heyətinin isə şəxsi profillərini yaratmaq” adlı fəaliyyət müəyyən edilib. |
| **III. Tədris-metodik materiallar, o cümlədən AR TN-nin qrifi ilə çap edilmiş dərsliklər və dərs vəsaitlərinin hazırlanması** | | |
| 1 | Professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris vəsaitləri, elmi-tədqiqat işləri, dissertasiyaların və buraxılış işlərinin “Plagiat.pl” şirkətinə aid anti-plagiat proqramından istifadə olunmaqla plaqiata qarşı yoxlanılması | Universitetdə anti plagiat proqramı 2015-ci ildən fəaliyyət göstərir. GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Antiplagiat və akademik dürüstlük Siyasəti” əsasında professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris vəsaitləri, elmi-tədqiqat işləri “Plagiat.pl” şirkətinə məxsus anti-plaqiat proqramı vasitəsilə yoxlanılır. Buraxılış və dissertasiya işləri 2020/2021, 2021/2022-ci tədris illəri pandemiya dövrünə təsadüf etdiyi üçün antiplagiat sistemi ilə yoxlanılmayıb. ARETN-nin müvafiq əmrləri ilə təsdiq edilmiş təhsil proqramlarında buraxılış işləri nəzərdə tutulmadığına görə cari tədris ilində də antiplagiat sistemi tətbiq edilməyib. Magistr dissertasiyalarının 2023/2024-cü tədris ilindən antiplagiat sistemi ilə yoxlanıması planlaşdırılıb. |
| **IV. Magistrlik dissertasiyası və ya buraxılış işinə rəhbərliyə görə hər bir rəhbərə təhkim olunan magistrant və bakalavrların sayının mövcud normalara uyğunluğu** | | |
| 1 | Bakalavriat və magistratura səviyyələrində buraxılış və dissertasiya işinə rəhbərliyə görə 1 tələbəyə ayrılmış saatların miqdarının mövcud qaydaya uyğun bölgüsü | Universitet üzrə 15.03.2021-ci il tarixli 5/68 saylı əmr ilə 1 tələbəyə ayrılmış saatların miqdarının mövcud qaydaya uyğun bölgüsü tənzimlənir. |
| **V. Mütəxəssis hazırlığının strukturunda aparılmış dəyişikliklər və onların universitetin profilinə və əmək bazarının tələblərinə uyğunluğu** | | |
| 1 | Magistratura səviyyəsi üzrə ixtisasların universitetin profilinə və əmək bazarının tələbələrinə uyğun olaraq dəyişdirilməsi və təkmilləşdirilməsi | 2023/2024-cü tədris ilində 6 ixtisaslaşma üzrə aşağıdakı MBA ixtisaslarına tələbə qəbulu həyata keçirilmişdir:<br>• Biznesin təşkili və idarəedilməsi (Biznes inzibatçılığı)<br>• Biznesin təşkili və idarəedilməsi (Biznesin |

| | | |
|---|---|---|
| | | idarə edilməsi)<br>• Biznesin təşkili və idarəedilməsi (Maliyyə)<br>• Biznesin təşkili və idarəedilməsi (Marketinq)<br>• Biznesin təşkili və idarəedilməsi (Menecment)<br>• Biznesin təşkili və idarəedilməsi (Mühasibat) |
| **VI. Universitetdə tədris prosesinin təşkili** | | |
| 1 | Elektron universitet modelinə keçidlə əlaqədar strateji planın hazırlanması və sürətli keçidin təmin olunması | Ultra şirkəti ilə bağlanılmış müqaviləyə uyğun olaraq "Eduman" adlı tədrisin idarəedilməsi elektron platforması alınaraq universitetin yeni alınmış serverində quraşdırılıb. Platformanın işlək halda olması üçün tələb olunan bütün texniki təchizat məsələləri həll edilib, yeni qurğular alınaraq universitet şəbəkəsinin təkmilləşdirilməsi prosesi həyata keçirilib. Platformadan istifadə üçün auditoriyalarda bütün lazımi şərait yardılıb. 2023/2024-cü tədris ilinin yaz semestrindən etibarən Eduman proqramı ilə pilot layihə kimi hər fakültədən bir ixtisasda olmaqla elektron jurnal vasitəsilə tədrisin təşkilinə başlanılıb. |
| 2 | Professor-müəllim heyətinin müasir informasiya texnologiyalarının imkanlarından istifadəsini artırmaq məqsədilə təlimlərin təşkil edilməsi | Universitet kafedralarının əməkdaşları müasir informasiya texnologiyalarının imkanlarından istifadə etmək məqsədilə fərdi şəkildə ayrı-ayrı özəl kurslarda təlimlərdə olmuşdular. Universitetdə bu sahədə bir neçə təlim təşkil edilmişdir, xüsusilə də "Ağıllı lövhələr"dən və digər informasiya texnologiyalarından istifadəsi ilə bağlı təlimlər təşkil olunmuşdur. Bunlarla yanaşı Eduman platformasından istifadəyə dair 4 mərhələdən ibarət olan təlim paketi həyata keçirilib. |
| 3 | SOS Uşaq Kəndi ilə əlaqələrin qurulması və müvafiq praktiki dərslərin orada təşkilinin təmin edilməsi | Psixologiya, Təhsildə sosial-psixoloji xidmət və Sosial iş ixtisaslarının tələbələrinin bəzi praktik və seminar məşğələləri SOS Uşaq Kəndində keçirilir. Bu məqsədlə universitet üzrə 13.10.2021-ci il tarixli 5/311 saylı, 15.09.2022-ci il tarixli 5/292 saylı, 21.09.2023-cü il tarixli 5/234 saylı əmrlər verilib. Buna dair məlumatlar universitetin rəsmi internet səhifəsində əks olunub. |
| 4 | Tələbələrə seçmə fənlərin müəyyən edilməsində sərbəstliyin verilməsi | Tədris planlarına daxil edilmiş seçmə fənlər hər tədris ilinin yaz semestrində aprel – may ayları ərzində tələbələr tərəfindən seçilmiş və protokollaşdırılmışdır. Seçmə fənlərin tələbələr tərəfindən seçilməsi məqsədilə büllütenlər hazırlanmış və fənləri tədris edən müəllimlər dəvət edilmişdir. Müəllimlər seçmə fənlərin məqsədi, hədəfləri, nəticələri və qiymətləndirmə metodları barədə tələbələrə ətraflı məlumatlar vermişdir. |
| **VII. Universitetdə təhsil proqramları üzrə hazırlığın keyfiyyəti** | | |
| 1 | Ali təhsil sahəsində həyata keçirilən dəyişikliklərin səmərəliliyinin təmin olunması üçün universitet daxilində effektiv daxili keyfiyyət təminatı sisteminin qurulması, bunun üçün tələb olunan müvafiq resursların ayrılması və bu prosesə məsul olan struktur vahidinin verilmiş səlahiyyət çərçivəsində müstəqil fəaliyyətinə şəraitin yaradılması | GDU EŞ-nin 25.09.2020-ci il tarixli (Pr. № 5) saylı Qərarı və rektorluğun 28.09.2020-ci il tarixli 5/181 saylı əmri ilə universitetin Keyfiyyətin Təminatı Mərkəzi yaradılmışdır. Eyni saylı əmr ilə mərkəzin Əsasnamə və Nizamnaməsi təsdiq edilmişdir. Yaradılmış mərkəz və onun rəhbəri bir başa rektora tabedir və onun fəaliyyəti müstəqil formada təşkil edilmişdir. |
| 2 | Ali təhsilin səmərəliliyinin artırılması üçün tələbə-yönümlü öyrənmə, tədris və qiymətləndirmə üsullarına keçidin təmin edilməsi, o cümlədən: | 2.1. Tədris vəsaitlərinin məzmununun sistemli və balanslı şəkildə yenilənməsi prosesi müvafiq kafedralar tərəfindən həyata keçirilib. |

| | | |
|---|---|---|
| | 2.1. Tədris vəsaitlərinin məzmunu sistemli və balanslı (yəni tədris olunan bütün ixtisasları əhatə edəcək) şəkildə yenilənməsi;<br>2.2.Tədris olunan fənlərin təlim nəticələri yenilənmiş Blum taksonomiyasının tələblərinə uyğun tərtib edilməli və istifadə olunan qiymətləndirmə formaları təlim nəticələrini ölçməyə imkan verməsi;<br>2.3. Təlim prosesinin, o cümlədən professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi meyarları təkmilləşdirilməli və vahid keyfiyyət siyasətinin tərkib hissəsi kimi mütəmadi qaydada həyata keçirilməsi;<br>2.4. Hər semestrin yekununda tələbələrdən təlim prosesi ilə bağlı rəylərin toplanması və təhlil edilməsi;<br>2.5. Təlim üsullarının təkmilləşdirilməsi məqsədilə müvafiq təlimatların hazırlanması və professor-müəllim heyəti üçün təlimlərin təşkil edilməsi;<br>2.6. Tələbələrin kredit sistemi ilə tədrisin təşkili, habelə onların hüquqları haqqında dolğun təsəvvürünün formalaşdırılması üçün müvafiq məlumatlandırıcı tədbirlərin görülməsi | 2.2. Tədris olunan fənlərin təlim nəticələrinin Blum taksonomiyasının tələblərinə uyğunluğu kafedralar üzrə yaradılmış “Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət komissiyası” tərəfindən nəzarətdə saxlanılır.<br>2.3. Universitetdə professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi pedaqoji və elmi fəaliyyətə görə aparılır. Professor-müəllim heyətinin pedaqoji fəaliyyətini stimullaşdırmaq məqsədilə Kimya və biologiya müəllimliyi ixtisasının tədrisi ingilis dilində olan qruplarında dərs deyən müəllimlərin aylıq əmək haqqına 2023 və 2024-cü ildə əlavələr edilmişdir. Eyni zamanda elmi və metodik fəaliyyətinin stimullaşdırılması, “Web of science” bazasına daxil olan jurnallarda çap olunmuş hər bir məqaləyə görə, elmlər doktoru və fəlsəfə doktoru üzrə dissertasiyanın müdafiəsi üçün universitet üzrə 13.04.2016-cı il tarixli 5/97 saylı əmri ilə qaydalar müəyyən edilmişdir.<br>2.4. Hər semestrin yekununda tələbələrdən təlim prosesi ilə bağlı rəylərin toplanması və təhlil edilməsi məqsədi ilə Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən sorğular keçirilib.<br>2.5. “Tədris prosesində təlim metodlarının tətbiqinə dair Metodiki Tövsiyələr” hazırlanaraq GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmişdir. Bu məqsədlə professor-müəllim heyəti üçün təlimlər təşkil edilib.<br>2.6. Tələbələrin kredit sistemi ilə tədrisin təşkili, habelə onların hüquqları haqqında dolğun təsəvvürünün formalaşdırılması üçün müvafiq təlimat hazırlanıb və universitetin internet ünvanında yerləşdirilib. https://gdu.edu.az |
| 3 | Müvafiq ixtisaslar üzrə qəbul planı hazırlanarkən universitetin mövcud imkanları, habelə ixtisasın açılmasının maliyyə baxımından səmərəliliyinin təhlil olunması | Qəbul planı layihəsi habelə ixtisasın açılmasının maliyyə baxımından səmərəliliyi universitet EŞ-nin 04 oktyabr 2023-cü il tarixli (pr. № 01) müzakirə edilərək təsdiq edilmişdir. |
| 4 | Buraxılış işləri və dissertasiyalarla əlaqədar elmi-tədqiqat fəaliyyətinin aparılması prosesini tələbələrə izah edən, anlaşıqlı üslubda tərtib olunmuş təlimat(lar)ın hazırlanması | Buraxılış işləri və dissertasiyalarla əlaqədar elmi-tədqiqat fəaliyyətinin aparılması prosesini tələbələrə izah edən, anlaşıqlı üslubda tərtib olunmuş təlimatlar hazırlanıb və universitetin internet ünvanında yerləşdirilib. |
| 5 | Təcrübə və karyera şöbəsinin tələbələrin peşəkar (əmək bazarı ilə əlaqədar) inkişafını təşviq edən fəaliyyətlərin təşkilini prioritetləşdirməsi | GDU-da tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi məqsədi ilə universitet EŞ-nin 18.04.2012-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 20.04.2012-ci il tarixli 5/73 saylı əmri əsasında “Təcrübə və karyera” şöbəsi (https://gdu.edu.az/təcrubə-və-karyera-sobəsi/) yaradılmışdır. Buna dair fəaliyyətlər GDU EŞ-nin 01.03.2023-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 16.03.2023-cü il tarixli 5/59 saylı əmri ilə təsdiq edilmiş “GDU-nun çoxpilləli təhsil sistemində tələbələrin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə”sinə əsasən həyata keçirilir. Eyni zamanda 2020-ci ildə təsdiq edilmiş təhsil proqramlarına uyğun olaraq |

| | | |
|---|---|---|
| | | müəllimlik ixtisaslarında nəzərdə tutulan pedaqoji internaturanın keçirilməsi üçün GDU EŞ-nin 31.01.2024-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 01.02.2024-cü il tarixli 5/38 saylı əmri ilə "Pedaqoji internaturanın təşkili və keçirilməsi Qaydaları" təsdiq edilmişdir. |
| 6 | Məzunların mütəmadi yenilənən əlaqə məlumatlarından ibarət məlumat bazası yaradılması və onların məşğulluq vəziyyəti barəsində məlumatların toplanması/təhlil edilməsi, habelə mövcud karyera imkanları haqqında onlara vaxtaşırı məlumatların verilməsi | İxtisas proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi məqsədi ilə Təcrübə və Karyera şöbəsi tərəfindən 2019-2023-cü illəri əhatə edən MİQ-in nəticələri, məzunların şəxsiyyət vəsiqəsinin FİN kodları və zəruri əlaqə məlumatları əsasında baza yaradılmışdır. |
| 7 | Tələbələrin təcrübə keçə biləcəyi özəl sektora aid tərəfdaşların sıraları genişləndirilməsi, tələbələrin pedaqoji və istehsalat təcrübələrinin effektivliyini mütəmadi (təcrübə müddətində) monitorinq etməyə imkan verən işlək mexanizmlərin hazırlanaraq tətbiq olunması | Tələbələrin təcrübə keçə biləcəyi özəl sektora aid tərəfdaşların sıraları hər il mütəmadi olaraq genişləndirilməsi məqsədi ilə görüşlər təşkil edilir və müvafiq əməkdaşlıq müqavilələri bağlanılır. Tələbələrin pedaqoji və istehsalat təcrübələrinin effektivliyi Təcrübə və Karyera şöbəsi tərəfindən mütəmadi (təcrübə müddətində) olaraq monitorinq edilir. Eyni zamanda hər tədris ilində universitet rektorluğu tərəfindən "Pedaqoji internatura və istehsalat təcrübələri müddətində tələbələrin davamiyyətini, sınaq dərslərinin səmərəli təşkilini, sənədləşmə işləri, dərs jurnallarının qeydiyyatı qaydaları və müasir təlim texnologiyaları ilə tanış etmək məqsədilə İşçi Qrup" yaradılır. Həmin İşçi Qrup tərəfindən görülmüş işlərə dair hesabatlar hazırlanaraq Təcrübə və karyera şöbəsinə təqdim edilir. Şöbə tərəfindən yekun hesabat universitet EŞ-də müzakirə edilir. |
| 8 | Akademik heyətin işə qəbul prosesinin bütün mərhələlərinin müvafiq yazılı təlimat hazırlanması, o cümlədən ölçülə bilən meyarlar əsasında həyata keçirilməsi | Akademik heyətin işə qəbul prosesinin bütün mərhələləri üçün "Bakalavriat və ya daha yüksək dərəcəli olan namizədlər üçün işə qəbul meyarları" və "İşə qəbul siyasəti" hazırlanaraq GDU EŞ-nin 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı ilə təsdiq edilmişdir. |
| 9 | Ali təhsil prosesi (o cümlədən, Bolonya sisteminin tələbləri) haqqında məlumat kitabçalarının hazırlanması, universitetə yeni qəbul olmuş və təhsil alan digər tələbələrə verilməsi, GDU-nun vebsaytında müvafiq məlumatların yerləşdirilməsi | Tələbələrin kredit sistemi ilə tədrisin təşkili, habelə onların hüquqları haqqında dolğun təsəvvürünün formalaşdırılması üçün təlimat hazırlanıb və universitetin internet ünvanında yerləşdirilib. |
| **IX. Universitetdə kadr hazırlığı** | | |
| 1 | Dərs yüklərinin bölgüsü zamanı daxili əvəzçilər və daxili saathesabı üçün nəzərdə tutulan yüklərin mümkün qədər az bölünməsi | Dərs yüklərinin bölgüsü zamanı daxili əvəzçilər yalnız vəzifə daşıyan şəxslərə planlaşdırılıb. Daxili saathesabı ancaq İqtisadiyyat, İdarəetmə, Menecment və turizm işi kafedralarında MBA ixtisaslarında, Musiqi fənləri kafedrasında dərslər fərdi məşğələ formasında keçirildiyinə görə, Kimya və biologiya müəllimliyi ixtisasının tədrisi ingilis dilində olan qruplarında isə mütəxəssis çatışmazlığına görə planlaşdırılıb. |
| 2 | İnzibatı heyətin sayının optimallaşdırılması və ixtisas uyğunluğunun təmin olunması istiqamətində zəruri tədbirlərin görülməsi | 2019-cu ilin dekabr və 2020-ci ilin fevral aylarını, 2023-cü ilin dekabr və 2024-cü ilin mart aylarını əhatə edən Maliyyə yoxlamalarının nəticəsi olaraq inzibatı heyətin sayının optimallaşdırılması və ixtisas uyğunluğunun təmin olunması istiqamətində zəruri tədbirlər görülüb.<br>Bir neçə tədris köməkçi heyətinə aid ştat vahidi ləvğ edilərək rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri ilə tyutor ştatı ilə əvəzlənmişdir. |

| | | |
|---|---|---|
| | | Eyni zamanda rektorluğun 02.05.2023-cü il tarixli 5/118 saylı əmri ilə yaşı 70-dən yuxarı olan tədris-köməkçi heyəti ilə bağlanılmış müqavilələrə xitam verilmişdir. |
| 3 | GDU-da strukturun optimallaşdırılması və kadrların effektiv idarəedilməsi məqsədi ilə ştat cədvəlindəki bütün strukturların əsasnamələrinin analiz edilməsi, təkrarlanan funksiyaların birləşdirilməsi və vəzifə təlimatlarının hazırlanaraq əməkdaşlara təqdim olunması | GDU-da struktur islahatları ilə əlaqədar olaraq Tədris-elektron mərkəzi və Tədris şöbəsi ləvğ edilmiş, əvəzində GDU EŞ-nin 05.05.2021-ci il tarixli (pr. № 02) Qərarı və rektorluğun 16.05.2021-ci il tarixli 5/153 saylı əmri ilə Tədris departamenti yaradılmışdır. Eyni zamanda GDU EŞ-nin 28.12.2021-ci il tarixli (pr. № 08) Qərarı və rektorluğun 06.01.2022-ci il tarixli 5/03 saylı əmri ilə Cəbr və həndəsə kafedrası ilə İnformatika kafedrası birləşdirilərək İnformatika və cəbr kafedrası yaradılmışdır. |
| 4 | GDU-da professor-müəllim heyətinin ixtisasartırma işinin qurulması və təkmilləşdirilməsi | Respublika üzrə stajkeçmə xidməti göstərən müəssisələr fəaliyyət göstərmədiyini nəzərə alaraq bu proses universitetdə yaradılmış Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi, STEAM laboratoriyasında həyata keçirilir. Əməkdaşların bilik və bacarıqlarının artırılması üçün beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakı təmin edilir. Eyni zamanda beynəlxalq layihələr çərçivəsində xarici ekspertlər tərəfindən təlimlər təşkil edilir. Nəticədə əməkdaşlar bilik və bacarıqlarını artırmaqla bərabər, beynəlxalq təcrübəni öyrənərək müvafiq sertifikatlarla təmin olunur. |
| 5 | Təcrübəli müəllimlərin öz bilik və bacarıqlarının gənc müəllimlərə ötürməsi üçün müvafiq şəraitin (assistentlik fəaliyyəti) yaradılması. | Müəllimlərin təcrübəsinin və müasir təlim texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə təcrübəli professor-müəllim heyətinin nümunəvi dərsləri təşkil edilir. Eyni zamanda daha yüksək kompetisiyalı müəllimlər gənc müəllimlərin dərslərində iştirak edərək lazımi məsləhətlərini verir. Bununla yanaşı universitetdə və baza məktəblərində səriştəli müəllimlərin ustad dərsləri təşkil edilərək gənc müəllimlərin iştirakı təmin edilir. 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da "5.2.4. Təcrübəli müəllimlərin öz bilik və bacarıqlarının gənc müəllimlərə ötürməsi üçün müvafiq şərait (assistentlik fəaliyyəti) yaratmaq" adlı fəaliiyət müəyyən edilib. |
| 6 | Universitetdə idarəetmənin 4 funksiyasının (qiymətləndirmə, tənzimləmə, informasiya təminatı, nəzarət) effektiv icrası üçün tələb olunan mexanizmlərin aydın müəyyən edilməsi, onların icrasına dair müvafiq təlimatların hazırlanması, icra vəziyyətinin davamlı monitorinqinin aparılması və təkmilləşmənin təmin edilməsi. | İdarəetmənin 4 funksiyasının effektiv icrası üçün tələb olunan mexanizmlər mövcuddur və davamlı şəkildə monitorinqi aparılır. |
| **X. Universitetin elmi-tədqiqat fəaliyyəti** | | |
| 1 | Aparılan tədqiqat işlərinin nəticələrinin tədris prosesində daha səmərəli istifadə edilərək fənn proqramlarının/sillabusların yenilənməsi prosesində nəzərə alınması | GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 4) Qərarı ilə universitet üzrə "Ali təhsil pilləsində fənn proqramları və fənlər üzrə işçi-tədris proqramlarının (sillabus) hazırlanması və təsdiq edilməsi Qaydaları" təsdiq edilmişdir. Qaydalara uyğun olaraq bütün fənlərin təlim nəticələrinin sillabuslarda öz əksini tapmasına kafedralar üzrə "Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn |

| | | |
|---|---|---|
| | | sillabuslarının hazırlanmasına nəzarət Komissiyası" tərəfindən nəzarət edilir (universitetin internet səhifəsində sənədlər bölməsində mövcuddur). |
| 2 | Elmi təqdiqatların maliyyələşmə mənbələrinin diversifikasiyası və bu sahəyə daha çox vəsaitin cəlb olunması | Elmi tədqiqatların inkişaf etdirilməsi üçün hər il universitet büdcəsindən xüsusi maliyyə ayrılmışdır. Eyni zamanda elmi tədqiqatçıların yerli və beynəlxalq konfranslarda iştirakını təmin etmək, əməkdaşlıq etdiyimiz universitetlərlə birgə elmi tədqiqat işlərinin aparılması üçün ezamiyyə xərcləri qarşılanmışdır. Universitetdə kimyəvi materialşünaslıq üzrə elmi tədqiqat laboratoriyası qurulmuş və bütün lazımi avadanlıqlarla təchiz edilmişdir. Hər il həmin elmi tədqiqat laboratoriyasına kimyəvi preparatların, təcrübə üçün lazım olan materialların və s. alınması təmin edilmişdir. Cari ildə yeni elmi tədqiqat laboratoriyalarının alınması üçün təkliflər alınmış və maliyyə ayrılmışdır. Yaxın zamanda həmin laboratoriyaların qurulmasına başlanacaq. Elmi tədqiqatla bağlı yerli və beynəlxalq qrant müsabiqələrində iştirak təmin edilmiş, bir neçə layihələr qazanılmışdır. |
| 3 | Bütün ixtisaslar üzrə tədqiqatların təkmilləşdirilməsi və bu sahədə universitet-sənaye əlaqələrinin inkişaf etdirilməsi | Sözügedən mövzuyla əlaqədar olaraq ölkə rəhbərliyinin müvafiq Fərman və Sərəncamları əsasında GDU-da bir çox fəaliyyətlər həyata keçirilmişdir. Bu fəaliyyətlərin icrası İnnovasiyalar departamenti tərəfindən, xüsusilə də İnnovasiya texnologiyalarının transferi və marketinqi şöbəsi tərəfindən həyata keçirilir.<br>Sözügedən fəaliyyətə dair universitetin 2023-2028-ci illəri əhatə edən Strateji Planında xüsusi olaraq yer verilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq Gəncə Dövlət Universitetinin (GDU) Elmi Şurasının 2021-ci il 4 oktyabr tarixli (pr. № 05) Qərarı ilə GDU-nun nəzdində Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzinin Əsasnaməsi təsdiq edilmişdir.<br>Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri üçün həyata keçirilən "Avropa İttifaqı Ətraf mühit üçün (EU4Environment)" layihəsi çərçivəsində BMT-nin Sənaye inkişafı təşkilatının (UNIDO) dəstəyi ilə Mərkəzdə Qərb regionundan olan kiçik və orta sahibkarlar üçün "Resurs səmərəliliyi və daha təmiz istehsal (RECP) klubu" yaradılmışdır.<br>Bildiyiniz kimi, Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Gəncə şəhəri Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "yaşıl şəhərlər" proqramına qoşulmuşdur. Qeyd edim ki, dünyada ilk dəfə olaraq "yaşıl şəhərlər" proqramında bir universitet tərəfdaş olaraq iştirak edir. Həmin universitet Gəncə Dövlət Universitetidir. "Yaşıl şəhərlər" proqramı çərçivəsində İngiltərənin Atkins şirkəti tərəfindən Gəncənin "yaşıl şəhər tədbirlər planının (Green City Action Plan - GCAP)" hazırlanması nəzərdə tutulmuşdur. Həmin Planın hazırlanması üçün nəzərdə tutulan layihənin yerli koordinatoru da |

| | | |
|---|---|---|
| | | GDU-dur. Onu da qeyd edim ki, Plan artıq tam olaraq hazırlanmış və təsdiq edilməsi üçün Gəncə şəhər İH-nə təqdim edilmişdir. |
| 4 | Doktorantların universitet ilə olan münasibətlərinin daha effektiv təşkili məqsədilə Doktorantura şöbəsinin yaradılması və doktorantların universitetdə əmək fəaliyyətinə cəlb edilməsi (assistent kimi) mexanizmlərinin işlənilib hazırlanması | GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 25.06.2023-cü il tarixli 5/180 saylı əmri ilə universitetdə Doktorantura şöbəsi yaradılmışdır. |
| 5 | Bakalavrların TEC vasitəsilə elmi-tədqiqat fəaliyyətinə cəlb olunması ilə bağlı işlərin təkmilləşdirilməsi | Universitetdə aparılan sonuncu akkreditasiya prosesində TEC sədrinin tələbələr arasından seçilərək təyin edilməsi məsləhət edilmişdir. Bunu nəzərə alaraq hər bir fakültə üzrə namizədlər təqdim edilmiş və 01.12.2021-ci il tarixdə keçirilmiş seçki iclasının protokolu əsasında rektorluğun 10.12.2021-ci il tarixli 1/362 saylı əmri ilə tələbələr arasından sədr seçilmişdir.<br>ARTN-nin 04.07.2022-ci il tarixli F-416 saylı əmri və rektorluğun 05.07.2022-ci il tarixli 5/237 saylı əmri ilə təsdiq edilmiş EŞ-in tərkibinə TEC sədri də daxil edilmişdir.<br>Universitet EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 29.12.2023-cü il tarixli 5/438 saylı əmri ilə TEC sədri EŞ-in nəzdində yaradılmış Sosial-İqtisadi Komissiyanın tərkibinə daxil edilmişdir. |
| 6 | Universitetin tanıdılması və yüksək potensiallı abituriyentlərin cəlb edilməsi məqsədilə beynəlxalq və respublika müsabiqə və sərgilərində iştirakın artırılması | GDU-da son illər ərzində aparılan səmərəli tədris, elmi-tədqiqat, tərbiyə işlərinin, beynəlxalq əlaqələrin Gəncə şəhərində və ətraf rayonların orta məktəblərində təbliği ilə əlaqədar, eyni zamanda universitetin tanıdılması və yüksək potensiallı abituriyentlərin cəlb edilməsi məqsədilə rektorluğun 03.10.2023-cü il tarixli 5/249 saylı əmri ilə professor-müəllim heyətindən ibarət İşçi Qrup yaradılmışdır.<br>Bütün bunlarla yanaşı universitet olaraq beynəlxalq və respublika müsabiqə və sərgilərində iştiraka xüsusi önəm verilir. Belə ki, universitet hər il Baku Expo Mərkəzində təşkil edilmiş “Təhsil və Karyera” sərgisində iştirak etmiş və müxtəlif nominasiyalar üzrə müvafiq sertifikatlar əldə etmişdir. Ölkə hüdudlarından kənarda təşkil edilən müsabiqə və sərgilərdə iştirak etmək üçün müvafiq işlər aparılmaqdadır.<br>Universitetin rəsmi internet səhifəsində bunlara dair məlumatları görmək mümkündür. |
| **XI. Universitetin beynəlxalq əməkdaşlığı** | | |
| 1 | Ali təhsilin beynəlmilləşməsi prosesini sürətləndirmək üçün beynəlxalq tərəfdaş universitetlərlə ikili diplom proqramlarının yaradılması və mübadilə proqramlarının genişləndirilməsi (və davamlılığının təmin olunması) istiqamətində tədbirlərin görülməsi | Türkiyə Respublikasının İzmir Dokuz Eylül Universiteti ilə GDU arasında 12 dekabr 2021-ci il tarixində əməkdaşlıq müqaviləsi imzalanmışdır. Həmin əməkdaşlığın davamı olaraq 30.05.2022-ci il tarixində İzmir Dokuz Eylül Universitetinin rektoru Prof. Dr. Nükhet Hotar və nümayəndə heyəti GDU-ya səfər etmişdir. Səfər çərçivəsində hər iki universitetin rektorunun iştirakı ilə öncədən imzalanmış müqavilənin bəndləri əsas götürülərək tərəflər arasında ikili diplom proqramlarının icrası üçün ilkin anlaşma müqaviləsi, eyni zamanda Avropa İttifaqının Erasmus+ KA107 proqramı və Türkiyə Respublikasının Mevlana proqramı çərçivəsində |

| | | |
|---|---|---|
| | | tərəflər arasında müqavilə imzalanmışdır.<br>İkili diplom proqramının icra ediləcəyi ixtisaslar bunlardır:<br>1. Biologiya (bakalavr)<br>2. Tarix (bakalavr)<br>3. İqtisadiyyat (bakalavr)<br>4. İqtisadiyyat (magistr)<br>Hər bir ixtisas üzrə hazırlanmış Protokollar hər iki universitetin rektorunun iştirakı ilə təsdiq edilmişdir. İmzalanmış Protokollar YÖK-ə göndərilmiş və təsdiq edilmişdir.<br>2023/2024 tədris ilindən etibarən Biologiya (bakalavr) ixtisası üzrə proqrama başlanılmışdır. Bu proqram Dokuz Eylül Universiteti tərəfindən beynəlxalq akkreditasiyadan keçirilmişdir. Protokola uyğun olaraq hazırda bu ixtisas üzrə qəbul olmuş tələbələr təhsillərini İzmir Dokuz Eylül Universitetində davam etdirir. Digər 3 ixtisas üzrə isə 2024/2025 tədris ilindən etibarən proqramın icrasına başlanılacaqdır.<br>Tələbə və müəllimlər üçün Erasmus+ KA1, Mevlana və ikili əməkdaşlıq müqavilələri əsasında mübadilə proqramlarının sayı hər il artırılmışdır. |
| 2 | Beynəlxalq əməkdaşlıq layihələrinə fərqli heyət üzvlərinin cəlb olunması məsələsinin diqqətdə saxlanması, müxtəlif heyət üzvlərinin, xüsusilə, tələbələrlə birbaşa təmasda olan müəllimlərin də eyni fürsətlərdən faydalanması üçün bərabər şərtlərin yaradılması | Beynəlxalq mübadilə proqramlarında iştirak etmək istəyən namizədlərin seçimi universitet tərəfindən deyil kordinator universitetin tələb etdiyi kriteriyalar əsasında aparılır. Əməkdaşlıq müqaviləsi mövcud olan kordinator universitetlərdən proqrama qəbul ilə bağlı müraciət daxil olduqda, həmin çağırışa dair məlumatlar universitetin rəsmi internet səhifəsində yer alan elanlar bölməsində yerləşdirilir. Eyni zamanda Beynəlxalq əlaqələr şöbəsi tərəfindən fakültələrdə məlumatlandırma günləri (info days) təşkil edilir. Tələb olunan kriteriyalara uyğun olan namizədlər sərbəst şəkildə müraciət edirlər. Müraciət əsasında seçim həyata keçirilir. |
| 3 | Beynəlxalq proqramlarda iştirakçılığı təşviq etmək, müasir ali təhsil təcrübələrinə əlçatanlığı təmin etmək üçün akademik heyət üzvlərinin ingilis dili səriştələrinin artırılması istiqamətində səmərəli təşviq mexanizmlərinin yaradılması | Akademik heyət üzvlərinin ingilis dili səriştələrinin artırılması onların şəxsi istəklərindən asılıdır. Eyni zamanda hər hansı bir dilin öyrənilməsi üçün müəyyən vaxt və maliyyə tələb edilir. Buna görə də akademik heyət üzvləri fərdi olaraq bu məsələdə istəkli olmalı və müəyyən addımlar atmalıdır.<br>Universitetdə bu istiqamət üzrə yerli və beynəlxalq ekspertlər tərəfindən müəyyən mövzularda “Danışıq klubları” həyata keçirilir. |
| 4 | Beynəlxalq mübadilə proqramlarında, təlim və seminarlarda iştirak etmək üçün müraciət etmiş namizədlərin (həm heyət üzvləri, həm də tələbələr) qiymətləndirilməsi/seçilməsi prosesini tənzimləyən təlimatların hazırlanması; | Universitetin tərəfdaş olaraq təmsil olunduğu beynəlxalq mübadilə proqramlarında, eyni zamanda beynəlxalq təlim və seminarlarda iştirak etməsi üçün müraciət etmiş namizədlərin qiymətləndirilməsi-seçilməsi məqsədi ilə rektorluğun 10.05.2022-ci il tarixli 5/157 saylı əmri ilə xüsusi Komissiya yaradılmışdır. Bu Komissiya çağırış elan etmiş universitetin tələbi olduğu halda müraciət edən namizədlər arasından Avropa Komissiyasının mövcud təlimatları əsasında seçim aparılmasını təmin edir. |

| | | |
|---|---|---|
| 5 | Beynəlxalq bilik və təcrübə mübadiləsi tədbirlərində əldə olunmuş təcrübənin universitet daxilində yayılması üçün təlim və seminarların təşkili işinin təkmilləşdirilməsi (xüsusən, fakültə və kafedralar səviyyəsində). | Beynəlxalq layihələrdə əldə olunmuş təcrübənin universitet daxilində yayılması üçün Avropa Komissiyasının və digər donor təşkilatların tələblərinə uyğun olaraq (bu bir öhdəlikdir) təlim və seminarlar təşkil edilir. Təşkil ediləcək təlimlərə dair əvvəlcədən bütün fakültələrə məlumat verilir. Könüllülük prinsipi əsasında iştirakçılar müəyyən edilir və təlimlər təşkil edilir. Bütün lazımi sənədləşmələr (gündəlik, qeydiyyat vərəqələri, təqdimatlar, fotolar, linklər və s.) aparılmış və layihə kordinatorlarına təqdim edilmişdir. Buna dair məlumatlar universitetin rəsmi internet səhifəsi ilə yanaşı layihələrin rəsmi səhifələrində də əks olunmuşdur. Həmçinin layihə kordinatorları tərəfindən "rüblük məcmuə (newsletter)" tərtib edilir. |
| **XII. Universitetin maddi-texniki bazası** | | |
| 1 | Digər ali təhsil müəssisələrindən yüksəkixtisaslı professor-müəllim heyətinin GDU-ya cəlb olunması üçün müvafiq qonaqlama şəraitinin yaradılması. | 2019-2020-ci illərdə Şəhərin Dədə Qorqud küçəsində yerləşən və vaxtilə tələbə şəhərciyi tipində inşa edilmiş hər biri 5 mərtəbədən ibarət 3 yataqxana binası dövlət büdcəsindən ayrılmış 8,5 milyon manatlıq vəsait hesabına əsaslı təmir olunmuşdur. Hazıda həmin şəhərcik "Tələbə evi" adı altında fəaliyyət göstərir. "Tələbə evi"nin nəzdində digər ali təhsil müəssisələrindən yüksəkixtisaslı professor-müəllim heyətinin cəlb olunması üçün 3 ədəd xüsusi otaq ayrılmış və müvafiq qonaqlama şəraiti ilə təmin edilmişdir. |

## II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Gəncə Dövlət Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14 noyabr 2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli 5/11 saylı əmri ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

### 1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

#### 1.1.1. GDU-da qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Rektorluğun 30.12.2015-ci il tarixli 5/334 saylı əmri ilə yaradılmış komissiya tərəfindən hazırlanan 2016-2020-ci illəri əhatə edən 3 əsas istiqamətdən ibarət "Strateji İnkişaf Planı" EŞ-in 29.02.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə təsdiq edilmişdir. Pandemiya müddətində mövcud vəziyyət ilə əlaqədar olaraq 2016-2020-ci illəri əhatə edən "Strateji İnkişaf Planı"nda nəzərdə tutulan fəaliyyətlərin bir qismi icra edilməmişdir. Nəzərdə tutulan məqsəd və hədəflərə tam nail olmaq üçün GDU EŞ-nin 28.12.2021-ci il tarixli (pr. № 08) Qərarı və rektorluğun 30.12.2021-ci il tarixli 5/459 saylı əmri ilə mövcud "Strateji Plan"ın müddəti 2022-ci ilin sonuna qədər uzadılmışdır. GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə 2023-2028-ci illəri əhatə edən 7 əsas istiqamətdən ibarət "Strateji Plan" təsdiq edilmişdir.

#### 1.1.2. GDU-nun SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında universitetin missiyası "Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

innovativ xidmətlər göstərir" olaraq qeyd edilmişdir. Məqsədlər isə "Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq; Elmi tədqiqatları inkişaf etdirmək; İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək; Beynəlmiləl universitetə çevrilmək; Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək; Dayanıqlı inkişafı təşviq etmək; Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq" olaraq müəyyən edilmişdir.

### 1.1.3. SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ı hazırlanan zaman "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Ali təhsil müəssisəsinin institusional və proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və s. kimi əhəmiyyətli sənədlər nəzərə alınmışdır.

### 1.1.4. SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında əks olunan 7 əsas istiqamət (Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq; Elmi tədqiqatları inkişaf etdirmək; İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək; Beynəlmiləl universitetə çevrilmək; Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək; Dayanıqlı inkişafı təşviq etmək; Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq) Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli 156 saylı Fərmanı ilə təsdiq edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununda qarşıya qoyulan məqsəd və hədəflərə tam olaraq uyğundur.

### 1.1.5. SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında 7 əsas istiqamət müəyyən edilmişdir. Hər bir istiqamət (məqsəd) üzrə müvafiq strateji hədəflər və fəaliyyətlər müəyyən edilmişdir.

**1.1.6. SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlər Fəaliyyət Planında öz əksini tapmışdır.

**1.1.7. SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ı üzrə fəaliyyətlərin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəriciləri Fəaliyyət Planında "Nəticə indikatoru" adlı başlıqda əks olunmuşdur.

**1.1.8. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

GDU-nun cari "Strateji Plan"ında nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün resurslar Fəaliyyət Planında "İcraçı qurumlar" adlı başlıqda əks olunub.

**1.1.9. SİP-in maliyyə təminatının GDU-da büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ının maliyyə təminatı illik büdcə planlaşması zamanı nəzərə alınır.

**1.1.10. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

GDU-nun 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ının III Məqsədində (İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək) və VI Məqsədində (Dayanıqlı inkişafı təşviq etmək) sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamlar öz əksini tapmışdır.

**1.1.11. Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**

GDU-nun 2016-2020-ci illər üzrə SİP-ndə nəzərdə tutulan, lakin pandemiya və digər səbəblərdən dolayı icrası mümkün olmayan məqsədlər, hədəflər və fəaliyyətlər cari "Strateji Planı"nda nəzərə alınıb.

**1.1.12. SİP-də GDU-nun güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ı tərtib edilən zaman GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş Avropa Təhsil Standartları (ESG) əsasında aparılmış SWOT Analizi nəzərə alınmışdır.

**1.1.13. SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ı tərtib edilən zaman GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)” adlı sənəd əsasında maraqlı tərəflərin iştirakı təmin edilmişdir.

**1.1.14. SİP-in icrası üzrə GDU-nun struktur bölmələrinin müəyyən edilməsi**

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ı əsasında hazırlanmış “Fəaliyyət Planı”nda əks olunan hər bir məqsəd və fəaliyyətin icrası üzrə məsul olan struktur bölmələr müəyyən edilmişdir.

**1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi**

**1.2.1. SİP-in icrası üzrə GDU-nun struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti**

Hər tədris ilinin sonunda fakültə dekanlıqları və kafedralar tədris fəaliyyətləri haqqında hesabatlarını Tədris departamentinə, elmi-tədqiqat fəaliyyətləri haqqında hesabatlarını isə Elm və innovasiyalar üzrə prorektora təqdim edir. Həmin prorektorlar tərəfindən hesabatlar təhlil edilərək yekun hesabat tərtib edilir.

“Beynəlmiləlləşmə”, “İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək” və “Dayanıqlı inkişafı təşviq etmək” adlı istiqamətlər üzrə hesabatlar İnnovasiyalar departamenti, “Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək” adlı istiqamətlər üzrə hesabatlar İnzibati-təsərrüfat işləri üzrə prorektor, “Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq” adlı istiqamət üzrə hesabatlar isə Keyfiyyətin Təminatı Mərkəzinin müdiri tərəfindən hazırlanır.

**1.2.2. SİP-in icrası üzrə GDU-nun struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti**

Tədris fəaliyyətləri haqqında Tədris məsələləri üzrə prorektor, elmi-tədqiqat fəaliyyətləri üzrə Elm və innovasiyalar üzrə prorektor, “Beynəlmiləlləşmə” istiqaməti üzrə

Beynəlxalq əlaqələr şöbəsinin müdiri, “İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək” və “Dayanıqlı inkişafı təşviq etmək” adlı istiqamətlər üzrə İnnovasiyalar departamentinin direktoru, “Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək” adlı istiqamət üzrə İnzibati-təsərrüfat işləri üzrə prorektor, “Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq” adlı istiqamət üzrə isə Keyfiyyətin Təminatı Mərkəzinin müdiri tərəfindən universitet EŞ-da hesabat verilir.

### 1.2.3. SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ının icrasının dövrü (illik) monitorinqi Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən aparılır. Buna dair məlumatlar Keyfiyyətin Təminatı Mərkəzinin illik hesabatında öz əksini tapır.

### 1.2.4. SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ının icrasının dövrü (illik) monitorinqinin nəticələri haqqında hər təqvim ilinin sonunda İnnovasiyalar departamentinin direktoru tərəfindən universitet EŞ-da hesabat verilir.

### 1.2.5. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ının icrasının dövrü (illik) monitorinqinin nəticələri haqqında hazırlanmış hesabat maraqlı tərəflərin əlçatanlığını təmin etmək üçün struktur bölmələr arasında elektron formada və kağız daşıyıcısında paylaşılıb.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

#### 2.1.1. GDU-nun dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə "Keyfiyyət Təminatı Siyasəti" təsdiq edilmişdir. "Keyfiyyət Təminatı Siyasəti" hazırlanan zaman maraqlı tərəflərin prosesdə iştirakını təmin etmək üçün GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş "Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)" adlı sənədə istinad edilmişdir.

#### 2.1.2. GDU-nun keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə "Keyfiyyət Təminatı Siyasəti" sənədində mövcud olan müddəalar sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilmişdir.

#### 2.1.3. GDU-nun əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı Siyasəti" sənədi çoxaldılaraq kağız daşıyıcı formasında bütün struktur bölmələrinə çatdırılmışdır. Eyni zamanda sənədin hər kəs üçün əlçatanlığını təmin etmək məqsədilə universitetin rəsmi internet səhifəsində paylaşılmışdır.

#### 2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı Siyasəti" sənədi "Keyfiyyət təminatı siyasəti", "Keyfiyyət təminatı siyasətinin əsaslandığı prinsiplər", "Keyfiyyət təminatı siyasətinin əsaslandığı əsas dəyərlər", "Keyfiyyət təminatı siyasətinin hədəfləri" və "Siyasətin həyata keçirilməsində nəzərdə tutulan fəaliyyət və ya hərəkətlər" adlı başlıqlardan ibarətdir. Sənəddə təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri əks olunmaqla əhatəlilik səviyyəsi təmin edilmişdir.

### 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

**2.2.1. GDU-nun daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

Universitetin daxili keyfiyyət təminatı sistemini təmin etmək üçün EŞ-in 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət təminatı sistemi haqqında direktiv”, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı”, “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” və EŞ-in 24.11.2023-cü il tarixli (pr. № 02) Qərarı və rektorluğun 01.12.2023-cü il tarixli 5/374 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət mədəniyyəti direktivi” adlı sənədlər mövcuddur. Qeyd edilən vəzifələrin icrasına nəzarət etmək üçün rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə İşçi Qrup yaradılmışdır.

**2.2.2. GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi”ndə GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)” adlı sənədə istinad etməklə daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması nəzərdə tutulub. Bu işləri rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə yaradılmış İşçi Qrup icra edir.

**2.2.3. GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

Rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə universitetin daxili keyfiyyət təminatı prosesinin icrasını təmin etmək məqsədilə yaradılmış İşçi Qrupun “Fəaliyyət Planı” hazırlanan zaman 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da qeyd edilən hədəflərə uyğunluq nəzərə alınmışdır.

**2.2.4. GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

Universitetin daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmləri (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) “Keyfiyyət təminatı sistemi

haqqında direktiv” sənədində “4. Keyfiyyət təminatı sisteminin modeli, metodu və komponentləri” adlı başlıqda qeyd edilən “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi qaydalarının həyata keçirilməsində istifadə olunan PİNT metodu” adlı diaqramda əks olunmuşdur. Mexanizmin işlək olması vəziyyəti Keyfiyyətin Təminatı Mərkəzinin hazırladığı illik hesabatda yer almışdır.

**2.2.5. GDU-nun daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Keyfiyyət Təminatı Mərkəzi Əməkdaşlarının İş Öhdəlikləri (Job Description of the Quality Assurance Officer)” adlı sənəddə universitetin daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlər, məsul şəxslər və addımlar üzrə məsuliyyətlər (öhdəliklər) müəyyən edilmiş və səlahiyyət bölgüsü aparılmışdır.

“Keyfiyyət Təminatı Mərkəzi Əməkdaşlarının Vəzifə Öhdəlikləri” adlı sənəd universitet EŞ-nin 04.10.2023-cü il tarixli (pr. № 01) Qərarı və rektorluğun 09.10.2023-cü il tarixli 5/256 saylı əmri ilə yenilənmiş formada təsdiq edilmişdir.

**2.2.6. GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə hər il üzrə təsdiq edilmiş fəaliyyət planında təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. kimi mövzuların əhatəliyi təmin edilmişdir.

**2.2.7. GDU-nun daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

Universitet EŞ-in 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” adlı sənədin V hissəsinin “Təkmilləşdirmə mərhələsi” alt başlığında bu məsələ öz əksini tapmışdır.

**2.2.8. GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Universitet EŞ-in 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı" adlı sənəddə bu məsələ öz əksini tapmışdır.

**2.2.9. Daxili keyfiyyət təminatı üzrə GDU-nun fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Universitetin daxili keyfiyyət təminatı üzrə fəaliyyətinə dair illik Özünütəhlil Hesabatı Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən hazırlanır və universitet EŞ-da hesabatlılığı təmin edilir.

**2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

2019/2020-ci tədris ilində keçirilmiş akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat və fəaliyyət planı hazırlanmış, EŞ-in 26 may 2021-ci il tarixli iclasında (pr. № 3) geniş müzakirə olunmuşdur. "Fəaliyyət Planı"nın koordinasiyasını və hesabatlılığını təmin etmək məqsədilə rektorluğun 21.06.2021-ci il tarixli 5/205 saylı əmri ilə rektorun baş müşaviri "məsul şəxs" təyin edilmişdir. Məsul şəxs tərəfindən tövsiyələrlə bağlı görülmüş işlərə dair hesabatlar "Fəaliyyət Planı"nda qeyd edilmiş hesabatlılıq müddətində toplanılaraq universitet EŞ-da müzakirə edilmişdir.

**2.2.11. GDU-nun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Universitetin fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi üçün keçirilmiş bütün sorğular GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş "Sorğu Siyasəti" əsasında həyata keçirilmişdir. Təşkil edilmiş sorğular Google Forms platformasından istifadə edilməklə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən həyata keçirilmişdir. Platformanın sonda təqdim etdiyi hesabat əsasında tələbələrin rəyləri və təklifləri sistemli şəkildə toplanaraq təhlil olunmuş və universitet EŞ-na müzakirə üçün təqdim edilmişdir.

İmtahan prosesində şəffaflığın və ictimai etimadın gücləndirilməsi məqsədilə rektorun əmri əsasında ictimaiyyət nümayəndələrindən ibarət İctimai Nəzarət Şurası yaradılır. İctimai nəzarət şurasının üzvləri KİV nümayəndələrinin və valideynlərin iştirakı ilə

imtahanların gedişatını izləyir. Bu məqsədlə universitetdə mediaturlar təşkil olunur və kütləvi informasiya vasitələrində geniş işıqlanldırılır.

https://gdu.edu.az/gəncə-dovlət-universitetində-mediatur-təskil-edilib/

https://gdu.edu.az/gəncə-dovlət-universitetində-payiz-semestrinin-imtahan-sessiyasina-ictimai-baxis-kecirilib-2/

### 2.3. Keyfiyyət təminatı mədəniyyəti

#### 2.3.1. GDU-nun rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Universitetin rektoru və KTM-nin direktoru daxili keyfiyyət təminatı sistemində mövcud olan proseslər haqqında məlumatlı olmaqla yanaşı, nəzərdə tutulan bütün nəzarət və proseslərdə şəxsən iştirak edir. Akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiyanı təmin etmək məqsədi ilə Whatsapp sosial şəbəkəsində yaradılmış “GDU idarə heyəti”, “GDU Akkreditasiya”, “GDU Elmi Şura”, “GDU kafedra müdirləri”, “GDU İşçi Qrupu” və “GDU dekan müavinləri” kimi qruplardan aktiv şəkildə istifadə edilir. Bununla yanaşı bütün rəy və təkliflərin rəhbərlik üçün əlçatanlığını təmin etmək üçün universitetin rəsmi internet səhifəsində elektron müraciət bölməsi mövcuddur. Eyni zamanda “Eduman” platformasında şəxsi kabinetlər vasitəsilə rəhbərliyə bir başa olaraq müraciətin ünvanlanması təmin edilmişdir.

#### 2.3.2. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə yaradılmış İşçi Qrup tərəfindən “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları”nda əks olunan 7 istiqamət üzrə həyata keçirilir. Yaradılmış hər bir istiqamətə müvafiq struktur rəhbərləri sədrlik edir.

#### 2.3.3. Keyfiyyətin təmin olunmasında GDU-nun rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Universitet rəhbərliyi tərəfindən hər imtahan sessiyasının əvvəlində tələbələrlə görüş təşkil edilir, onların bütün rəy və təklifləri dinlənilir, mümkün olan təkliflərin yerində həllinə

çalışılır. Eyni zamanda "Tələbə Evi"ndə rəhbərliklə vaxtaşırı görüşlər təşkil olunur, əlamətdar günləri qeyd etmək məqsədilə tədbirlər həyata keçirilir, masa arxasında universitetdə keyfiyyətin təmin olunması üçün səmimi söhbətlər aparılır.

Fəaliyyətdə fərqlənən akademik heyətə "Fəxri ad", "Fəxri fərman", "Təşəkkürnamə", "Pul mükafatı" və s. verilməsi, həmçinin "Vəzifədə irəli çəkilmə" kimi stimullaşdırıcı tədbirlər həyata keçirilir.

İnstitusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər KTM-nin Əsasnaməsinə əsasən icra olunur.

### 2.3.4. Keyfiyyətin təmin olunmasında GDU-nun strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti

Universitetdə keyfiyyətin təmin olunması üçün strukturlararası fəaliyyətin koordinasiyası "Keyfiyyət təminatı sistemi haqqında direktiv" adlı sənəd əsasında KTM tərəfindən həyata keçirilir.

## 3.TƏLİM VƏ TƏDRİS

### 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

### 3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ARNK-nin 2007-ci il 25 iyun tarixli 102 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasına müvafiq olaraq GDU-da bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanır.

Universitetdə tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların təhsilalanların say həddi üzrə sifarişlər verilərkən cəmiyyətin, əmək bazarının, təhsil proqram və standartlarında qeyd olunan tələblər nəzərə alınır.

ARETN-nin müvafiq məktubu əsasında fakültələr əvvəlki illərin faktiki qəbulu, elmi-pedaqoji potensial, tədris resursları, infrastruktur imkanları və s. nəzərə alınaraq təhsilalanların say həddini müəyyən etmək üçün fakültə Elmi Şuralarında, GDU-nun EŞ-da aparılan müzakirələrdən sonra universitet üzrə optimal say həddinin proqnoz layihəsi ARETN-ə məktubla göndərilir. Təhsilalanların qəbulunun say həddi universitetin tələbə qəbulu planının proqnoz layihəsi əsasında ARNK-nin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən aparılır. GDU-da təhsilalanların qəbul nəticələrini əks etdirən cədvəl hesabata əlavə olunub.

**Təhsil səviyyələri üzrə təhsilalanların qəbulunun illər üzrə artım dinamikası**




| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| **Qəbul planı** | 1535 | 1545 | 1555 | 1700 | 1760 | 1740 | 1710 | 1860 |
| **Faktiki qəbul** | 1311 | 1424 | 1471 | 1570 | 1566 | 1491 | 1557 | 1690 |




| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 249 | 259 | 270 | 228 | 234 | 232 | 254 | 357 |
| Faktiki qəbul | 159 | 217 | 177 | 163 | 205 | 226 | 235 | 343 |




| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 19 | 17 | 19 | 19 | 16 | 17 | 17 | 18 |
| Faktiki qəbul | 19 | 17 | 19 | 7 | 6 | 1 | 8 | 11 |

**2016/2017-2023/2024-cü tədris illərində GDU-ya bakalavriat və magistratura səviyyələri üzrə qəbul olan təhsilalanların sayı (təkrar ali təhsil alanlar və əcnəbilər daxil olmaqla)**




| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 1784 | 1804 | 1825 | 1928 | 1994 | 1972 | 1964 | 2217 |
| Faktiki qəbul | 1509 | 1702 | 1715 | 1835 | 1864 | 1789 | 1880 | 2124 |

### 3.1.2. GDU-da əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Tədris illərinə görə əmək bazarının tələblərinə uyğun sifarişlərin hazırlanması və təkliflərin verilməsi zamanı ilk olaraq son illərdəki məzunların işlə təmin olunma statisitikaları nəzərə alınır. Məzunlar əmək bazarında aşağıda qeyd olunan istiqamətlər üzrə əmək fəaliyyətinə başlayırlar:

- ✓ MİQ imtahanında iştirak edərək ixtisas yönümlü əmək fəaliyyəti;
- ✓ Müxtəlif təhsil müəssisələri tərəfindən elan olunmuş müsabiqələrdə iştirak yolu ilə;
- ✓ Ali təhsil pilləsinin digər səviyyələrinə (magistratura, doktorantura) elmi və pedaqoji fəaliyyət;
- ✓ DİM vasitəsilə dövlət qulluğuna qəbul;
- ✓ Dövlət və özəl sektorda fəaliyyət göstərən digər təşkilatlarda.

Müvafiq dövlət orqanları tərəfindən daxil olmuş proqnoz məlumatları əsasında gələcəkdə ehtiyac duyulacaq ixtisaslar üzrə (tədris dilləri də nəzərə alınmaqla), həmçinin ölkə üzrə məşğulluq imkanları da nəzərə alınaraq optimal tələbə qəbulu sifarişləri müəyyən edilir.

### 3.1.3. Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

GDU-nun fəaliyyətinin əsas istiqaməti təhsil və digər ixtisaslar qrupu üzrə kadr hazırlığı olduğu üçün sifarişçi qismində ARETN və işə götürən tərəflər çıxış etmişdir. Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün maraqlı tərəflərlə görüşlər və müzakirələr aparılmış və GDU tərəfindən rəsmiləşdirilmiş protokollar və ya təsdiqedici sənədlər hazırlanmışdır. Hər il universitet üzrə qəbul planı proqnozlaşdırılarkən ARETN-nin müvafiq strukturları ilə qarşılıqlı müzakirələr aparılır və sonunda proqnoz layihəsi təsdiq edilməsi üçün ARETN-nə göndərilir. ARETN də öz növbəsində bu proqnoz layihəsini ARNK ilə razılaşdırmaqla tədris ili üzrə təsdiq edilmiş qəbul planını GDU-ya göndərir.

### 3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

GDU-ya qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan

Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” və 20.05.2019-cu il tarixli 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi” Qaydaları, GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli əmri ilə təsdiq edilmiş “Bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları” əsasında tənzimlənir.

Digər ali təhsil müəssisələrində qazanılmış kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30%-dən çox olmamasına diqqət yeririlir. Təhsil alan əvvəl aldığı ixtisasın təhsil proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə və ya köçürüldüyü ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, həmçinin fərdi tədris planında seçmə fənn bloku üzrə nəzərdə tutulan fənlərə aid məşğələlərdən və attestasiyadan azad olunur.

Subbakalavrın kreditlərinin tanınması prosesində ilkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqin 1 tədris ilinə hesablanmış saatdan az və 2 tədris ilinə hesablanmış saatdan çox olmamasına diqqət yetirilir.

Təhsil müddəti subbakalavrın ilkin təhsil proqramı ilə onun təhsil almaq istədiyi müvafiq ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqə əsasən müəyyən edilir. İlkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsil proqramı arasındakı fərqdən asılı olmayaraq, subbakalavrlar bakalavr dərəcəsi üzrə ali təhsil almaq üçün yalnız DİM tərəfindən müəyyən olunmuş ümumi qaydada ali məktəblərin birinci tədris ilinə qəbul olunur.

Kreditlərin tanınması və ekvalentliyinin müəyyən edilməsi üçün tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin təlim nəticələri, fənlərin sillabusları zəruri sənədlər kimi təhlil olunur. Proses zamanı müvafiq sənədləşmə, əmrləşdirmələr aparılır.

Kreditlərin sayını, fənlərin məzmununun uyğunluğunu və kreditlərin sayılmasını təsdiq edən rəsmi sənədləşmə həyata keçirilir.

Bütün bu kimi fəaliyyətlər icra olunan zaman GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Təlim və Tədris Siyasəti” adlı sənədə istinad edilir.

### 3.2. Təhsil proqramları

### 3.2.1. GDU-da kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

GDU-da ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ARETN-nin təsdiq etdiyi Təhsil Proqramlarına, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanuna, "Elm haqqında" Azərbaycan Respublikası Qanuna, ARNK-nin müvafiq qərarlarına, eləcə də mövcud ixtisas təsnifatlarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin VI, VII və VIII səviyyəsinə uyğun 5 ixtisas qrupu (1, 2, 3, 4 və 5) üzrə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı aparılır.

GDU-da bakalavriat səviyyəsində əyani və qiyabi, magistratura səviyyəsində əyani, doktorantura səviyyəsində isə əyani və qiyabi təhsilalma formalarında və dissertanturada kadr hazırlığı aparılır.

ARNK-nin 12.01.2009-cu il tarixli 08 saylı qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr səviyyəsi ixtisaslarının (proqramlarının) təsnifatı"na və 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na uyğun olaraq bakalavriat səviyyəsinin ixtisaslar üzrə məzunun bilik, bacarıq və vərdişlərinə qoyulan kompetensiyalarını özündə əks etdirən ARETN-nin 22.08.2014-cü il tarixli 913, 09.07.2020-ci il tarixli F-343, 30.07.2020-ci il tarixli F-354, 07.08.2020-ci il tarixli F- 363, 13.08.2020-ci il tarixli F-370, 21.08.2020-ci il tarixli F-318, 28.08.2020-ci il tarixli F-386 saylı əmrləri ilə təsdiq edilmiş Təhsil Proqramları əsasında tərtib olunan tədris planları üzə tədrisin təşkili həyata keçirilir.

Universitetdə bakalavriat səviyyəsində 8 fakültə üzrə aşağıdakı 44 ixtisaslarda mütəxəssis hazırlığı aparılır.

| № | İxtisasın şrifti | İxtisasın adı |
|---|---|---|
| 1. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| 2. | 050102 | Biologiya müəllimliyi |
| 3. | 050103 | Coğrafiya müəllimliyi |
| 4. | 050105 | Fizika müəllimliyi |
| 5. | 050106 | Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi |
| 6. | 050107 | İbtidai sinif müəllimliyi |
| 7. | 050108 | İnformatika müəllimliyi |
| 8. | 050109 | Kimya müəllimliyi |
| 9. | 050110 | Kimya və biologiya müəllimliyi (Azərbaycan və İngilis bölməsi) |
| 10. | 050112 | Məktəbəqədər təhsil |
| 11. | 050113 | Musiqi müəllimliyi |
| 12. | 050114 | Riyaziyyat müəllimliyi |
| 13. | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 14. | 050116 | Tarix müəllimliyi |
| 15. | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 16. | 050118 | Təhsildə sosial - psixoloji xidmət |
| 17. | 050119 | Təsviri incəsənət müəllimliyi |

| | | |
|---|---|---|
| 18. | 050120 | Texnologiya müəllimliyi |
| 19. | 050121 | Xarici dil müəllimliyi (İngilis dili) (Azərbaycan və Rus bölməsi) |
| 20. | 050121 | Xarici dil müəllimliyi (Rus dili) |
| 21. | 050121 | Xarici dil müəllimliyi (Alman dili) |
| 22. | 050121 | Xarici dil müəllimliyi (Fransız dili) |
| 23. | 050205 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) |
| 24. | 050211 | Psixologiya |
| 25. | 050214 | Tarix |
| 26. | 050215 | Tərcümə (İngilis dili) |
| 27. | 050402 | Biznesin idarə edilməsi |
| 28. | 050404 | Dövlət və bələdiyyə idarəetməsi |
| 29. | 050405 | İqtisadiyyat |
| 30. | 050406 | Maliyyə |
| 31. | 050407 | Marketinq |
| 32. | 050408 | Menecment |
| 33. | 050408 | Menecment (Alman proqramı) |
| 34. | 050409 | Mühasibat |
| 35. | 050501 | Biologiya |
| 36. | 050501 | Biologiya* |
| 37. | 050504 | Ekologiya |
| 38. | 050508 | Kimya |
| 39. | 050509 | Kompüter elmləri |
| 40. | 050606 | Ekologiya mühəndisliyi |
| 41. | 050618 | Kimya mühəndisliyi |
| 42. | 050805 | Məşqçilik |
| 43. | 050807 | Sosial iş |
| 44. | 050809 | Turizm bələdçiliyi |
| 45. | 050810 | Turizm işinin təşkili |

**Qeyd: * işarə edilən ikili diplom proqramı çərçivəsində mütəxəssis hazırlığı aparılan ixtisası bildirir.**

ARNK-nin 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq Universitetdə magistratura səviyyəsində aşağıdakı 36 ixtisas (69 ixtisaslaşma) üzrə magistr hazırlığı aparılır:

| № | İxtisasın şrifti | İxtisaslaşma və ixtisasın adı |
|---|---|---|
| **1.** | **060101** | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** |
| | | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası |
| **2.** | **060103** | **Xarici dil müəllimliyi (dillər üzrə)** |
| | | Rus dilinin tədrisi metodikası və metodologiyası |
| | | İngilis dilinin tədrisi metodikası və metodologiyası |
| | | Fransız dilinin tədrisi metodikası və metodologiyası |
| | | Alman dilinin tədrisi metodikası və metodologiyası |
| **3.** | **060104** | **Fizika müəllimliyi** |
| | | Fizika fənninin tədrisi metodikası və metodologiyası |
| **4.** | **060105** | **Riyaziyyat müəllimliyi** |
| | | Riyaziyyat fənninin tədrisi metodikası və metodologiyası |
| **5.** | **060106** | **Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə)** |
| | | Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq fənninin tədrisi metodikası və metodologiyası |
| **6.** | **060107** | **Texnologiya müəllimliyi** |

| | | |
|---|---|---|
| | | Texnologiya fənninin tədrisi metodikası və metodologiyası |
| **7.** | **060108** | **Musiqi müəllimliyi** |
| | | Musiqi fənninin tədrisi metodikası və metodologiyası |
| **8.** | **060108** | **Biologiya müəllimliyi** |
| | | Biologiya fənninin tədrisi metodikası və metodologiyası |
| **9.** | **060110** | **Kimya müəllimliyi** |
| | | Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| **10.** | **060111** | **Tarix müəllimliyi** |
| | | Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| **11.** | **060112** | **Coğrafiya müəllimliyi** |
| | | Coğrafiya fənnin tədrisi metodikası və metodologiyası |
| **12.** | **060114** | **Təsviri incəsənət müəllimliyi** |
| | | Təsviri incəsənət fənnin tədrisi metodikası və metodologiyası |
| **13.** | **060115** | **İbtidai sinif müəllimliyi** |
| | | İbtidai sinifdə tədrisin metodika və metodologiyası |
| **14.** | **060117** | **Məktəbəqədər təlim və tərbiyə** |
| | | Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası |
| **15.** | **060119** | **Pedaqogika** |
| | | Pedaqogika nəzəriyyəsi və tarixi |
| | | Sosial pedaqogika |
| **16.** | **060201** | **Filologiya** |
| | | Azərbaycan ədəbiyyatı |
| | | Azərbaycan dili |
| | | Dilşünaslıq (İngilis dili) |
| | | Dilşünaslıq (Müqayisəli dilçilk) |
| **17.** | **060203** | **Tərcümə** |
| | | Tərcümə (İngilis dili) |
| **18.** | **060206** | **Tarix** |
| | | Azərbaycanın qədim və orta əsrlər tarixi |
| | | Avropa və Amerikanın yeni və ən yeni tarixi |
| | | Türk dünyası tarixi |
| | | Azərbaycanın yeni və ən yeni tarixi |
| **19.** | **060209** | **Psixologiya** |
| | | Pedaqoji psixologiya |
| | | Uşaq və yaş psixologiyası |
| **20.** | **060402** | **Mühasibat uçotu və audit** |
| | | İstehsal sferasında mühasibat uçotu və audit |
| **21.** | **060404** | **İqtisadiyyat** |
| | | Turizmin iqtisadiyyatı |
| | | İqtisadiyyatın hüquqi tənzimlənməsi |
| **22.** | **060407** | **Menecment** |
| | | Menecment (sahələr üzrə) |
| **23.** | **060408** | **Marketinq** |
| | | Marketinq (sahələr üzrə) |
| **24.** | **060409** | **Biznesin idarə edilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| **25.** | **060410** | **Dövlət və bələdiyyə idarəetməsi** |
| | | Dövlət qulluğunun təşkili və idarə edilməsi |
| **26.** | **060501** | **Riyaziyyat** |
| | | Riyazi analiz |
| | | Diferensial tənliklər |
| | | Həndəsə |
| | | Cəbr və topologiya |
| | | Hesablama riyaziyyatı |
| **27.** | **060503** | **Fizika** |
| | | Yarımkeçiricilər fizikası |
| | | Yarımkeçirici cihazlar və mikroelektronika |
| | | İstilik fizikası və molekulyar fizika |
| **28.** | **060504** | **Kimya** |

| | | |
|---|---|---|
| | | Qeyri – üzvi kimya |
| | | Üzvi kimya |
| | | Analitik kimya |
| | | Yüksək molekullu birləşmələr kimyası |
| **29.** | **060505** | **Biologiya** |
| | | İnsan və heyvan fiziologiyası |
| | | Ekoloji biologiya |
| | | Botanika |
| | | Onurğalılar zoologiyası |
| | | Onurğasızlar zoologiyası |
| | | Bitki fiziologiyası |
| | | Genetika |
| | | Mikologiya |
| | | Biokimya |
| **30.** | **060506** | **Coğrafiya** |
| | | Azərbaycanın fiziki coğrafiyası |
| **31.** | **060509** | **Kompüter elmləri** |
| | | İnformatika |
| | | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı |
| **32.** | **060510** | **Ekologiya** |
| | | Ətraf mühitin mühafizə metodları və bərpası |
| **33.** | **060649** | **Ekologiya mühəndisliyi** |
| | | Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması |
| | | Təbii ehtiyatların qorunması və təkrar emalı |
| **34.** | **060802** | **Bədən tərbiyəsi və idman** |
| | | Fiziki tərbiyə nəzəriyyəsi və metodikası |
| **35.** | **060803** | **Turizm və otelçilik** |
| | | Otelçilik |
| | | Beynəlxalq turizm və ölkəşünaslıq |
| **36.** | **060805** | **Sosial iş** |
| | | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş |
| | | Gənclərlə iş |
| **MBA ixtisasları** | | |
| 1. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Biznes inzibatçılığı) |
| 2. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Biznesin idarə edilməsi) |
| 3. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Maliyyə) |
| 4. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Marketinq) |
| 5. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Menecment) |
| 6. | 060409 | Biznesin təşkili və idarəedilməsi (Mühasibat) |

"Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi haqqında ARNK-nin 15 mart 2012-ci il tarixli 65 saylı Qərarına əsasən doktorantura səviyyəsində 12 ixtisas üzrə elmi dərəcəli kadrlar hazırlanır:

| № | İxtisasın şrifti | İxtisasın adı |
|---|---|---|
| 1 | 1202.01 | Analiz və funksional analiz |
| 2 | 2426.01 | Ekologiya |
| 3 | 5308.01 | Ümumi iqtisadiyyat |
| 4 | 5502.01 | Ümumi tarix |
| 5 | 5503.02 | Vətən tarixi |
| 6 | 5704.01 | Dil nəzəriyyəsi |
| 7 | 5706.01 | Azərbaycan dili |
| 8 | 5714.01 | Müqayisəli tarixi və müqayisəli-tipoloji dilçilik |
| 9 | 5716.01 | Azərbaycan ədəbiyyatı |
| 10 | 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |

| | | |
|---|---|---|
| 11 | 5908.01 | Siyasi nəzəriyyə |
| 12 | 6107.01 | Ümumi psixologiya |

### 3.2.2. GDU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

ARNK-nin 12.01.2009-cu il tarixli 08 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr səviyyəsi ixtisalarının (proqramlarının) təsnifatı"na uyğun olaraq bakalavriat səviyyəsinin ixtisaslar üzrə məzunun bilik, bacarıq və vərdişlərinə qoyulan kompetensiyalarını özündə əks etdirən ARETN-nin 22.08.2014-cü il tarixli 913 saylı əmri ilə təsdiq edilmiş Təhsil Proqramları əsasında tərtib olunan tədris planları üzə tədrisin təşkili həyata keçirilir.

**2014-cü ildə qəbul edilmiş tədris planlarının əhatə etdiyi tədris illəri**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |

GDU-da ARNK-nin 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na uyğun olaraq müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verən kompetensiya əsaslılıq və tələbəyönümlük nəzərə alınmaqla işə götürənlərin iştirak ilə ARETN-nin 21.08.2020-ci il tarixli 381, 09.07.2020-ci il tarixli F-343, 30.07.2020-ci il tarixli F-354, 07.08.2020-ci il tarixli F-363, 13.08.2020-ci il tarixli F-370, 21.08.2020-ci il tarixli F-318, 28.08.2020-ci il tarixli F-386 saylı əmrləri ilə təsdiq edilmiş təhsil proqramları əsasında yeni tədris planları hazırlanmışdır. 2014-cü ildə tərtib edilmiş tədris planları GDU EŞ-nin 29.09.2014-cü il tarixli (pr. № 01), 2020-ci ildə tərtib edilmiş tədris planları 25.09.2020-ci il tarixli (pr. № 01) Qərarı və rektorluğun 28.09.2020-ci il tarixli 5/182 saylı əmri ilə təsdiq edilmişdir.

Türkiyə Respublikasının İzmir Dokuz Eylül Universiteti ilə birlikdə "İkili diplom" proqramı çərçivəsində bakalavriat səviyyəsində "Biologiya", "İqtisadiyyat" və "Tarix" ixtisasları, magistratura səviyyəsində isə "İqtisadiyyat" ixtisasının "İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisaslaşması üzrə mütəxəssis hazırlığı aparılmasına başlanılması barədə universitet EŞ-nin 07.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun 13.07.2022-ci il tarixli 5/247 saylı əmri verilib.

2023/2024-cü tədris ilindən etibarən qeyd edilən universitet ilə "İkili diplom" proqramı çərçivəsində bakalavriat və magistratura səviyyələrində mütəxəssis hazırlığı aparılması barədə ikitərəfli müqavilə imzalanıb. "İkili diplom" proqramı çərçivəsində mütəxəssis

hazırlığı aparılması barədə ARETN-ə rəsmi məlumat verilib. Eyni zamanda mütəxəssis hazırlığına başlanılmasına dair müqavilə Türkiyə Respublikasının Yüksək Öğretim Kurumu (YÖK) tərəfindən də təsdiq edilib. "İkili diplom" proqramı çərçivəsində mütəxəssis hazırlığı aparılan ixtisasların tədris planları GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/430 saylı əmri ilə təsdiq edilmişdir.

**2020-ci ildə qəbul edilmiş tədris planlarının əhatə etdiyi tədris illəri**

| | | | |
|---|---|---|---|
| 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |

Magistratura səviyyəsi üzrə tədris planları ARETN-nin 22 fevral 2012-ci il tarixli 258 saylı və 30.09.2016-cı il tarixli 640 saylı əmrləri ilə təsdiq edilmiş "Magistratura səviyyəsinin ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı" əsasında tərtib olunmuşdur.

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2012/2013 | 2013/2014 | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |

### 3.2.3. GDU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Əmək bazarının tələbləri nəzərə alınmaqla ixtisasların təhsil proqramlarının və ayrı-ayrı fənlərin təlim nəticələri təhsilalanlardan tələb olunan minimum səviyyəni əks etdirməklə təsvir edilmiş və fakültələrin rəsmi internet ünvanında yerləşdirilmişdir. Universitetdə tədrisi təşkil olunan bəzi ixtisas və ixtisaslaşmaların peşə və kvalifikasiya standartları Milli Kvalifikasiyalar Reysterində (MKR) qeydə alınması və onların milli və beynəlxalq səviyyədə tanınmasının təmin edilməsi üçün sənədlər hazırlanmışdır. Bu məqsədlə universitet üzrə 06.12.2023-cü il tarixli 5-388 saylı əmr ilə İşçi Qrup yaradılmışdır. Respublika üzrə bu sahədə müvafiq qaydalar və mexanizmlər mövcud olmadığına görə Azərbaycan Respublikasının Təhsil İnstitutuna təqdim etmək mümkün olmamışdır. Müvafiq qaydalar mövcud olduğu halda təqdim ediləcəkdir.

### 3.2.4. Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

GDU-nun təhsil proqramları ARNK-nin 2018-ci il 18 iyul tarixli 311 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin tələblərinə uyğundur. Təhsil proqramları AzMKÇ-in VI, VII, VIII səviyyələrinə müvafiq olaraq Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) uyğun olan

kreditlərlə uyğunlaşdırılmışdır. Təhsil proqramlarının və fənlərin təlim nəticələri bilik və bacarıq, müstəqillik və məsuliyyət baxımından AzMKÇ-nin səviyyələri ilə əlaqələndirilib.

**3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu**

ARETN-nin 13.08.2020-ci il tarixli F-226 saylı əmri ilə təsdiq edilmiş "Bakalavriat səviyyəsini (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramının çərçivə sənədi"nə əsasən GDU-da tədrisi təşkil olunan ayrı-ayrı təhsil proqramlarının və hər fənn üzrə təlim nəticələri, onların əldə olunmasına dəstək verən matris məzmun standartlarına uyğun tərtib edilmişdir. Mütəmadi olaraq kafedralar tərəfindən təlim nəticələrinin məzmunu müzakirə olunur və müvafiq yenilənmələr aparılır.

**3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu**

GDU-da ARETN-nin müvafiq əmrləri ilə təsdiq edilmiş təhsil proqramları üzrə Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) kreditləri ixtisasdan asılı olaraq təhsil ixtisaslarında ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə (o cümlədən Mülki müdafiə və ilkin tibbi yardım) 120 kredit, Ali təhsil müəssisəsisi tərəfindən müəyyən edilən fənlərə 60 kredit, pedaqoji internaturaya 30 kredit, qeyri-təhsil ixtisaslarına isə ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə (o cümlədən Mülki müdafiə) 120 kredit, ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 kredit, təcrübəyə 30 kredit, bir neçə ixtisasda təcrübəyə 21 kredit, buraxılış işinə 9 kredit ayrılmışdır. Auditoriya və auditoriyadankənar saatların planlamasında qeyri-auditor saatlar 60%-ə qədər təşkil edir. GDU-da təhsil proqramları üzrə dərs saatları bölgüsu AKTTS-nin prinsiplərinə əsasən uyğundur.

**3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

GDU-da bütün ixtisaslar üzrə tədris planlarında humanitar fənlər və ixtisasın peşə hazırlığı fənləri bölmələri nəzərdə tutulmuşdur. Ümumi fənn bölümü sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı, ixtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həl etmək üçün zəruri bilik, bacarıq və vərdişlərin öyrənilməsini təmin edir.

Bakalavriat səviyyəsinə daxil olan ixtisaslar üzrə təhsil proqramlarının təsdiqi barədə ARETN-nin 22.08.2014-cü il tarixli 913 saylı əmri ilə təsdiq edilmiş Təhsil Proqramlarında humanitar fənn bölümünə məcburi fənlər kimi “Azərbaycan tarixi”, “Azərbaycan dili və nitq

mədəniyyəti” və “Xarici dil” fənləri, 09.07.2020-ci il tarixli F-343 saylı, 30.07.2020-ci il tarixli F-354 saylı, 07.08.2020-ci il tarixli F-363 saylı, 13.08.2020-ci il tarixli F-370 saylı, 21.08.2020-ci il tarixli 381 saylı, 28.08.2020-ci il tarixli F-386 saylı əmrləri ilə təsdiq edilmiş ixtisas fənn bölümünə məcburi fənlər kimi “Azərbaycan tarixi”, “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”, “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənləri daxil edilmişdir.

Magistratura səviyyəsində ARETN-nin 31.08.2012-ci il tarixli 1463 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramlarında humanitar fənlər bölümünə məcburi fənlər kimi “Xarici dil”, “Ali məktəb pedaqogikası” və “Psixologiya” fənləri daxil edilmişdir. ARETN-nin 30.09.2016-cı il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramları əsasında tərtib edilmiş tədris planlarında isə “Xarici dil”, “Ali məktəb pedaqogikası” və “Psixologiya” fənləri seçmə fənn kimi öz əksini tapmışdır. Bütün bunlardan başqa, ARETN-nin müvafiq məktublarına əsasən tədris planlarına 2015-ci ildə bakalavriat səviyyəsinin ixtisaslarına “Multikulturalizmə giriş”, magistratura səviyyəsində “Azərbaycan multikulturalizmi”, 2016-cı ildə isə “Tədqiqat üsulları” adlı fənlər daxil edilmişdir.

### 3.2.8. Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

GDU-da təhsil proqramlarına müvafiq olaraq bakalavriat səviyyəsində auditoriya və auditoriyadankənar saatlar nəzərə alınmaqla həftəlik tədris yükü 45 saatdır. Bakalavriat səviyyəsində həftəlik auditoriya saatların həcmi ümumi həftəlik yükün 50 %-dən çox deyil. Magistratura təhsil səviyyəsində həftəlik auditoriya saatları 16 saatdan çox deyil. Tədris planlarında məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarına uyğun öz əksini tapır. Seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat həcminin 30%-ni təşkil edir. Fakültələr üzrə seçmə fənlərin müəyyən edilməsi üçün hər tədris ilinin əvvəlində Maraqlı Tərəflərin iştirakı ilə keçirilən iclaslarda universitetin əməkdaşlıq etdiyi təşkilatların və müvafiq kafedraların təklifləri nəzərə alınır.

### 3.2.9. Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Təhsil proqramlarının təlim nəticələri kafedralar tərəfindən hazırlanır, nüsxələri kitabxanaya, dekanlıqlara və Tədris departamentinə göndərilir. Eyni zamanda təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün elektron formada fakültələrin internet səhifəsində yerləşdirilir.

**3.2.10. Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti**

İxtisaslar üzrə tədris planları hazırlanıb və təsdiq edilərkən ARETN-nin birbaşa tabeliyində və o cümlədən, regional təhsil idarələrinin tabeliyində olan ümumtəhsil müəssisələrinin rəhbər və müəllim heyətinin, Gəncə şəhərində yerləşən digər təşkilatların nümayəndələrinin iştirakı ilə müzakirələr aparılmış, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı barədə rəylər alınmışdır.

Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakını təmin etmək məqsədilə 2023/2024-cü tədris ilindən etibarən rektorluğun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə "Monitorinq və qiymətləndirmə Komissiyası" yaradılmışdır. Bu sənəd əsasında təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsi zamanı işəgötürənlərin iştirakı təmin olunmuşdur. Eyni zamanda tələbə qəbulu proqnozu hazırlanarkən müəyyən müzakirələr aparılmaqla yanaşı Maraqlı Tərəflərin iştirakı ilə məzun yarmarkaları təşkil edilmişdir.

**3.3. Tədrisin təşkili**

**3.3.1. Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti**

GDU-da tədris ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq kredit sistemi əsasında təşkil olunur.

GDU-da ixtisas və ixtisaslaşmalar üzrə tədris ali ixtisas təhsilinin dövlət standartlarına, ali baza təhsil proqramlarına və 2010-cu il 24 iyun tarixli 117 saylı Qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının və 2010-cu il 12 may tarixli 88 saylı Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları" və GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "Gəncə Dövlət Universitetinin magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın tələbləri gözlənilməklə tərtib edilmiş tədris planları əsasında həyata keçirilir.

Hazırda qüvvədə olan tədris planları ali ixtisas təhsilinin dövlət standartlarının tələbləri nəzərə alınmaqla, tədris işinin həcmi kredit vahidləri ilə müəyyən edilmişdir. Tədris planlarında fənlərin vacibliyi, məzmunun mənimsənilməsi ardıcıllığı, prerekvizitlik və

korekvizitlik gözlənilmişdir. Universitet tərəfindən müəyyən edilən fənlər müasirlik və əmək bazarının tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilir.

### 3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

GDU-da ixtisas və ixtisaslaşmaların tədris planında göstərilmiş fənlərin şirifti, tədris illəri, kreditlərin sayı, prerekvizit, korekvizit, tədrisi nəzərdə tutulan semestri əks etdirən tədris qrafiki tərtib edilmişdir. Tədris qrafikində müvafiq tədris ilində nəzərdə tutulan istehsalat və pedaqoji təcrübə, YDA-sı, 2020-ci və sonrakı illərdə təsdiq edilmiş tədris planlarında nəzərdə tutulan təcrübə və pedaqoji internatura öz əksini tapmışdır. Hər tədris ili üçün ixtisasın tədris qrafiki əsasında tələbənin “Fərdi Tədris Planı” hazırlanır. İxtisas və ixtisaslaşmaların tədris qrafikinin bir nüsxəsi Tədris departamentində, digər nüsxəsi isə fakültə dekanlıqlarında saxlanılır. Tədris qrafiki elektron formada fakültələrin internet səhifəsində yerləşdirilmişdir.

### 3.3.3. Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

GDU-da tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır. Tədris planında seçmə fənlərə ayrılan saatın həcmi ümumi saatın miqdarının 30%-ni təşkil edir. Bakalavriat səviyyəsinin ixtisaslarının tədris planlarında məcburi və seçmə fənlərə ayrılan kreditlərin bölgüsü aşağıdakı cədvəldəki kimidir:

**2014-cü ildə təsdiq edilmiş tədris planları**

| İxtisaslar üzrə | Humanitar fənlər | | İxtisas fənləri | | Təcrübə | Yekun Dövlət Attestasiyası | Ümumi AKTS |
|---|---|---|---|---|---|---|---|
| | Məcburi | Seçmə | Məcburi | Seçmə | | | |
| 4 illik təhsil | 24 | 6 | 140 | 40 | 21 | 9 | 240 |
| 5 illik təhsil | 24 | 6 | 188 | 52 | 21 | 9 | 300 |

ARETN-nin 22.04.2019-cu il tarixli F-205 saylı əmrinə müvafiq olaraq bakalavriat səviyyəsi üzrə ixtisasların təhsil proqramlarının humanitar fənlər blokuna "Multikulturalizmə giriş” fənni (2 kredit) əlavə edilərək seçmə fənlərə 4 kredit müəyyənləşdirilmişdir.

ARETN-nin 2020-ci ildə müvafiq saylı əmrləri ilə təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunan tədris planlarında seçmə fənlərə ümumi fənlər bölməsində 30 kreditdən 6 kredit, ali məktəb tərəfindən müəyyən edilən fənlərə isə 60 kredit müəyyənləşdirilmişdir.

Magistratura səviyyəsinin ixtisaslarının tədris planlarında məcburi və seçmə fənlərinə ayrılan kreditlərin bölgüsü:

**2012-ci və sonrakı illərdə təsdiq edilmiş tədris planı**

| İxtisaslar illik təhsil üzrə | Humanitar fənlər | | İxtisas (ixtisaslaşma) fənləri | | Elmi-pedaqoji təcrübə | Elmi-tədqiqat təcrübəsi | Dissertasiya hazırlığı və müdafiə | Ümumi AKTS |
|---|---|---|---|---|---|---|---|---|
| | Məcburi | Seçmə | Məcburi | Seçmə | | | | |
| 2 illik təhsil | 12 | 2 | 48 | 28 | 6 | 6 | 18 | 120 |

ARETN-nin 30.09.2016-cı il tarixli 640 saylı ilə təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunan tədris planlarında ixtisas fənlərinə 12 kredit, ali məktəb tərəfindən müəyyən edilən fənlərə 48 kredit müəyyənləşdirilmişdir.

### 3.3.4. Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

2014-cü ildə yenilənmiş tədris planlarında ümumi auditoriya saatlarının 15-20 faizi humanitar fənlərə 30 kredit, 80-85 faizi isə ixtisas peşə hazırlığını təmin edən fənlərə 180 kredit, istehsalat təcrübəsinə 21 kredit, Yekun Dövlət Attestasiyasına (YDA) 9 kredit müəyyən edilmişdir. Tədris müddəti beş il nəzərdə tutulan ixtisaslarda ixtisas peşə hazırlığını təmin edən fənlərə 240 kredit müəyyən edilmişdir.

2020-ci və sonrakı illərdə təsdiq edilmiş tədris planlarında ümumi fənlər, ixtisas fənləri və universitet tərəfindən müəyyən edilən fənlər arasında balans aşağıdakı kimi bölünmüşdür:

| Təhsil ixtisasları illik təhsil üzrə | Ümumi fənlər | İxtisas fənləri | Universitet tərəfindən müəyyən edilən fənlər | Pedaqoji internatura / təcrübə | Ümumi AKTS |
|---|---|---|---|---|---|
| 4 illik təhsil | 30 | 120 | 60 | 30 | 240 |
| 5 illik təhsil | 30 | 180 | 60 | 30 | 300 |

### 3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

GDU-da ümumilikdə fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi məqsədilə rektorluğun 26.05.2023-cü il tarixli 5/142 saylı əmri ilə kafedralarda “Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının

hazırlanmasına nəzarət Komissiyası" yaradılmış və vaxtaşırı monitorinq aparılmış və protokollaşdırılmışdır. Hər bir ixtisas üzrə proqramın təlim nəticələri elektron şəkildə fakültələrin internet səhifəsində yerləşdirilmişdir. İxtisas proqramı ilə fənlərin bağlılığını göstərən matris mövcuddur.

**3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

GDU EŞ-nin 31.01.2024-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 01.02.2024-cü il tarixli 5/38 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil pilləsində fənn proqramları və fənlər üzrə işçi-tədris proqramlarının (sillabus) hazırlanması və təsdiq edilməsi Qaydaları" təsdiq edilmişdir. Qaydalara uyğun olaraq bütün fənlərin təlim nəticələrinin sillabuslarda öz əksini tapmasına kafedralar üzrə "Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına nəzarət Komissiyası" tərəfindən nəzarət edilir.

**3.3.7. Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyət**

Bakalavriat səviyyəsində tələbənin beş günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdan, magistratura səviyyəsində dörd günlük iş rejimində həftəlik auditoriya 16 saatdan çox deyildir. Bakalavriat və magistratura səviyyələrində mövcud tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı 6-nı keçmir. Semestr üzrə bakalavriat səviyyəsində auditoriya saatı 300 saat, həftəlik auditoriya saatı 20 saatdır. Magistratura səviyyəsində 225 saat, həftəlik auditoriya saatı 15 saatdır.

**3.3.8. Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Birinci tədris ilinə qəbul olunmuş tələbə və magistrantlara fakültələr, Qiyabi və Magistratura şöbələri tərəfindən, sonrakı tədris illərində isə tələbənin özü tərəfindən tyutorların köməkliyi ilə "Fərdi Tədris Planı" hazırlanır. Tələbələrin "Fərdi Tədris Planı"nın bir nüsxəsi fakültə dekanlığında saxlanılır, bir nüsxəsi isə tələbəyə verilir.

**3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

Fakültələrdə, Qiyabi və Magistratura şöbələrində hər bir ixtisas və ixtisaslaşmaların "Tədris Planı"na, "Tədris Qrafiki" və tələbələrin "Fərdi Tədris Planı" əsasında "İllik İşçi Tədris Planı" hazırlanmışdır. "İşçi Tədris Planı"nda ixtisas və ixtisaslaşmalar üzrə cari tədris ilində tədris olunacaq fənlərin adları, dərsin növlərinə görə saat bölgüsü, həftəlik auditoriya saatı, fənlərin kreditləri və tələbələrin sayı qeyd olunub və tədris məsələləri üzrə prorektor tərəfindən təsdiq edilmişdir.

**3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Fakültələrdə, Qiyabi və Magistratura şöbələrində ixtisasın "Tədris Planı", "Tədris Qrafiki" və tələbələrin "Fərdi Tədris Planı" əsasında müəllimin "İllik İşçi Tədris Planı" hazırlanır. "İşçi Tədris Planı"nda ixtisas üzrə cari tədris ilində tədris olunacaq fənlərin adı, dərsin növünə görə saat bölgüsü, həftəlik auditoriya saatı, fənlərin kreditləri və tələbələrin sayı qeyd olunaraq kafedra müdiri tərəfindən təsdiq edilmişdir.

**3.3.11. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

İxtisas üzrə fənlərin spesifikliyi nəzərə alınmaqla "Tədris Planı"nda auditoriya saatları tədris növlərinə bölünmüşdür. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyətini monitorinq etmək üçün rektorluğun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə fakültələr üzrə "Qiymətləndirmə və Monitorinq Komissiyası" fəaliyyət göstərir. Komissiya tərəfindən tədrislə əlaqədar normativ hüquqi sənədlər yoxlanılıb rəy verildikdən sonra istifadə edilir. Komissiya üzvləri ayrı-ayrı professor-müəllim heyətinin açıq dərslərini dinləyib müzakirə edir və istiqamətverici tədbirlər həyata keçirir.

**3.3.12. Məsləhət xidmətinin təşkili vəziyyəti**

GDU EŞ-nin 26.05.2022-ci il tarixli (pr. № 13) Qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri ilə universitet üzrə Akademik Məsləhətçilər (tyutor) xidməti yaradılıb.

Xidmətə işə qəbul həmin əmrin müddəaları əsasında həyata keçirilir. İmtahanlardan uğurla keçən şəxslər üçün təlimlər təşkil olunduqdan sonra uğur qazanan namizədlərlə əmək müqaviləsi bağlanılıb.

Tyutor vəzifəsinə qəbul edilmiş şəxslər Tədris məsələləri üzrə prorektorun təqdimatı və rektorluğun müvafiq əmri ilə fakültələrə təyin edilir.

GDU EŞ-nin 07.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun 08.07.2022-ci il tarixli 5/242 saylı əmri ilə xidmətin Əsasnaməsi təsdiq edilmişdir. Əsasnaməyə uyğun olaraq tyutorların İş Planı mövcuddur.

### 3.3.13. Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

İxtisaslar üzrə tələbənin sərbəst işi müəllimin rəhbərliyi altında auditoriyadankənar şəkildə təşkil olunur. Fənnin spesifikasından asılı olaraq müəllimlər tələbələrə fərdi, komanda, qrup formasında tapşırıqlar verir. Sərbəst işlərin mövzuları və iş forması fənnin sillabusunda qeyd edilir. Müəllim tərəfindən işlərin yerinə yetirilməsi üçün zəruri məsləhətlər verilir. ARNK-nin 24.12.2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»nın 3.2.22 bəndinə uyğun olaraq payız və yaz semestrlərində tələbələrə GDU-nun 22.04.2022-ci il tarixli 5/139 saylı əmrinə əsasən 3 (üç) sərbəst iş təyin olunur. I və II ayın hər biri üçün 0-3 bal, üçüncü aya görə isə 0-4 bal verilir.

### 3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ARNK-nin 19.09.2008-ci il tarixli 221 saylı Qərarı ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə”yə, GDU EŞ-nin 01.03.2023-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 16.03.2023-cü il tarixli 5/59 saylı əmri ilə təsdiq edilmiş “GDU-nun çoxpilləli təhsil sistemində tələbələrin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə”yə, GDU EŞ-nin 31.01.2024-cü il tarixli Qərarı (pr. № 05) və rektorluğun 01.02.2024-cü il tarixli 5/38 saylı əmri ilə təsdiq edilmiş “Pedaqoji internaturanın təşkili və keçirilməsi Qaydaları”na uyğun olaraq universitetdə bakalavriat səviyyəsində 2023/2024-cü tədris ilindən etibarən pedaqoji internatura, magistratura səviyyəsində isə iki istiqamətdə pedaqoji və elmi tədqiqat xarakterli təcrübə təşkil olunur. ARETN-nin 22.08.2014-cü il tarixli 913 saylı əmri

ilə təsdiq edilimiş təhsil proqramı əsasında tərtib olunmuş tədris planına uyğun olaraq bakalavriat səviyyəsində pedaqoji təcrübəyə 21 kredit (14 həftə), 21.08.2020-ci il tarixli F-381 saylı əmri ilə təsdiq edilmiş tədris proqramında isə 30 kredit (20 həftə) nəzərdə tutulmuşdur. Təcrübə ARETN-nin və Regional Təhsil İdarələrinin tabeliyində olan ümumtəhsil və məktəbəqədər, özəl təhsil müəssisələrində, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyində, Gəncə şəhər Kəpəz bələdiyyəsində, Gəncə şəhər Nizami bələdiyyəsində, AFB BANK ASC Gəncə filialında, Premium hoteldə, Gəncə Regional Poçt filialında, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi Publik hüquqi şəxs Gəncə şəhər Birləşmiş Xəstəxanasında, Dövlət Arxivi Gəncə filialında, Kapital Bank ASC-nin Gəncə filialında, VİS Palm Hotel-də, Rabitə bank ASC-nin Gəncə filialında, Bakı Hotel Gəncə MMC-də və Gəncə Mehmanxana ASC-də təşkil edilir.

**3.3.15. Stajkeçmənin təşkili vəziyyəti**

Respublika üzrə stajkeçmə xidməti göstərən müəssisələr fəaliyyət göstərmədiyini nəzərə alaraq bu proses universitet tərəfindən müvafiq qaydada icra olunur. Professor-müəllim heyətinin təkmilləşdirilməsi, peşəkarlıq səviyyəsinin və əməyinin keyfiyyətinin yüksəldilməsi, peşə bacarıqlarının formalaşdırılması, inkişaf etdirilməsi, nəzəri biliklərinin təcrübə ilə əlaqələndirilməsi, daha müasir peşə bacarıq və vərdişlərinin qazanılması, yeni texnologiyalar və innovasiyalar sisteminin tətbiqi üzrə təcrübə əldə etməsi məqsədilə universitetdə Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi, STEAM laboratoriyası istifadəyə verilmişdir.

Müəllimlərin təcrübəsinin və müasir təlim texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə təcrübəli professor-müəllim heyətinin nümunəvi dərsləri təşkil edilir.

Həmçinin daha yüksək kompetisiyalı müəllimlər gənc müəllimlərin dərslərində iştirak edərək lazımi məsləhətlərini verir. Bununla yanaşı universitetdə və baza məktəblərində səriştəli müəllimlərin ustad dərsləri təşkil edilərək gənc müəllimlərin iştirakı təmin edilir. Əməkdaşların bilik və bacarıqlarının artırılması üçün beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakı təmin edilir.

Eyni zamanda beynəlxalq layihələr çərçivəsində xarici ekspertlər tərəfindən təlimlər təşkil edilir. Nəticədə əməkdaşlar bilik və bacarıqlarını artırmaqla bərabər, beynəlxalq təcrübəni öyrənərək müvafiq sertifikatlarla təmin olunur.

Müəyyən ixtisaslar üzrə təhsilverənlərin ixtisas üzrə stajkeçməsini təmin etmək məqsədilə rektorluq tərəfindən ikili əməkdaşlıq çərçivəsində yerli və beynəlxalq

universitetlərdən ixtisasçı kadrlar mütəmadi olaraq dəvət edilir. Həmin ixtisasçılar tərəfindən “Ustad dərsləri (master class)” və elmi-praktiki təcrübələr həyata keçirilir.

Dəvət edilən ixtisasçıların qonaqlama məsələləri “Tələbə Evi”ndə qalmaqla universitet tərəfindən qarşılanır. Bununla bağlı məlumatlar universitetin rəsmi internet səhifəsində öz əksini tapmışdır.

### 3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

İxtisasların spesifikası və profili nəzərə alınmaqla kurs işinin, kurs layihələrinin və referatların hazırlanması “Tədris Planı”nda nəzərdə tutulmamışdır. GDU-da kurs işlərinə ayrılan saatlar hesabına kafedralarda yaranan lüzumsuz tədris yüklərinin onların mövcud imkanlarından daha çox artırılmasına səbəb olması və bunun universitet üçün əlavə maliyyə yükü hesab edilməsi kimi məsələlər ilə əlaqədar olaraq hazırda kurs layihəsinin (işi) hazırlanması məqsədəuyğun hesab edilməmişdir.

### 3.3.17. Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

İxtisaslar üzrə buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili YDA-nın təşkili ARNK-nin 23.04.2010-cu il tarixli №75 Qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın və ARETN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin və GDU EŞ-nin 09.12.2022-ci il tarixli iclasının Qərarı (pr. № 03) və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "Gəncə Dövlət Universitetinin bakalavriat səviyyəsində Dövlət Attestasiyası haqqında Qaydaları”nın tələbləri çərçivəsində həyata keçirilir. Tələbələrin dövlət attestasiyası istiqamət (ixtisas) üzrə fənlərin buraxılış (yazılı qaydada) yekun dövlət imtahanı və buraxılış işinin müdafiəsi formada təşkil ounur.

Magistratura təhsil səviyyəsində ARNK-nin 20.04.1998-ci il tarixli 202 saylı əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin və GDU EŞ-nin 09.12.2022-ci il tarixli iclasının Qərarı (pr. № 03) və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "Gəncə Dövlət Universitetinin magistratura təhsilinin məzmununun təşkili və “Magistr” dərəcələrinin verilməsi Qaydaları”nın tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Pandemiya dövrünün tələblərinə uyğun olaraq 2021-ci ildə YDA ARNK-nin 05 iyun 2021-ci il tarixli 158 saylı "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə Qərarı"na əsasən bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunub. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə olmamışdır. Pandemiya şəraiti ilə əlaqədar olaraq bakalavriat səviyyəsində buraxılış işlərinin, magistratura səviyyəsində dissertasiya işlərinin müdafiəsi onlayn formada təşkil olunmuşdur.

**3.3.18. İmtahan sessiyasının təşkili vəziyyəti**

İmtahan sessiyası ARETN-nin hər bir sessiya üçün verilmiş əmrlərində göstərilmiş qaydalara uyğun olaraq təşkil olunur. Proseslə bağlı aidiyəti üzrə sənədləşmə və təşkilati işlər aparılıb. Belə ki, imtahanların keçirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (ARETN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi" haqqında Əsasnamə) və GDU EŞ-nin 28.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "GDU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları"nın tələblərinə əsasən təşkil olunur.

Təhsilalanların mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir və biliyinin qiymətləndirilməsi AKTS-ə uyğun olaraq 100 ballı sistemlə həyata keçirilir. İmtahanlar əsasən test üsulu (kompüter vasitəsilə), yazılı və şifahi, xüsusi qabiliyyət tələb edən fənlərdən isə qabiliyyət formasında aparılır.

Yarana biləcək narazılıqların həll edilməsi məqsədilə sessiya müddətində "Apellyasiya Komissiyası" və GDU rektorunun əmri ilə yaradılan "İmtahan Qərargahı" fəaliyyət göstərir.

İmtahan prosesində şəffaflığın və ictimai etimadın gücləndirilməsi məqsədilə rektorun əmri əsasında ictimaiyyət nümayəndələrindən ibarət "İctimai Nəzarət Şurası" yaradılır. "İctimai Nəzarət Şurası"nın üzvləri KİV nümayəndələrinin və valideynlərin iştirakı ilə imtahanların gedişatını izləyir. Bu məqsədlə universitetdə mediaturlar təşkil olunur.

Prosesin gedişatı kütləvi informasiya vasitələrində və universitetin rəsmi internet səhifəsində geniş işıqlandırılır.

### 3.3.19. Yay semestrinin təşkili vəziyyəti

ARNK-nin 24.12.2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.4 “Yay semestrinin təşkili” bəndinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftədən ibarət yay semestrinin təşkili nəzərdə tutulur. İxtisaslar üzrə akademik borcu qalan tələbələr kəsrlərini alt qrupda ləvğ etdikləri üçün yay semestrində iştirak edən tələbələrin sayı az olmuşdur.

### 3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Təhsilin hər iki forması üzrə payız və yaz semestrlərində akademik borcu qalmış tələbələrin tədris illəri üzrə dinamikası aşağıdakı inforqrafikdə göstərilmişdir:

**Bakalavriat səviyyəsi üzrə**




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Payız | 441 | 533 | 696 | 1122 | 1341 | 747 | 878 | 1225 |
| Yaz | 470 | 443 | 593 | 637 | 787 | 1498 | 887 | 845 |

**Magistratura səviyyəsi üzrə**




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Payız | 0 | 2 | 20 | 23 | 6 | 17 | 9 | 12 |
| Yaz | 0 | 1 | 12 | 2 | 6 | 17 | 10 | 4 |

Diaqramlardan göründüyü kimi hesabat dövrünün əvvəlində akademik borcu olan tələbələrin sayının sonuncu ildə olanların sayından nisbətən az olması müşahidə edilir. İxtisaslar üzrə tədris illərinin payız və yaz semestrlərində akademik borcu qalmış tələbələrin sayındakı artım dinamikası digər ali təhsil müəssisələrindən köçürülmə yolu ilə gələn və qəbul olunan tələbələrin sayının artımı hesabına yüksəlmişdir. Bununla yanaşı akademik borcu qalmış tələbələrin sayının artımına imtahanların gedişatına nəzarətin gücləndirilməsi, ixtisas fənlərindən imtahanların yazılı, qabiliyyət tələb edən ixtisaslarda isə bəzi imtahanların qabiliyyət formasında keçirilməsi kimi amillər də təsir etmişdir.

### 3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Təhsilin hər iki forması üzrə payız və yaz semestrindən akademik borcu yaranmış fənlərin tədris illəri üzrə dinamikası aşağıdakı inforqrafikdə göstərilmişdir:

**Bakalavriat səviyyəsi üzrə**




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Payız | 322 | 510 | 661 | 1005 | 910 | 751 | 829 | 1081 |
| Yaz | 329 | 405 | 627 | 603 | 594 | 777 | 788 | 619 |

**Magistratura səviyyəsi üzrə**




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Payız | 0 | 7 | 14 | 8 | 2 | 11 | 41 | 12 |
| Yaz | 0 | 1 | 16 | 2 | 3 | 21 | 11 | 12 |

Diaqramlardan göründüyü kimi hesabat dövrünün əvvəlində akademik borcu yaranan fənlərin sayının sonuncu ildə olanların sayından nisbətən az olması müşahidə edilir. İxtisaslar üzrə tədris illərinin payız və yaz semestrlərində akademik borc yaranmış fənlərin sayındakı artım dinamikası digər ali təhsil müəssisələrindən köçürülmə yolu ilə gələn və qəbul olunan tələbələrin sayının artımı hesabına yüksəlmişdir. Bununla yanaşı akademik borc yaranmış fənlərin sayının artımına imtahanların gedişatına nəzarətin gücləndirilməsi, ixtisas fənlərindən imtahanların yazılı, qabiliyyət tələb edən ixtisaslarda isə bəzi imtahanların qabiliyyət formasında keçirilməsi kimi amillər də təsir etmişdir.

**3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitet üzrə 03.11.2022-ci il tarixli 5/352 saylı əmri ilə 07.10.2016-cı il tarixli 5/237 saylı əmri yenilənərək tədrisin keyfiyyətini yaxşılaşdırmaq və dərslərin gedişinə nəzarəti artırmaq məqsədi ilə “Monitorinq Qrupu”nun tərkibi müəyyən edilmişdir. Monitorinq Qrupu öz fəaliyyətini GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” və “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” əsasında qurur.

**3.4. Tədris metodları və üsulları**

**3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti**

İxtisaslar üzrə mühazirə və seminar məşğələlərində tapşırıqlar, sərbəst işlər, video və audio mühazirələrin köməyi ilə əldə olunan təlim nəticələrini reallaşdırmaq üçün ağıllı lövhələrdən, VR eynəklərdən, kompüter və proyektorlardan istifadə edilir. Məşğələlərdə yazılı tapşırıqlar, sorğular, frontal sorğu, açıq mühazirə metodları tətbiq edilir. Mühazirə zamanı müəllimlər dərsin mənimsənilməsini gücləndirmək üçün internetlə təmin edilmiş kompüterlərdən istifadə etməklə müxtəlif multimedia vasitələrindən istifadə edir. Müəllimlər tədris prosesində mövzulara uyğun əqli həmlə, müzakirə, müqayisə, müsahibə, müqayisəli təhlil, debat, qərarlar ağacı və s. kimi müxtəlif interaktiv təlim metodlarından istifadə edərək dərsin daha yaxşı mənimsənilməsinə çalışır. Bu məqsədlə müəllimlər müxtəlif növ simulyasiya proqramlarından və oyunlaşma mexanizmlərindən istifadə edir.

### 3.4.2. Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

ARNK-nin 18.07.2018-ci il tarixli 311 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin 6.3.7.–ci bəndinə əsasən “Təhsil proqramlarının (kurikulumların) hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması proseslərinin təlim (öyrənmə) nəticələrinə əsaslanması” və 6.3.11. bəndinə əsasən “Ali təhsil üzrə kvalifikasiyaların Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin Olunması üzrə Standart və Tövsiyələrə uyğun olaraq verilməsi” qaydalarına uyğun olaraq Tələbə yönümlü öyrənmə, tədris və qiymətləndirmə prosesi Avropa Təhsil Standartlarının 1.3. bəndinə uyğun olaraq həyata keçirilir. Dərs zamanı müəllimlər yeni təhsil üsullarından istifadə edərək tələbələrin müxtəlifliyinə hörmətlə yanaşmaqla onların ehtiyaclarının ödənilməsinə xidmət göstərmiş olur. Təlim və tədris prosesində iştirak edən hər bir şəxs müxtəlif pedaqoji metodlardan istifadəyə üstünlük verməklə yanaşı tədris formalarını və pedaqoji metodları daim qiymətləndirməyi bacarır. Fakültə rəhbərliyi tərəfindən daima nəzarətdə saxlanılan məsələlərdən biri də müəllimlərdən müvafiq təlimat və yardım almaq şərti ilə təhsil alan şəxslərdə müstəqillik hissinin stimullaşdırılması ilə yanaşı tələbə və müəllim arasında münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasının təşviq edilməsidir. Eyni zamanda fakültə rəhbərliyi tərəfindən tələbələrin şikayətlərinə baxılması üçün hər gün dərsdən sonra qəbul prosesi həyata keçirilir. Həmin ayrılmış müddətdə fakültənin rəhbər işçiləri tərəfindən tələbələrin şikayətləri dinlənilərək yerindəcə həll olunmasına çalışılır. Hər tədris ilinin sonuna yaxın universitet rəhbərliyi tərəfindən tələbələrlə görüş təşkil edilərək rəy və təklifləri dinlənilir və imtahan sessiyasının gedişatında nəzərə alınır.

### 3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

Tədris metodlarının tətbiqi tədris prosesinin səmərəliyinin yüksəldilməsinə, təhsilalanların yüksək nailiyyətlər əldə etməsinə, onların bilik və peşə hazırlığı səviyyəsinin artırılmasına xidmət edir. Mühazirə və seminar məşğələlərində beyin həmləsi, akvarium, debat, dəyirmi masa, konkret situasiyanın təhlili ("case study”), diskussiya, disput, mövzuların qabaqcadan sərbəst öyrənilməsi, problemin öyrənilməsi, qərarlar ağacı, sual-cavab və s. tədris metodları tətbiq olunur. Müəllim tərəfindən interaktiv təlim metodları seçilərkən tədris proqramının və mövzunun didaktik məqsədinə uyğunluğu, təhsilalanın intellektual səviyyəsi və s. gözlənilir. Bakalavriat səviyyəsində əyani formada

təhsilalanların gələcək fəaliyyət sahəsinin orta məktəblər olduğunu nəzərə alaraq yuxarıda qeyd edilən tədris metodları daha geniş formada tətbiq olunur. Magistratura səviyyəsində isə tədris olunan fənlərin və mövzuların tədqiqat yönümlü olduğunu nəzərə alaraq tədris metodları ilə yanaşı tədqiqat metodlarından da istifadəyə geniş yer verilir.

### 3.4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Tələbələrə yönəldilmiş təhsil və tədris onlarda motivasiyanın artırılmasında, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, təhsil proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilir. Fənn sillabuslarında qeyd edilmiş təlim nəticələri təhsilalanlarda dərindən öyrənmə və yuxarı səviyyəli bilik növlərini əldə etməyə imkan yaradır. Təlim nəticələri müəyyən olunan zaman Blum taksanomiyasının yuxarı qatları olan tətbiq, sintez, təhlil kimi səviyyələr nəzərə alınır. Təlim nəticələri əsasında seçilmiş təlim metodları və strategiyaları öz növbəsində təhsilalanlarda maraqlanma və motivasiya kimi yanaşmaları təmin edir. Bu məsələlər fənn sillabuslarında qeyd edilmiş fənnin tədrisində istifadə ediləcək interaktiv tədris metodları bölməsində qeyd olunan işgüzar oyunlar, layihə, qrup işi və s. formada öz əksini tapır. Bunlarla yanaşı bəzi fənnlərin tədrisində interaktiv təlim metodu kimi debatlardan istifadə edilir ki, bu da öz növbəsində təhsilalanlarda öhdəlik götürmə kimi bacarıqların formalaşmasına gətirib çıxarır.

### 3.4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Məlum olduğu kimi XXI əsr təhsili tələbə yönümlü təhsil adlandırılır. Ənənəvi tədris zamanı təhsilverən və təhsilalan münasibətlərində müəlllim aparıcı, istiqamətverici tərəf idisə, müasir təhsildə müəllim tələbəyə fərd, şəxsiyyət kimi baxır, onlarla əməkdaşlıq edir. Təhsilverənlər fənlərin tədrisi zamanı dərs prosesinin cütlər, qruplar və ya kollektiv halında keçirilməsindən asılı olmayaraq, bu tarazlığın pozulmamasına xüsusi önəm verir. Təhsilverənlər tərəfindən təhsilalanlara metodiki və psixoloji cəhətdən onların səviyyələrinə uyğun fərdi yanaşma aparılır. Belə ki, təhsilalanlara sərbəst işlərin mövzularının və seçmə fənlərin seçimi zamanı sərbəstlik verilir. Bununla yanaşı olaraq təhsilalanların fərdi xüsusiyyətlərindən və qavrama qabiliyyətlərindən asılı olaraq təqdimat, auido və video mühazirələr, təhlil və sintez kimi tədris metodlarından və üsullarından istifadə edilir. Bütün bunlar fənn müəllimlərinin sillabuslarında öz əksini tapmışdır.

**3.4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Tədris prosesində aktiv öyrənməni təşviq etmək məqsədi ilə dərs zamanı internetə qoşulmuş kompüterlər vasitəsilə ağıllı lövhənin təqdim etdiyi imkanlardan geniş istifadə edilir. Eyni zamanda VR eynəyin köməkliyi ilə tətbiq edilən texnologiyalardan, simulyasiya və video oyunlardan yararlanmaq üçün tələbələrin şəxsi telefonlarından istifadə edilir. Dərsin mənimsənilməsini təyin etmək üçün isə müəyyəm proqram təminatlarından (Kahoot, Quizz və s.) istifadəyə üstünlük verilir.

**3.4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş “Strateji Plan”ında əks olunan 7 əsas istiqamətdən birində bu məsələ öz əksini tapmışdır.

Birinci istiqamətdə “Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq” məqsəd olaraq təyin edilmişdir. İxtisaslar üzrə kadr hazırlığı prosesi zamanı yeni təlim-tədris metodları və interaktiv öyrənməni təşviq etmək məqsədi ilə GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş “Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodik tövsiyələr” əsas götürülərək professor-müəllim heyəti tərəfindən tədris prosesində geniş istifadə edilir.

Bu tövsiyələrlə yanaşı GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət Təminatı Siyasəti” sənədinə də istinad edilir.

Təhsilverənlər və təhsilalanlar üçün yeni təlim və tədris metodlarının, interaktiv öyrənmənin təşviq edilməsi məqsədi ilə bukletlər hazırlanaraq əlçatanlıq təmin edilib.

**3.4.8. Tədris metod və üsullarının dövrü olaraq monotinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Rektorluğun 03.11.2022-ci il tarixli 5/352 saylı əmri ilə “Monitorinq Qrupu” yaradılmışdır. Monitorinq Qrupu öz işini GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi təlimatı” adlı sənəd əsasında təşkil edir.

“Monitorinq Qrupu” dərslərdə müəllimləri öncədən xəbərdar etmədən iştirak edərək tədris metod və üsullarının monitorinqini aparır, dərsin sonunda fənn müəlliminin və kafedra müdirinin iştirakı ilə müzakirə edilərək qiymətləndirmə aparılır. Qiymətləndirmə aparıldıqdan sonra gələcəkdə dərsdə istifadə olunan tədris metod və üsullarının təkmilləşdirilməsi haqqında təklif və tövsiyələr verilir. Proses haqqında məlumatlar “Monitorinq Qrupu”nun hazırladığı protokolda qeyd olunur və rəhbərliyə təqdim edilir.

**3.5. Təlim və tədris resursları**

**3.5.1. GDU-da öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da “5.4.1. Elektron idarəetmə sistemi qurmaq” adlı fəaliyyətin icrası ilə əlaqədar olaraq universitetdə tədrisin elektron idarəetmə sisteminin yaradılması üçün “Ultra” MMC ilə əməkdaşlıq müqaviləsi imzalanaraq “Eduman” (www.eduman.gdu.edu.az) proqram təminatı alınmış və 2024-cü ilin yaz semestrindən etibarən “Pilot Layihə” kimi qəbul edilmiş ixtisaslarda tam olaraq, digər ixtisaslarda isə qismən tətbiqinə başlanılmışdır.

Proqram təminatının 2024/2025-ci tədris ilindən etibarən bütün ixtisaslar üzrə tətbiq edilməsi nəzərdə tutulmuşdur. “Eduman” proqram təminatı ilkin olaraq 24 xidmət (bundan sonra modul adlandırılacaq) təqdim edir. Növbəti tədris ilindən etibarən “Yazılı və test imtahan modulu”nun və “Elektron sənəd dövriyyəsi modulu”nun alınaraq tətbiq edilməsi üçün sənədləşmə işlərinə başlanılmışdır. Fakültələr üzrə “Pilot Layih”ə kimi seçilmiş ixtisaslarda tədrislə məşğul olan professor-müəllim heyəti “Eduman” proqramı tətbiq edilməyən digər ixtisaslarda da mütəxəssis hazırlığı prosesində iştirak edir. Bu isə öz növbəsində bütün professor-müəllim heyətinin bu sahədə bacarıqlarının formalaşmasına xidmət edir.

“Strateji Plan”da təlim və tədrisin elektron idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı “5.4.2. Elektron təhsil texnologiyalarının tətbiqini genişləndirmək”, “5.4.3. Təhsil sistemində idarəetməni informasiyalaşdırmaq”, “5.4.6. Elektron sənəd dövriyəsi sistemini qurmaq”, “5.4.7. Göstərilən xidmətlərin onlayn formada tətbiqini genişləndirmək”, “7.6.1. Təhsilin idarə olunmasının məlumat sisteminin yaradılması məqsədi ilə elektron idarəetmə sistemini tətbiq etmək” kimi fəaliyyətlər də müəyyən edilmişdir.

### 3.5.2. GDU-da müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Universitet üzrə müasir təlim prosesinin təşkili məqsədi ilə tədrisin elektron idarəetmə sistemindən istifadə etmək üçün avadanlıqlarla tam təchiz edilmiş auditoriyalar mövcuddur. Auditoriyalar internetə qoşulmuş kompüter, proyektor, ağıllı lövhə, VR eynək və digər texniki vasitələrlə təmin olunmuşdur.

Auditoriyaların texniki avadanlıqlarla təminatının illər üzrə artım dinamikasını aşağıdakı cədvəldən də görmək mümkündür.




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Kompüter | 270 | 271 | 299 | 337 | 381 | 425 | 445 | 468 |
| Proyektor | 20 | 22 | 27 | 33 | 36 | 35 | 41 | 47 |
| Ağıllı lövhə | 18 | 18 | 34 | 42 | 42 | 45 | 45 | 50 |
| VR eynək | 0 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 |

### 3.5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

"Eduman" (www.eduman.gdu.edu.az) proqram təminatı vasitəsilə tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron jurnal modulu mövcuddur. 2024-cü ilin yaz semestrindən etibarən "Pilot Layihə" kimi qəbul edilmiş ixtisaslarda "Elektron jurnal" modulunun tam olaraq tətbiqinə başlanılmışdır. "Elektron jurnal" modulunun 2024/2025-ci tədris ilindən etibarən bütün ixtisaslarda da tətbiq edilməsi nəzərdə tutulmuşdur.

### 3.5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

ARETN-nin dəstəyi ilə orta ümumtəhsil müəsisələrində təhsilalanlarda tənqidi, yaradıcı düşüncə, əməkdaşlıq etmə və s. kimi XXI əsr bacarıqlarını formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri inteqrativ, real problemlərin

həlli istiqamətində tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltmək məqsədi ilə “STEAM Laboratoriyaları” yaradılmışdır. Laboratoriyaların təqdim etdiyi xidmətlərdən orta məktəb şagirdlərinin də yararlandığını nəzərə alaraq onlara dərs deyən müəllimlərdə də bu bacarıqların formalaşması çox vacibdir. Müəllim hazırlığı ilə məşğul olan bir qurum olaraq onlarda “STEAM Laboratoriyaları”ndan istifadə bacarıqlarının formalaşması çox vacib məsələlərdən biridir. Buna görə də universitetdə “STEAM Laboratoriyası” qurulmuş və istifadəyə verilmişdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu gün orta məktəblərin ibtidai siniflərindən etibarən informatika fənni tədris olunmağa başlayır. Bunu nəzərə alaraq İbtidai sinif müəllimliyi ixtisası ilə yanaşı bütün müəllimlik ixtisaslarında eləcə də digər ixtisaslarda təhsil alan tələbələrin İKT bacarıqlarının formalaşması çox vacib bir məsələ olaraq qarşıda durur. Bütün ixtisaslar üzrə təhsil alan tələbələr universitetdə yaradılmış “STEAM Laboratoriyası”nın təqdim etdiyi bütün xidmətlərdən yararlana bilir.

### 3.5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

GDU-da akademik, inzibati və tədris otaqları da daxil olmaqla, ümumilikdə internetə çıxışı olan 573-dən artıq kompüter vardır. Onlardan 468-i auditoriya və tədris labaratoriyalarındadır. Tələbələrin İKT üzrə savadlılığının artırılmasını təmin etmək məqsədilə Microsoft Office paket proqramları ilə işləmək, ixtisasları üzrə təlim prosesində tətbiq etmək bacarıqlarını formalaşdırmaq məqsədilə 120 internetə qoşulmuş kompüterdən ibarət 11 kompüter laboratoriyası fəaliyyət göstərir. İstifadə olunan internet şəbəkəsinin sürəti 100 mbit/san-dır.

### 3.5.6. GDU-nun auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

GDU-nun beş tədris korpusunda 30 mühazirə, 132 məşğələ, 24 tədris laboratoriyaları, 2 elmi-tədqiqat laboratoriyası olmaqla, cəmi 188 auditoriya mövcuddur. Auditoriyalar tədris istiqamətinə görə 75-100 nəfərlik (mühazirə auditoriyaları), 25-30 nəfərlik (məşğələ auditoriyaları), 15-20 nəfərlik (laboratoriya otaqları) auditoriyalar mövcuddur. GDU-nun faydalı sahə fondu 23195,7 kv.m., ümumi tələbə sayı 7875 nəfərdir. Bir tələbəyə 2,9 kv.m. faydalı sahə düşür. Bakalavriat səviyyəsində əyani təhsilalma forması üzrə dərslər 2 növbədə təşkil edilir. Magistratura səviyyəsi üzrə isə dərslər axşam

saatlarında aparılır. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu təmin edilir.

### 3.5.7. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

GDU-da akademik heyətin fəaliyyəti üçün 3753,6 kv.m. sahəsi olan 125 otaq, inzibati heyətin fəaliyyəti üçün 7654,9 kv.m. sahəsi olan 139 otaqla təmin edilmişdir.




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Akademik heyət üçün otaq sayı | 120 | 120 | 123 | 124 | 124 | 124 | 124 | 125 |
| İnzibati heyət üçün otaq sayı | 122 | 130 | 132 | 132 | 133 | 135 | 137 | 139 |

### 3.5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Universitet üzrə kitabxana fondunun ümumi sahəsi 1518,8 $m^2$ və hər bir tələbəyə düşən faydalı sahə 0,2 $m^2$-dir. Kitabxana (elektron və bilavasitə) fondu, tələbələrin və akademik heyətinin sayı illər üzrə aşağıdakı infoqrafikdə təqdim edilmişdir:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Kitabxana fondu (çap) | 335321 | 366168 | 339264 | 340238 | 340625 | 341810 | 343938 | 346358 |
| Kitabxana fondu (elektron) | 1546 | 1833 | 1840 | 2740 | 3090 | 3137 | 3587 | 4127 |
| Tələbənin sayı (bakalavriat) | 5556 | 5543 | 5949 | 6514 | 6990 | 7122 | 7220 | 7309 |
| Tələbənin sayı (magistratura) | 325 | 380 | 388 | 342 | 370 | 436 | 457 | 566 |
| Akademik heyət | 599 | 592 | 607 | 625 | 621 | 619 | 615 | 600 |

Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə tələbə sayına olan nisbətinə nəzər yetirsək görərik ki, 2016/2017-ci tədris ilində 57,3, 2017/2018-ci ildə 62,1, 2018/2019-cu ildə 53,8, 2019/2020-ci ildə 50,0, 2020/2021-ci ildə 46,7, 2021/2022-ci ildə 45,6, 2022/2023-cü ildə 45,3, 2023/2024-cü ildə isə 44,5 ədəd kitab təşkil edir. Dinamikadan hər bir təhsilalana düşən kitab sayının azaldığı müşahidə olunur. Buna səbəb qəbul olan və köçürülmə ilə gələn tələbələrin sayının artmasıdır.

Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə akademik heyət sayına olan nisbətinə nəzər yetirsək görərik ki, 2016/2017-ci tədris ilində 562,4, 2017/2018-ci tədris ilində 621,6, 2018/2019-cu ildə 562, 2019/2020-ci ildə 548,8, 2020/2021-ci ildə 553,5, 2021/2022-ci ildə 557,3, 2022/2023-cü ildə 565,1, 2023/2024-cü ildə isə 584,1 ədəd kitab təşkil edir. Təhsilverənlərə münasibətdə son beş ildə kitabxananın xidmət imkanlarının artımında müsbət dinamika müşahidə edilir.

### 3.5.9. GDU-nun kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

GDU-nun kitabxana fonduna daxil olan son səkkiz ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayı aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvələ nəzər yetirdikdə illər üzrə kitabların sayı və nüsxəsi, eyni zamanda elektron formada olan dərslik və dərs vəsaitlərinə dair məlumatlar əks olunur. Qeyd edək ki, pandemiya dövründə mövcud vəziyyətlə əlaqədar olaraq az artım müşahidə edilsə də, pandemiya sonrası dövrlərdə daha çox artım müşahidə edilir. Elektron formada olan kitabxana fondunun isə əhəmiyyətli dərəcədə artımı müşahidə edilir.

| Tədris illəri | Dərslik | | | Dərs vəsaiti | | |
|---|---|---|---|---|---|---|
| | çap | | elektron | çap | | elektron |
| | adda | nüsxə | | adda | nüsxə | |
| 2016/2017 | 8790 | 30206 | 30 | 19630 | 78415 | 56 |
| 2017/2018 | 8825 | 30524 | 95 | 19688 | 78948 | 123 |
| 2018/2019 | 8824 | 30642 | 120 | 19741 | 79190 | 236 |
| 2019/2020 | 8934 | 30803 | 182 | 19810 | 79809 | 380 |
| 2020/2021 | 8936 | 30842 | 264 | 19871 | 79999 | 589 |
| 2021/2022 | 8954 | 30848 | 473 | 19875 | 80583 | 752 |
| 2022/2023 | 8981 | 31072 | 548 | 19918 | 80714 | 963 |
| 2023/2024 | 9006 | 31273 | 850 | 19987 | 81115 | 1250 |

Aşağıdakı diaqramda təqdim edilən universitetin kitabxana fondu üzrə son səkkiz ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) dinamikasına nəzər

yetirdikdə artım müşahidə edilir. Elektron formada olan dərslik və dərs vəsaitlərinin əhəmiyyətli dərəcədə artımı müşahidə edilir.




### 3.5.10. Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

İxtisas proqramları üzrə tədris dillərinə uyğun kitab fondunun mövcudluğu aşağıdakı cədvəldə göstərilmişdir. Nəzərə almaq lazımdır ki, ixtisas proqramlarından yalnız “Xarici dil müəllimliyi (İngilis dili)” ixtisasının rus dili bölməsi fəaliyyət göstərdiyinə görə ədəbiyyat siyahısının sayı az olmuşdur. Bununla yanaşı “İbtidai sinif müəllimliyi”, “Riyaziyyat və informatika müəllimliyi” və “Xarici dil müəllimliyi (Fransız dili)” ixtisaslarının rus dili bölməsi üzrə əvvəlki tədris illərində mütəxəssis hazırlığı aparılsa da tələbə qəbulu planının yerinə yetirilməməsi səbəbindən qeyd edilən ixtisaslar üzrə qəbul dayandırılmışdır.

2022/2023-cü tədris ilindən etibarən fəaliyyətə başlayan Kimya və biologiya müəllimliyi ixtisasında tədrisi ingilis dilində aparılan qruplarında istifadə edilən ədəbiyyatlar kitabxanada yalnız elektron formada mövcuddur.

| Tədris illəri | Azərbaycan dili | | | Rus dili | |
|---|---|---|---|---|---|
| | çap | | elektron | çap | elektron |
| | adda | nüsxə | | nüsxə | |
| 2016/2017 | 38456 | 138972 | 123 | 97585 | 58 |
| 2017/2018 | 39102 | 139872 | 369 | 97542 | 87 |
| 2018/2019 | 39625 | 140972 | 478 | 97480 | 154 |
| 2019/2020 | 39661 | 144038 | 858 | 97453 | 287 |
| 2020/2021 | 40311 | 144150 | 2231 | 97442 | 312 |
| 2021/2022 | 41011 | 144887 | 2984 | 97327 | 397 |
| 2022/2023 | 41600 | 146037 | 3235 | 97300 | 463 |
| 2023/2024 | 42100 | 148539 | 3572 | 97276 | 555 |

Aşağıdakı diaqramda təqdim edilən təhsil proqramları üzrə tədris dillərinə uyğun kitab fondunun dinamikasına nəzər yetirdikdə hesabat dövründə Azərbaycan dilində olan kitab fondunun artımı müşahidə olunur. Rus dilində olan kitab fondunun azalmasına səbəb həmin dildə yalnız 1 ixtisas üzrə mütəxəssis hazırlığının aparılmasıdır. Elektron formada olan kitab fondunun əhəmiyyətli dərəcədə artımı müşahidə edilir.




### 3.5.11. GDU-da dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Universitet üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün hesabat dövründə ayrılan vəsait 83850 manat təşkil edir. Ayrılmış vəsaitdən hesabat dövründə 55250 manat xərclənmişdir.

| İllər üzrə | Təsdiq edilmiş smeta üzrə (AZN) | İcra olunmuş xərclər smetası üzrə (AZN) |
|---|---|---|
| 2016-cı il | 7000 | 6440 |
| 2017-ci il | 0 | 0 |
| 2018-ci il | 10000 | 11100 |
| 2019-cu il | 8500 | 5000 |
| 2020-ci il | 7000 | 3150 |
| 2021-ci il | 13350 | 11060 |
| 2022-ci il | 20000 | 4920 |
| 2023-cü il | 18000 | 13580 |
| **Cəmi:** | **83850** | **55250** |

Universitet üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin həcmində olan dinamikanı aşağıdakı diaqramda görmək mümkündür.



### 3.5.12. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

Universitet üzrə hər tədris ilinin sonunda rektorluğun 30.12.2022-ci il tarixli 5/469 saylı əmri ilə yaradılmış (rektorluğun 17.01.2024-cü il tarixli 5/12 saylı əmri ilə tərkibdə dəyişiklik edilib) "Yoxlama Komissiyası" tərəfindən təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılır. Yoxlama zamanı aşkar edilmiş neqativ hallar, çatışmazlıqlar və təkliflər aktlaşdırılaraq Elm və innovasiyalar üzrə prorektorluğa təqdim edilir. Prorektor isə öz növbəsində həmin sənədi imzalayaraq rektora təsdiqə göndərir. Gələcəkdə icrası nəzərdə tutulan işlərə dair Elm və innovasiyalar üzrə prorektor tərəfindən təqdimat hazırlanaraq rektora təqdim edilir. Rektor tərəfindən isə həmin işlərin icrası məqsədi ilə müvafiq əmrlər verilir.

### 3.5.13. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

İxtisaslar üzrə hər tədris ilinin sonunda GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət təminatı və qiymətləndirmə Komissiyasının Əsasnaməsi"nə əsasən təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu Komissiya tərəfindən monitorinq edilir. Yoxlama zamanı aşkar edilmiş neqativ hallar, çatışmazlıqlar və təkliflər aktlaşdırılaraq Elm və innovasiyalar üzrə prorektorluğa təqdim edilir. Prorektor isə öz növbəsində həmin sənədi imzalayaraq rektora təsdiqə göndərir. Gələcəkdə icrası nəzərdə tutulan işlərə dair Elm və innovasiyalar üzrə prorektor tərəfindən təqdimat hazırlanaraq rektora təqdim edilir. Rektor tərəfindən isə həmin işlərin icrası məqsədi ilə müvafiq əmr verilir.

İxtisaslar üzrə təlim və tədris resurslarının təhsilalanlar üçün əlçatanlığını təmin etmək məqsədilə "Kapital Bank" ASC-nin maliyyə dəstəyi ilə elektron kitabxana sisteminin qurulması üçün ilkin razılıq əldə edilmişdir. Razılıq əsasında cari ilin mart ayında "Kapital Bank" tərəfindən universitetdə elektron kitabxana sisteminin qurularaq təhvil verilməsi planlaşdırılır.

Qeyd edək ki, universitet 2023-cü ildən etibarən Avropa İttifaqının Erasmus+ KA2 proqramının "Azərbaycan İnstitusional Repozitorlar Şəbəkəsi (DIRNA)" layihəsində tərəfdaş olaraq iştirak edir. Layihə açıq girişi olan institusional repozitorlar şəbəkəsinin yaradılması vasitəsilə universitetdə tədqiqat nəticələrinin idarə edilməsi kontekstində potensialın artırılması məqsədi daşıyır. Layihə universitetin öz repozitorlar şəbəkəsini

yaratmağa və idarə etməyə kömək edəcəkdir. DIRNA layihəsinin məqsədi təkcə keyfiyyətli elmi tədqiqatın üzə çıxması və idarə olunmasını təkmilləşdirmək deyil, həm də tədqiqat nəticələrinə açıq çıxışı dəstəkləmək, ölkə daxilində ali təhsil müəssisələri arasında elmi əlaqə və koordinasiyanı saxlamaq və təşviq etməkdir.

Təhsilalanlar eyni zamanda fakültələrin veb səhifəsinə daxil olaraq "Mühazirə" bölməsindən yararlana bilir.

### 3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da bununla bağlı "6.1.1. Təhsildə gender zəminində bərabərsizlikləri aradan qaldırmaq və zəif təbəqələr, o cümlədən əlil insanlar, yerli xalqlar və aztəminatlı uşaqlar üçün bütün səviyyələrdə təhsilə bərabər çıxış imkanını təmin etmək", "6.1.2. Bütün təhsil alanların dayanıqlı inkişafı təşviq etmək üçün tələb olunan bilik və vərdişlərə yiyələnmələrini təmin etmək", "6.1.3. Sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasını yaratmaq", "7.5.2. Sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin etmək məqsədi ilə imkanları gücləndirmək" adlı fəaliyyətlər müəyyən edilmişdir.

Universitetdə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün Avropa İttifaqının TEMPUS proqramının ESFIDIP layihəsi (2014-2017) çərçivəsində GDU EŞ-nin 30.11.2015-ci il tarixli (pr. № 12) Qərarı və rektorluğun 29.12.2015-ci il tarixli 1/523 saylı əmri ilə "Əlilliyi olan şəxslər üçün Mərkəz" yaradılmışdır. GDU EŞ-nin 20.09.2020-ci il tarixli (pr. № 05) Qərarı və rektorluğun 04.11.2020-ci il tarixli 5/229 saylı əmri ilə "Əlilliyi olan şəxslər üçün Mərkəz" universitetin strukturuna daxil edilmişdir. Mərkəzin GDU EŞ-nin 02.07.2015-ci il tarixli (pr. № 9) Qərarı ilə təsdiq edilmiş Əsasnaməsi, Strateji Planı və İllik Fəaliyyət Planı mövcuddur. Mərkəz layihə çərçivəsində 25 min Avro dəyərində Avropa və Amerika Birləşmiş Ştatlarının istehsalı olan tədris resursları (The Braille printer (Braille embosser) + Duxbury Braille translation program, Pearl + Openbook Document Reading Camera, Braille display 40 Cells - Blue Focus 40 cell, MAGIC large print keyboard, Maltron expanded keyboard, Haydi switch, Magic for windows, JAWS Screen Reader Professional Murad, Ulviye Voice with DONGLE key, audio-vizual tədris materialları, brayl əlifbası ilə çap edilmiş bəzi dərsliklər, "Qurani Kərim" və s.) ilə təchiz olunmuşdur. Mərkəzin yerləşdiyi bina Avropa standartları əsasında əsaslı təmir edilmişdir. Binada sağlamlıq imkanları məhdud şəxslərin tam sərbəst hərəkəti üçün bütün şərait yaradılmışdır. Belə ki, onların

binaya daxil olması üçün pandusla təmin edilmiş xüsusi giriş yaradılmış, binada yerləşən kitabxanadan, tələbə yeməkxanasından, sanitar qovşaqlardan istifadə üçün bütün şərait və lazımi infrastrukturla təchiz edilib.

**3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Universitet üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi məqsədilə hər semestrin əvvəlində Maraqlı Tərəflərin iştirakı ilə kafedralarda təşkil edilmiş iclaslarda müzakirələr aparılır. Aktual hesab olunan təlim nəticələri, mövzular, yeni dərc edilmiş nəşrlər və konfrans materialları sillabuslara əlavə edilir.

Elmi tədqiqat fəaliyyətinin təlim-tədris prosesinə inteqrasiyası məqsədi ilə əldə edilmiş elmi yeniliklərin sillabuslarda əks edilməsi təmin edilir. Bununla yanaşı mütəxəssis hazırlığında istifadə edilən dərslik, dərs vəsaiti, fənn proqramları və digər zəruri təlim-tədris resurslarının təkmilləşdirilməsi və yenilənmiş versiyalarının əldə edilməsi təmin edilir. Bütün bunlar universitetin EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş “Strateji Plan”ında və EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət Təminatı Siyasəti”ndə öz əksini tapmışdır.

**3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

GDU-da tələbələrin asudə vaxtının səmərəli təşkili, tələbələr arasında maarifləndirmə işlərinin aparılması, təhsilə marağın artırılması, tələbələrin hüquqlarının təmin edilməsi, respublikanın daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi, universitet daxilində tələbələrin könüllülük fəaliyyətini genişləndirmək məqsədilə Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Tələbə Elmi Cəmiyyəti (TEC) və İdman Klubu mövcuddur. Universitetdə bu qurumların fəaliyyəti bütün zəruri avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılmışdır. Universitetdə həm tələbə təşkilatlarının nəzdində, həm də müstəqil olaraq tələbə klubları fəaliyyət göstərir. TGT-nin nəzdində “Tarix”, “Xarici dillər”, “Psixologiya”, “Vətənpərvərlik”, “İdman və sağlamlıq”, “ART”, “İntelektual Oyunlar” kimi klublar mövcuddur. THİK-in nəzdində (THİK) isə “Gənc yazarlar”, “Gənc intelleklər”, “Tarix” və “Əyləncə” kimi klublar mövcuddur.

Universitet tərəfindən bu klubların müxtəlif sosial layihələrinin, mədəni-kütləvi tədbirlərinin, eləcə də İdman Klubu tərəfindən idman yarışlarının keçirilməsi üçün lazımi

inzibati və təşkilati dəstək göstərilir. Onların şəhər və respublika yarışlarında və müsabiqələrində kütləvi iştirakı təmin edilir. Bu işlər TGT və İdman Klubu tərəfindən müəyyən olunmuş "İş Planı"na əsasən aparılır.

Tələbə klublarının mədəni-kütləvi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün akt zalları, məşq otaqları, müxtəlif geyim otaqları, musiqi alət və avadanlıqları, idman fəaliyyətləri üçün stadion, müxtəlif idman qurğuları və s. mövcuddur. Universitetdə tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları) dəstək planları mövcuddur.

**3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

Rektorluğun 18.04.2022-ci il tarixli 5/123 saylı əmri ilə universitetin akademik və təhsilalanların eləcə də inzibati və tədris-köməkçi heyətin təhsil fəaliyyətinin, sosial-mənəvi, sosial-psixoloji problemlərini öyrənmək və lazımi psixoloji dəstək göstərilməsi məqsədilə bütün fakültələrdə, Qiyabi və Magistratura şöbələrində "Psixoloji məsləhətçilər" otağı yaradılmışdır. Psixologiya kafedrasının təcrübəli müəllimləri könüllülük prinsipi əsasında fakültələr üzrə yaradılmış otaqlara "psixoloji məsləhətçi" olaraq təhkim edilmişdir.

**3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi**

**3.6.1. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

GDU-da təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ARETN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin tələblərinə, GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "GDU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları"na uyğun olaraq tənzimlənir.

**3.6.2. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

GDU-da təhsilalanların biliyinin qiymətləndirilməsi prosesinin ölçüləbilən və etibarlı olması GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 19.01.2024-cü il tarixli 5/19 saylı əmri ilə təsdiq edilmiş "GDU üzrə ali təhsil sistemində qiymətləndirmə Konsepsiyası" əsasında tənzimlənir.

### 3.6.3. Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

İxtisasların spesifikasından asılı olaraq tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilir. Məşğələlərdə biliyin cari qiymətləndirilməsi üçün müəllim tərəfindən yazılı tapşırıq, test, şifahi, sorğu, açıq müzakirə, təqdimat və layihə işlərinə dair hesabat, frontal sorğu, qrup şəkilində və özünüqiymətləndirmə üsullarından istifadə edilir. İxtisaslar üzrə təhsilalanların biliyinin aralıq qiymətləndirilməsi zamanı isə yazılı, kompüter vasitəsilə test, şifahi, qabiliyyət, təcrübəyə dair hesabat, yekun dövlət attestasiyası zamanı isə buraxılış işinin müdafiəsi, fənlərarası yekun dövlət imtahanı və dissertasiya işinin müdafiəsi kimi üsullardan istifadə edilir.

Pandemiya dövründə isə bütün növ qiymətləndirmə distant (məsafədən) formada həyata keçirilmişdir.

### 3.6.4. Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

İxtisas proqramları üzrə dərslərin keçirilməsinə nəzarət və təhsilalanların biliyinin cari qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və tələbənin qiymətinin əsaslandırılması vəziyyətinin müəyyən edilməsi məqsədi ilə 27.10.2023-cü il tarixli 5/294 saylı "Tədris binalarına rektorun səlahiyyətli nümayəndələrinin təyin edilməsi" barədə əmri ilə tədris binaları üzrə məsul şəxslər təyin edilmişdir.

İxtisas proqramları üzrə təhsilalanların biliyinin aralıq qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və tələbənin qiymətinin əsaslandırılması vəziyyətinin müəyyən edilməsi ARETN-nin "İmtahan sessiyasının təşkili Qaydaları" haqqında müvafiq əmri əsasında verilən rektorluğun "İmtahan sessiyasının təşkili və keçirilməsi" barədə əmri ilə tənzimlənir.

Yuxarıda qeyd edilən əmrdə prosesin təşkili ətraflı şərh edilməklə yanaşı "İmtahan Mərkəzi", "Apellyasiya Komissiyası", "İctimai Nəzarət Şurası", "İmtahanların keçirilməsi üçün nəzarət Qrupu", "İmtahan Qərargahı", kafedralarda imtahan suallarının hazırlanmasına nəzarət etmək üçün "Ekspert Komissiyaları" və s. yaradılması da əks olunmuşdur.

### 3.6.5. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Tələbələrin biliyinin qiymətləndirilməsi zamanı onlarda özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amilləri hər zaman nəzərə alınır. Təhsil prosesi ilə bağlı sənədlərin müzakirəsi zamanı tələbələrin qərarvermə prosesinə cəlb edilməsi təmin olunur. Fakültələr üzrə rektorluğun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə yaradılmış "Monitorinq və qiymətləndirmə Komissiyası"nda yer alan Maraqlı Tərəflərin tərkibinə tələbələr və məzunlar (cari və öncəki illərin) da daxil edilir. Bu isə öz növbəsində qiymətləndirmədə (xüsusilə sillabuslarda "təlim nəticələri" hissəsinin təkmilləşdirilməsi) təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsi ilə bağlı təklif verməsinə şərait yaradır.

Eyni zamanda qiymətləndirmə prosesini daha obyektiv və şəffaf şəkildə təşkil etmək üçün test imtahanlarının nəticələri kompüter vasitəsilə, şifahi və qabiliyyət imtahanları da daxil olmaqla yazılı imtahanların nəticələri fənni tədris edən və imtahanı qəbul edən müəllim tərəfindən yox, fərqli bir müəllim tərəfindən qiymətləndirilir. Qeyd edək ki, eyni fənnin tədrisini müxtəlif müəllimlər müxtəlif üsulla həyata keçirsə də təlim nəticələri dəyişmir.

### 3.6.6. Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Qiymətləndirmə zamanı test formasında keçirilən imtahanlar 2010-cu ildən informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə etməklə mövcud proqram təminatı vasitəsilə təşkil edilir.

Pandemiya dövründə bütün imtahanlar Microsoft Teams platformasının "imtahan modulu" ilə həyata keçirilib. Pandemiya sonrası ilk dövrdə isə test formasında keçirilən imtahanlar xüsusi formada təşkil edilmişdir. Belə ki, tələbələrə imtahan cavab kartları təqdim edilmiş, nəticələr xüsusi skaner qurğusu ilə yoxlanılmışdır.

Cari tədris ilinin payız imtahan sessiyası mövcud proqram təminatı vasitəsilə təşkil edilmişdir. Gələcəkdə bu prosesin "ULTRA" MMC-yə məxsus olan Eduman platformasının "İmtahan modulu" ilə təşkil edilməsi planlaşdırılır.

Hazırda "İmtahan modulu" ilə bağlı təklif alınmış və satınalma ilə bağlı aidiyəti üzrə prosesə başlanılmışdır.

**3.6.7. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti**

İxtisaslar üzrə təhsil alan tələbələr arasında xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslər az sayda olduğu üçün və ARETN-nin "İmtahan sessiyasının təşkili Qaydaları" haqqında müvafiq əmrində və qiymətləndirmə ilə bağlı mövcud normativ hüquqi sənədlərdə bu kimi hallar nəzərdə tutulmadığından xüsusi qiymətləndirmə üsullarından istifadə edilmir.

**3.6.8. Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

İxtisaslar üzrə cari və aralıq qiymətləndirmə aparılan zaman müvafiq fənlərin spesifikliyi nəzərə alınmaqla şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri gözlənilir. Fənlərin xüsusiyyətindən asılı olaraq test, yazılı, şifahi, sorğu, təqdimat, qabiliyyət və s. qiymətləndirmə formaları tətbiq edilir. İxtisaslar üzrə təhsilalanların qabiliyyətinin eyni olmadığını nəzərə alaraq xüsusi qabiliyyət tələb edən fənlərdə cari qiymətləndirmə zamanı onların qabiliyyət bacarıqları deyil (musiqi, təsviri incəsənət, fiziki tərbiyə, texnologiya) nəzəri biliklərinin yoxlanılmasına üstünlük verilir.

**3.6.9. Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

İxtisaslar üzrə Yekun Dövlət Qiymətləndirilməsi (yekun dövlət imtahanı və ya buraxılış işi) ARNK-nin 23 aprel 2010-cu il tarixli 75 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və ARETN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin, GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "GDU-da bakalavriat səviyyəsində tələbələrin Dövlət Attestasiyası haqqında Qaydalar"ı və "GDU-da magistratura təhsilinin məzmunu, təşkili "magistr" dərəcələrinin verilməsi Qaydaları"na uyğun prosedurlar əsasında tənzimlənir.

Bakalavriat və magistratura səviyyələrində 2019/2020 və 2020/2021-ci tədris illərini əhatə edən dövrlərdə YDA ARNK-nin 05 iyun 2021-ci il tarixli 158 saylı Qərarına əsasən "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" və rektorluğun

19.05.2020-ci il tarixli 5/83 saylı və 03.05.2021-ci il tarixli 5/137 saylı əmrlərinə uyğun olaraq keçirilmişdir.

**3.6.10. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Hər imtahan sessiyasının sonunda bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə fakültələrdə nəticələr analiz olunur, ARETN-nin müvafiq formaları üzrə məlumatlar ümumiləşdirmək üçün Tədris departamentinə təqdim olunur. Əldə edilmiş nəticələrə dair genişləndirilmiş hesabat Tədris məsələləri üzrə prorektor tərəfindən universitet EŞ-ya təqdim edilir. EŞ üzvləri tərəfindən hesabata dair müzakirə və təhlillər aparılaraq müvafiq qərarlar qəbul edilir.

**3.6.11. Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

İxtisaslar üzrə təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada ARNK-nin 24 dekabr 2013-cü il 348 saylı Qərarı ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”, GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş “GDU-nun bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” və universitet üzrə hazırlanmış “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarına dair Tövsiyələr”də öz əksini tapmışdır. Tələbələr üçün əlçatanlığın təmin edilməsi məqsədi ilə kitabça şəklində çap olunmuş və elektron versiyası universitetin elektron səhifəsində yerləşdirilmişdir. https://gdu.edu.az/tovsiyələr/

**3.6.12. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

İxtisaslar üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədlərinin verilməsi ARNK-nin 29.04.2010-cu il tarixli 82 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin

bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası”na əsasən tənzimlənir.

İxtisaslar üzrə təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə arayışların verilməsi ARNK-nin 21.01.2010-cu il tarixli 12 saylı Qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”na uyğun həyata keçirilməsi nəzərdə tutulsa da normativ müddətdən artıq təhsil alan tələbələr universitetdən xaric edilərək başqa ali təhsil müəssisəsinə bərpa edilmədiyinə görə arayışların verilməsi təmin edilməmişdir.

### 3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

#### 3.7.1. Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Mütəxəssis hazırlığına cəlb edilmiş akademik və inzibati heyətlə əmək müqavilələrinin bağlanılması və xitam verilməsi mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin tələblərinə, ARETN-nin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na, 07 avqust 1996-cı il tarixli 401 saylı əmrinə 1 saylı Əlavə ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”sinə, GDU EŞ-nin 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı ilə təsdiq edilmiş “İşə Qəbul Siyasəti” ilə “Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları”na və GDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

“İşə Qəbul Siyasəti” və “Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları”na uyğun olaraq hər tədris ilinin əvvəlində yeni işə qəbul edilən akademik heyətin bilik və bacarıqları Maraqlı Tərəflərin iştirak etdiyi rektorun əmrləri ilə yaradılmış Komissiyalar tərəfindən açıq dərs formasında dinlənilərək qiymətləndirilir.

İşə qəbul prosesinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün “İşə Qəbul Siyasəti” və “Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları” universitetin internet səhifəsində yerləşdirilmişdir. "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na və "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq ictimaiyyət üçün əlçatanlığını təmin edilməsi üçün vakant vəzifələr barədə KİV-də elan verilir.

### 3.7.2. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdırılması GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və Mükafatlandırma Siyasəti"nə əsasən həyata keçirilir. Siyasətə uyğun olaraq əlamətdar günlərdə pedaqoji fəaliyyətdə fəqlənən təhsilverənlərə dövlət başçısı və ARETN tərəfindən fəxri adların verilməsi üçün təqdimatlar verilir. Həmçinin rektorluq və AHİK tərəfindən "Fəxri Fərman", "Təşəkkürnamə" və "Pul mükafatı", yay tətilinin səmərəli təşkili məqsədi ilə sanatoriyalara göndərişlər verilir. Akademik heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə universitet EŞ-nin Qərarları ilə hesabat dövrünün əvvəlində GDU EŞ-nin 28.10.2019-cu il tarixli (pr. № 07) Qərarı və rektorluğun 29.10.2019-cu il tarixli 5/273 saylı əmri və sonunda GDU EŞ-nin 24.11.2023-cü il tarixli (pr. № 02) Qərarı və rektorluğun 01.12.2023-cü il tarixli 5/371 saylı əmri ilə əmək haqları artırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18.06.2019-cu il tarixli 1265 saylı Sərəncamı əsasında GDU EŞ-nin 24.09.2019-cu il tarixli (pr. № 06) Qərarı və rektorluğun 25.09.2019-cu il tarixli 5/228 saylı əmri ilə əməkhaqları minimum aylıq əmək haqqı səviyyəsinə çatdırılmışdır.

GDU EŞ-nin 31.01.2024-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 12.02.2024-cü il tarixli 1/67 saylı əmri ilə tədris işləri üzrə dekan müavinlərinin aylıq əmək haqlarına 200 (iki yüz) AZN əlavə edilmişdir.

Eyni zamanda tədrisi ingilis dilində aparılan "Kimya və biologiya müəllimliyi" ixtisasında pedaqoji fəaliyyətlə məşğul olan, xüsusi bacarıq və səriştələri olan müəllimlərin əmək haqlarına 2022/2023-cü tədris ilində EŞ-in 01.03.2023-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 30.03.2023-cü il tarixli 1/100 saylı əmri ilə və 2023/2024-cü tədris ilində EŞ-in 28.02.2024-cü il tarixli (pr. № 06) Qərarı və rektorluğun 29.02.2024-cü il tarixli 1/103 saylı əmri ilə müəyyən əlavələr edilmişdir.

### 3.7.3. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Akademik heyətə interaktiv və aktiv tədris metodları və distant tədris proseslərinin tətbiqi ilə bağlı sistemli təlimlərin həyata keçirilməsi EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə edilmiş "Təlim və Tədris Siyasəti" sənədi əsasında tənzimlənir. Bu məsələyə universitet EŞ-nin 09.12.2022-ci il

tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş "Strateji Plan"da xüsusi olaraq diqqət yetirilmiş və 7 istiqamətdən biri kimi verilmişdir. "Eduman" platformasından istifadə bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsi üçün İnformasiya resurslarının formalaşması şöbəsi tərəfindən təlimlər təşkil olunmuşdur.

**3.7.4. Akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti**

Bu məsələ EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Təlim və Tədris Siyasəti"ində öz əksini tapır. Eyni zamanda 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da bu meyarın icrası ilə bağlı "5.2.3. Professor-müəllim heyətinin ixtisasartırma işini qurmaq və təkmilləşdirmək" adlı fəaliyyət müəyyən edilib.

İnnovasiyalar departamenti tərəfindən akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər mövzularda təlim kursları təşkil edilmişdir. Bunlara: ""Avropa Təhsil Standartları (ESG) və onların keyfiyyət təminatında rolu", "ESG standartlarına uyğun olaraq kurikulumların hazırlanması", "Bloom taksonomiyası", "Proqram akkreditasiyası", "Sorğular və sorğu nəticələrinin təhlili", "Tələbə yönümlü təlim və kurrikulumun hazırlanması", "Müasir tədris texnologiyaları", "Layihənin işlənməsi və hazırlanması", "Keyfiyyətin təminatında tələbələrin rolu", "Tələbənin biliyinin qiymətləndirilməsi", "Yeni qiymətləndirmə üsulları", "Tələbələrin tədris proseslərində iştirakı", "Tələbənin biliyinin qiymətləndirilməsi", "Yeni qiymətləndirmə üsulları", "Yeni tədris metodlarının tətbiqi", "Keyfiyyətin təminatında tələbələrin rolu", "Sorğuların əhəmiyyəti (tələbələr üçün)" və s.

Akademik heyət müxtəlif qurumların təşkilatçılığı ilə həyata keçirilən "İnkluziv təhsil", "Gender bərabərliyi" və s. kimi ixtisasartırma təlimlərində iştirak edərək müvafiq sertifikatlar əldə etmişdir. Buna dair məlumatlar fakültələrin elektron səhifəsində öz əksini tapmışdır.

**3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

Universitetin bir çox Avropa universitetləri ilə Erasmus+ KA1 mübadilə proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur. Bu məsələ "Təlim və Tədris Siyasəti" sənədində də öz əksini tapıb.

Koordinator qismində iştirak edən tərəfdaş universitetlər tərəfindən qəbula dair məlumat verildikdə, Beynəlxalq əlaqələr şöbəsi tərəfindən qəbul qaydaları haqqında

universitetin elektron səhifəsinin elanlar bölməsində məlumat verilir. İxtisaslar üzrə təhsilverənlərin ingilis dili biliyinin zəif olması səbəbindən mübadilə proqramlarında iştirak qənaətbəxş deyil.

GDU üzrə təhsilverənlər Erasmus+ KA2 bilik və bacarıqların artırılması layihələri çərçivində ölkə daxilində təşkil edilmiş beynəlxalq səviyyəli təlimlərdə işçi dilinin Azərbaycan dili olduğu üçün iştirak etmiş və müvafiq sertifikatlar əldə etmişdir. Eyni zamanda universitetin iştirak etdiyi Erasmus+ KA2 PETRA, EQAC və s. layihələrin “Fəaliyyət Planı”na uyğun beynəlxalq təcrübənin paylaşılması üçün layihə komandası müxtəlif təlimlər təşkil etmişdir. Bunlar universitetin elektron səhifəsində əksini tapmışdır.

**3.7.6. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

GDU üzrə akademik heyətin dərs zamanı yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi “Təlim və Tədris Siyasəti” sənədinə istinad olunaraq icra edilir. Universitet üzrə 03.11.2022-ci il tarixli 5/352 saylı əmri ilə yaradılmış “Monitorinq Qrupu” professor-müəllim heyətinin dərsində iştirak edərək nəticələrini müzakirəsi haqqında rektorluğa məlumat xarakterli hesabat təqdim edir.

**3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

İxtisaslar üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükü bölgüsünün dürüst və şəffaf meyarlar əsasında aparılması ARNK-nin 24 noyabr 2010-cu il tarixli 215 saylı Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında Qərarı”na, ARETN-nin 24.02.1994-cü il tarixli 113 saylı əmri ilə təsdiq edilmiş “Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodik və digər işlərin növləri barədə Sənəd”inə və rektorluğun 15.03.2021-ci il tarixli 5/68 saylı “Dərs yüklərinin planlaşdırılması Qaydaları”na əsasən icra edilir.

**3.7.8. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

GDU-da mütəxəssis hazırlığına cəlb olunmuş akademik heyətin ümumi sayı 599 nəfərdən ibarətdir. Tələbələrin hər iki səviyyə üzrə sayının 7873 nəfər olduğunu nəzərə alsaq, professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/13 olduğu aydın olur.

**3.7.9. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin əsas iş yerinin GDU olmasına dair məlumatlar aşağıdakı infoqrafikdə göstərilmişdir:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Akademik heyətin ümumi sayı | 599 | 592 | 607 | 625 | 621 | 619 | 615 | 600 |
| Əsas iş yeri GDU olan akademik heyətin sayı | 559 | 545 | 560 | 576 | 589 | 586 | 580 | 584 |
| Kənardan cəlb edilmiş akademik heyətin sayı | 40 | 47 | 47 | 49 | 32 | 33 | 35 | 16 |
| Nisbət (əsas) | 93,3 | 92,1 | 92,3 | 92,2 | 94,8 | 94,7 | 94,3 | 97,3 |
| Nisbət (kənar) | 6,7 | 7,9 | 7,7 | 7,8 | 5,2 | 5,3 | 5,7 | 2,7 |

Yuxarıda verilmiş infoqrafikdən göründüyü kimi, tədris prosesində iştirak edən professor və müəllim heyətinin 70%-dən çoxunun əsas iş yeri GDU-dur. Mövcud təhlillər əsasında məlim olmuşdur ki, əsasən tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin ümumi akademik heyətdə payı 2016-ci ildə 93,3 % 2023-cü ildə isə 97,3 % olmaqla artan istiqamətdə dəyişmişdir. Cari tədris ilində əsas iş yeri universitet olmayan akademik heyət ümumi heyətin 2,7 %-i təşkil etmişdir.

**3.7.10. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

Bakalavriat səviyyəsində ixtisasların spesifikası nəzərə alınmaqla, tədris dili ingilis dili olan qruplarda və MBA ixtisaslarında digər ali təhsil müəssisələrinin professor-müəllim heyəti, maraqlı tərəflərin (işə götürənlər) tədris prosesinə cəlb olunmasına ehtiyac vardır. Zərurətin yaranma səbəbi müasir dövrün tələblərinə və əmək bazarının ehtiyaclarına uyğun tədris prosesinin praktik yönümlü təşkilidir. Bu xüsusən İqtisadiyyat və idarəetmə, həmçinin “Musiqi müəllimliyi” ixtisaslarında vacibdir.

**3.7.11. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiq edilməsi hal-hazırda mövcud deyil. Lakin GDU-nun 2023-2028-ci illər üzrə təsdiq edilmiş “Strateji Planı”nda bu məsələ alt məqsəd olaraq qeyd edilmişdir. Universitetdə differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi ilə bağlı yerli

və beynəlxalq tərəfdaşlıq etdiyimiz universitetlərin təcrübəsi öyrənilmiş, onlarda mövcud olan müvafiq sənədlər təhlil edilməsi üçün əldə edilmişdir. Cari ilin sonuna qədər universitet üzrə differensiallaşdırılmış əməkhaqqı sisteminin hazırlanaraq EŞ-ya təqdim edilməsi planlaşdırılmışdır.

### 3.7.12. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2006-cı il tarixli 1746 saylı Sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı” çərçivəsində təhsil almış Rəşad Roman oğlu İsgəndərov hazırda İnnovasiyalar departamentinin nəzdində fəaliyyət göstərən İnnovasiya texnologiyalarının transferi və marketinqi şöbəsində ekspert-konsultant, Menecment və turizm işi kafedrasında isə müəllim işləyir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 noyabr tarixli 444 nömrəli Qərarı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Almaniya Federativ Respublikasının “Ludwig Maximilian University of Munich (LMU)” ali təhsil müəssisəsində doktorantura təhsil səviyyəsində “Ekologiya” ixtisası üzrə təhsilini davam etdirən Nigar Səfalı qızı Talıbova, təhsilini bitirdikdən sonra universitetlə arasında bağlanmış ikitərəfli razılıq müqaviləsi əsasında “Ekologiya və təbiəti mühafizə” kafedrasında əmək fəaliyyətinə başlayacaqdır.

Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş xeyli sayda professor-müəllim heyəti universitetdə əmək fəaliyyətinə cəlb edilib.

## 3.8. Tələbəyönümlü tədris

### 3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

GDU-da birinci tədris ili istisna olmaqla hər tədris ili üçün ixtisasların tədris qrafiki əsasında fənlərin prerekvizitliyi gözlənilməklə “Fərdi Tədris Planı” tyutorun köməyi ilə tələbənin özü tərəfindən tərtib edilir.

Tələbə tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını “Fərdi Tədris Planı”na daxil edir. Növbəti tədris ili üçün tələbənin “Fərdi Tədris Planı” tərtib edilərkən ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər

daxil edilir. Akademik borcu qalan tələbələrə həmin fəndən krediti qazanması üçün şərait yaradılır.

Birinci tədris ilinə qəbul olunmuş tələbə və magistrantlara fakültələr, Qiyabi və Magistratura şöbələri tərəfindən “Fərdi Tədris Planı” hazırlanır. Tələbənin “Fərdi Tədris Planı”nda sonradan dəyişiklik edilməsinə icazə verilmir.

Payız semestrində akademik borcu qalan tələbələr qış tətilinin ilk həftəsində yaz semestri üçün “Fərdi Tədris Planı”nda düzəliş edə bilir. Fakültə dekanları tədris ilinin başlanğıcına qədər “Fərdi Tədris Planı”nı təsdiq edir. “Fərdi Tədris Planı”nın bir nüsxəsi tələbədə, bir nüsxəsi isə fakültələrdə saxlanılır.

### 3.8.2. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

İxtisas və ixtisaslaşmaların tədris planlarında ixtisas kafedraları tərəfindən təklif olunmuş seçmə fənlər öz əksini tapır. Təklif edilən seçmə fənlərin tədris metodiki vəsaitləri kafedralarda hazırlanır. Fənlərin seçimi zamanı tələbələr tyutorların məsləhətlərindən istifadə edirlər.

Yaz semestrinin aprel-may aylarında müəllimlərin iştirakı ilə tələbələr arasında təbliğat xarakterli söhbətlər aparılaraq fənlərin məzmunu, məqsədi, hədəfləri və təlim nəticələri haqqında məlumat verilir. Prosesə Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən nəzarət olunur.

### 3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

ARNK-nin 24 dekabr 2013-cü il tarixli 348 saylı “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarına əsasən ixtisas üzrə təhsilverənlərin tələbələr tərəfindən seçimi yalnız seçmə fənlərdə təmin edilir. Akademik məsləhətçi (tyutor) xidmətində işləmək üçün müraciət edənlərin sayının az olması, işə qəbulun imtahan yolu ilə aparılması və imtahandan uğur qazanan namizədlərin sayının nəzərdə tutulan qədər olmaması tələbələr tərəfindən seçim aparılmasına imkan verməmişdir. Bu prosesin gələcəkdə davam etdirilməsi nəzərdə tutulur.

**3.8.4. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

İxtisaslar üzrə tələbə və məzunlar arasında keçirilmiş bütün sorğular GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş "Sorğu Siyasəti" əsasında həyata keçirilir. Rektorluğun 09.02.2024-cü il tarixli 5/50 saylı əmri ilə ixtisas üzrə təhsilalanlar arasında 14.02.2024-cü il tarixdən 20.02.2024-cü il tarixinədək "Müəllimlərin və dərsin qiymətləndirilməsi" və 29.01.2024-cü il tarixli 5/32 saylı əmri ilə ixtisas üzrə məzunlar arasında 26.01.2024-cü il tarixdən 05.02.2024-cü il tarixədək "GDU-nun məzunlar tərəfindən qiymətləndirilməsi" adlı sorğular KTM-nin təşkilatçılığı ilə həyata keçirilmişdir.

KTM-nin təşkilatçılığı ilə "GDU-da tələbə məmnuniyyətinin qiymətləndirilməsi", "Tələbələrin müəllimləri qiymətləndirməsinə müəllimlərin münasibəti", "Professor müəllim heyətinin təlim və tədris, öyrənmə və tədqiqat proseslərinin qiymətləndirilməsi", "GDU-nun tələbə yataqxanasında qalan tələbələrin məmnuniyyətinin ölçülməsi və qiymətləndirilməsi", "Müəllimlərin təlim-tədris prosesindəki fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi" və s. sorğular həyata keçirilmişdir.




Yuxarıda təqdim edilən hesabat dövrünə dair inkişaf dinamikasına nəzər yetirsək görərik ki, Pandemiya dövründə mövcud vəziyyətlə əlaqədar olaraq sorğu təşkil edilməmişdir. Cari tədris ilinin başa çatmamasını nəzərə alsaq bu sayın artacağını proqnozlaşdırmaq olar.

**3.8.5. GDU-da tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası**

İxtisaslar üzrə tələbə və məzunlar arasında keçirilmiş sorğular nəticəsində əldə edilmiş təkliflər əsasında müəllimlərin dərsləri daha keyfiyyətli təşkil etməsinə nəzarətin gücləndirilməsi, tələbə yataqxanasında şəbəkə sistemi yenilənərək yüksəksürətli internet təmin edilməsi, təhlükəsizlik kameralarının quraşdırılması, yeməkxanada yeməklərin

keyfiyyətinin yüksəldilməsi, fakültələr üzrə oxu zallarının yeni ədəbiyyatlarla təmin edilməsi, tələbələrin kompüter laboratoriyalarından istifadəsi üçün vaxt müddətinin artırılması, asudə vaxtlarının daha səmərəli təşkil edilməsi kimi bir çox yeniliklər (qərarlar) həyata keçirilmişdir.

**3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

GDU-da ixtisaslar üzrə tələbə və məzunlar arasında keçirilmiş bütün sorğular GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş "Sorğu Siyasəti" əsasında həyata keçirilir. Təşkil edilmiş sorğular Google Forms platformasından istifadə edilməklə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən həyata keçirilmişdir.

Platformanın sonda təqdim etdiyi hesabat əsasında tələbələrin rəyləri və təklifləri sistemli şəkildə toplanaraq təhlil edilmiş və universitet EŞ-na müzakirə üçün təqdim edilmişdir.

**3.8.7. Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Tələbə Ombudsman Mərkəzi Avropa Komissiyasının "Erasmus Plus" proqramı üzrə "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" ("AESOP: Advocacy Establishment for Students through Ombudsman Position") layihəsinə uyğun olaraq GDU EŞ-nin 07.02.2018-ci il tarixli (pr. № 1) Qərarı və rektorluğun 12.02.2018-ci il tarixli 1/127 saylı əmri əsasında yaradılmışdır.

Bütün təhsilalanlar şikayət və təkliflərini Tələbə Ombudsmanına sərbəst şəkildə çatdırmaq üçün ombudsman@gdu.edu.az ünvanına müraciət edə bilir. Tələbə Ombudsmanının vəzifə öhdəlikləri və prosesə dair məlumatlar universitetin elektron səhifəsində əks edilmişdir. Müraciət edən tələbələrin anonimliyi Tələbə Ombudsmanı tərəfindən qorunur. https://gdu.edu.az/ombudsman/

İxtisaslar üzrə təhsilalanlar Tələbə Ombudsmanı ilə yanaşı universitet rəhbərliyinə, o cümlədən fakültə dekanı və Tələbə Həmkarlar Təşkilatına da aidiyəti üzrə müraciət edə bilir.

**3.8.8. Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti**

GDU-da təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) işə qəbul edilməsi məqsədi ilə GDU EŞ-nin 26.05.2022-ci il tarixli (pr. № 13) Qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri ilə Tədris departamentinin tərkibində Akademik Məsləhətçilər (tyutor) Xidməti yaradılmışdır. Xidmət üçün 1 ştat rəhbər, fakültələr üzrə hər kurs üçün 1 ştat olmaqla 4 tyutor vəzifəsindən ibarət olmaqla 42 ştat təsis edilmişdir. Fəaliyyəti isə EŞ-nin 07.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun 08.07.2022-ci il tarixli 5/242 saylı əmri ilə təsdiqlənmiş "Xidmətin Əsasnaməsi" ilə tənzimlənir.

**3.8.9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

İxtisaslar üzrə təhsilalanlar, təhsilverənlər və akademik məsləhətçilər (tyutorlar) arasında üzbəüz və ya onlayn (telefon, korporativ e-poçt, fakültənin sosial şəbəkə profilləri, "Eduman" platformasında mövcud olan şəxsi kabinetlər və s.) formada kommunikasiya təşkil olunur.

**3.8.10. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

İxtisaslar üzrə təhsilalanlar arasında sağlamlıq imkanları məhdud şəxslərin digər tələbələrlə eyni zamanda təlim-tədris prosesində bərabərhüquqlu iştirakı təmin edilir. Burada məqsəd həmin şəxslərin digərlərindən seçilməməsi və onların cəmiyyətə tam olaraq inteqrasiyasını təmin etməkdir. Bütün bunlar GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı Siyasəti" sənədində öz əksini tapmışdır.

**3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

Sosial həssas qrupa aid edilən tələbələrin təhsil prosesi Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə həyata keçirilir. Sərəncamlara uyğun olaraq sosial

həssas qrupa aid edilən tələbələr təhsil haqqından azad edilir, bir qrupunun təhsil haqqı isə ARETN-nin “Təhsil Tələbə Krediti” və “Yaşat” Fondu tərəfindən ödənilir.

Bununla yanaşı GDU EŞ-nin 30.03.2015-ci il tarixli (pr. № 06) Qərarı və rektorluğun 03.04.2015-ci il tarixli 5/70 saylı əmri ilə şəhid ailəsi üzvü və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olunmuş tələbələr, GDU EŞ-nin 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı və rektorluğun 07.10.2021-ci il tarixli 5/302 saylı əmri ilə , 2020-ci ildə Vətən müharibəsində iştirak edərək yaralanan tələbələr əsas və alt qrupa aid təhsil haqqı ödənişindən azad edilmişlər. Qeyd edilən qəbildən olan və hal-hazırda təhsil alan tələbələr alt qrupa aid təhsil haqqından azad edilir. GDU EŞ-nin 07.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun 08.07.2022-ci il tarixli 5/244 saylı əmri ilə isə yuxarıda qeyd edilən qəbildən olan şəxslərin akademik borcları yarandığı halda 2 fəndən təkrar imtahan vermələri üçün fənn üzrə müəyyənləşdirilmiş təhsil haqqının 25 %-ni ödəməkdən azad edilir. Eyni zamanda sosial həssas qrupa aid edilən tələbələrin müraciəti əsasında sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə THİK tərəfindən maddi yardım edilir.

### 3.8.12. Təhsilalanlara GDU tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

ARNK-nın 2016-cı il 5 fevral tarixli 38 saylı qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”na əsasən verilir. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq əyani təhsil alan tələbələrə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) görə təyin edilir.

Yuxarıda qeyd edilən Qərara əsasən hər imtahan sessiyasının sonunda universitet üzrə “Təqaüd Komissiyası” yaradılır. Təqaüd yerlərinin sayı tədris illəri üzrə ixtisas və ixtisaslaşmalarda dövlət sifarişi ilə təhsil alan tələbə sayı və hər semestr ARETN tərəfindən müəyyən edilən əlavə təqaüd yerlərinin cəmi miqdarında müəyyən edilir. İmtahan sessiyasından sonra fakültələrdə tələbələrin həmin semestr üçün ÜOMG-nə əsasən (ən yüksək nəticə göstərənlər) hesablanır, tələbələrə elan edilir və fakültə elanlar lövhəsində paylaşılır.

ARETN-nin 17.09.2014-ci il tarixli 1002 saylı əmrinə uyğun olaraq ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500-dən çox bal toplayaraq ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını qeyd edən GDU tələbələri "Gələcəyin müəllimi təqaüdü” almaq hüququ qazanmışdır.

### 3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

#### 3.9.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Təhsil proqramlarının monitorinqi GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş "Strateji Plan"ında öz əksini tapmışdır.

Bununla yanaşı GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı Siyasəti", "Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı" və "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" adlı sənədlərdə bu məsələ nəzərə alınmışdır.

Prosesə dair əldə edilən nəticələr Keyfiyyət Təminatı Mərkəzinin illik hesabatında öz əksini tapır.

#### 3.9.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət prosesi GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş "Strateji Plan"ında öz əksini tapmışdır.

Bununla yanaşı GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı Siyasəti", "Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı" və "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" adlı sənədlərlə tənzimlənir.

Prosesə dair əldə edilən nəticələr Keyfiyyət Təminatı Mərkəzinin illik hesabatında öz əksini tapır.

#### 3.9.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə tövhəsinin qiymətləndirilməsinin aparılması prosesi GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş "Strateji Plan"ında öz əksini tapmışdır.

Bununla yanaşı GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət Təminatı Siyasəti”, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” və “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” adlı sənədlərlə tənzimlənir.

Prosesə dair əldə edilən nəticələr Keyfiyyət Təminatı Mərkəzinin illik hesabatında öz əksini tapır.

**3.9.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti**

GDU-nun fakültələri tərəfindən təhsil proqramlarının illik özünüqiymətləndirilməsi aparılaraq nəticələrinə dair hesabatlar Keyfiyyət Təminatı Mərkəzinə təqdim edilir. Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları tərəfindən daxil olmuş hesabatlar təhlil olunduqdan sonra Keyfiyyət Təminatı Mərkəzinin illik hesabatında öz əksini tapır. Hesabat universitetin EŞ-nə təqdim edilir.

**3.9.5. Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti**

İxtisaslar üzrə təhsil proqramları ARETN-nin 28.08.2020-ci il tarixli F-386 saylı əmri ilə təsdiq edildiyinə görə universitet tərəfindən təhsil proqramlarına dəyişiklik edilməsinə icazə verilmir. Təhsil proqramlarının yalnız “Ali təhsil müsəssisəsi tərəfindən müəyyən edilən fənlər” bölümünə universitet tərəfindən seçmə fənlər daxil edilə bilər. Fakültələr tərəfindən bu bölməyə ilkin olaraq əmək bazarının və cəmiyyətin tələblərinə uyğun fənlər daxil edilir. Bölməyə daxil edilməsi təklif edilən fənlər hər tədris ilinin əvvəlində fakültələr üzrə fəaliyyət göstərən rektorluğun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə yaradılmış ”Monitorinq və Qiymətləndirmə Komissiyası”nın iclaslarında Maraqlı Tərəflərin iştirakı ilə müzakirə olunaraq yenilənir.

**3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi**

**3.10.1. Karyera mərkəzinin mövcudluğu vəziyyəti**

GDU-da tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi məqsədi ilə universitet EŞ-nin 18.04.2012-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 20.04.2012-ci il tarixli 5/73 saylı əmri əsasında “Təcrübə və karyera” şöbəsi (https://gdu.edu.az/təcrubə-və-karyera-sobəsi/) yaradılmışdır. Buna dair fəaliyyətlər GDU EŞ-nin 01.03.2023-cü il tarixli (pr.

№ 05) Qərarı və rektorluğun 16.03.2023-cü il tarixli 5/59 saylı əmri ilə təsdiq edilmiş "GDU-nun çoxpilləli təhsil sistemində tələbələrin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"sinə əsasən həyata keçirilir.

**3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti**

İxtisas proqramları üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi məqsədi ilə Təcrübə və Karyera şöbəsi tərəfindən 2019-2023-ci illəri əhatə edən MİQ-in nəticələri, məzunların şəxsiyyət vəsiqəsinin FİN kodları və zəruri əlaqə məlumatları əsasında baza yaradılmışdır. Pedaqoji ixtisasları bitirən məzunların əsas fəaliyyət sahəsi orta məktəblər olduğu üçün onlarla əlaqə yaratmaq məqsədi ilə Gəncə şəhəri və respublika ərazisində yerləşən orta ümumtəhsil müəssisələri ilə əlaqə saxlanılır. Bununla yanaşı MİQ imtahanlarında iştirak etmiş məzunlar haqqında məlumatlar əldə etmək üçün ARETN-ə müraciət edilir. Digər ixtisasları bitirən məzunlar barəsində məlumat almaq üçün DİM-ə müraciət olunur. DİM-dən alınmış məlumatlar təhlil olunaraq onların dövlət qulluğuna, dövlət və ya özəl sektora işə qəbuluna dair statistikası hazırlanır. Eyni zamanda onların çalışdığı dövlət və özəl sektorla əlaqə saxlanılır. Məzunların əmək bazarında iştirakının izlənilməsi üçün hər tədris ilinin sonunda təşkil olunan "Məzun Yarmarkası"na dəvət edilir.

**3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Məzunların təhsil proqramları çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramlarının keyfiyyət səviyyəsi üzrə məmnunluğunun ölçülməsi üçün Keyfiyyət Təminatı Mərkəzi tərəfindən rektorluğun 29.01.2024-cü il tarixli 5/32 saylı əmri əsasında 26.01.2024-cü il tarixdən 05.02.2024-cü il tarixədək "GDU-nun məzunlar tərəfindən qiymətləndirilməsi" adlı sorğu təşkil edilmişdir. Sorğunun nəticələri Keyfiyyət Təminatı Mərkəzi tərəfindən təhlil edilərək müzakirə üçün universitet EŞ-nə təqdim edilmişdir.

**3.10.4. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti**

Məzunların təhsil proqramları çərçivəsində əldə etdiyi səriştələrinin və təhsil proqramlarının keyfiyyət səviyyəsinin məmnunluğunun ölçülməsi məqsədilə GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş "Sorğu Siyasəti" əsasında əyani və onlayn formada sorğular keçirilmişdir. Sorğular əsasən məzun və işəgötürənlərlə aparılır, cavablar təhlil olunur, məzunların təhsil proqramları çərçivəsində əldə etdikləri

səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğu müəyyən edilərək müvafiq fakültə və kafedralara istiqamətlənir. Bunun əsasında da müvafiq işlər planlaşdırılaraq monitorinq aparılır.

### 3.10.5. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Universiteti müxtəlif illərdə bitirmiş məzunlar və onlara dərs demiş professor-müəllim heyəti ilə Təcrübə və karyera şöbəsinin təşkilatçılığı ilə görüş təşkil edilir. Universitetin məzunları ilə rəsmi sosial media hesabları vasitəsilə də əlaqə saxlayır. Bununla yanaşı hər tədris ilinin sonunda universitetdə təşkil edilən “Məzun günü” tədbirinə məzunlar dəvət edilir. Bu barədə məlumatlar universitet rəsmi internet səhifəsində öz əksini tapır.

Fəxri məzunlar haqqında məlumatlar toplanılaraq universitetin yubileyləri münasibəti ilə çap edilmiş kitablarda dərc edilmişdir. Eyni zamanda hər ilin məzunlarına dair “Məzun kitabçası” da çap olunmuşdur.

## 4. ELMİ TƏDQİQAT

### 4.1. Elmi-tədqiqat strategiyası

#### 4.1.1. GDU-nun elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Universitetin mövcud "Elmi Tədqiqat Siyasəti" adlı sənədi EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmişdir. Elmi-tədqiqat strategiyasına dair qeydlər "Elmi Tədqiqat Siyasəti" adlı sənəddə öz əksini tapmışdır.

#### 4.1.2. Elmi-tədqiqat strategiyasının GDU-nun missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

"Elmi Tədqiqat Siyasəti" adlı sənəd universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında universitetin missiyası "Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və innovativ xidmətlər göstərir" olaraq qeyd edilmişdir. Universitetin vizionu isə "Gəncə Dövlət Universiteti tədris və tədqiqat, innovasiya və dayanıqlı inkişaf sahələrində keyfiyyət göstəricilərinə görə beynəlxalq səviyyədə tanınan bir universitetə çevriləcək" olaraq qeyd edilmişdir. Məqsədlərdən biri isə "Elmi tədqiqatları inkişaf etdirmək" adlanır.

#### 4.1.3. GDU-nun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

GDU-nun elmi-tədqiqat fəaliyyətinin idarə olunması "Elmi-tədqiqat Siyasəti" əsasında həyata keçirilir. Sənəddə məqsədlər, prioritet tədqiqat sahələri (istiqamətlər) və təşviq mexazimləri əks olunmuşdur.

#### 4.1.4. Elmi-tədqiqat məqsədlərinin GDU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Azərbaycan Respublikasının Prezidentinin 14 iyun 2016-cı il tarixli 271-VQ saylı Qərarı ilə "Elm haqqında Azərbaycan Respublikasının Qanunu" təsdiq edilmişdir. Universitetin elmi-tədqiqat məqsədləri həmin sənəd əsasında icra olunur.

Bütün bu məqsədlər prioritet olaraq qəbul edilmiş və universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ı hazırlanan zaman nəzərə alınmışdır.

**4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti**

Universitetin “Elmi-tədqiqat Siyasəti” adlı sənədində, “Təlim və Tədris Siyasəti” və 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ında elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası nəzərə alınmışdır. Universitetin 2023-2028-ci illəri əhatə edən “Fəaliyyət Planı”nda da elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası nəzərə alınmışdır.

**4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti**

Universitetin “Elmi-tədqiqat Siyasəti” adlı sənəddə professor-müəllim heyətinin performansının nəzərə alınması xüsusi olaraq qeyd edilmişdir. Bu məsələ eyni zamanda “Təlim və Tədris Siyasəti”, 2023-2028-ci illəri əhatə edən “Strateji Plan” və “Fəaliyyət Planı” adlı sənəddə də öz əksini tapmışdır. Bundan əlavə GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Motivasiya və mükafatlandırma Siyasəti” və “Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün Əsasnamə” adlı sənədlərdə bu məsələ xüsusi olaraq qeyd edilmişdir.

Eyni zamanda rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə “Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar” müəyyən edilmişdir. Həmin qaydalar isə rektorluğun 13.04.2016-cı il tarixli 5/97 saylı əmri ilə təsdiq edilmişdir.

**4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti**

Professor-müəllim heyəti, tələbələr, yerli və xarici tərəfdaşların elmi-tədqiqat ilə bağlı bütün lazımi sənədlərə əlçatanlığın təmin edilməsi məqsədilə universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

**4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

GDU-nun “Elmi tədqiqat Siyasəti” tərtib edilən zaman GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Maraqlı Tərəflərin Xəritəsi (Stakeholder mapping)” adlı sənəd əsasında maraqli tərəflərin iştirakı təmin edilmişdir. Hazırlanmış

sənəd təsdiq edilməsi üçün EŞ-ya çıxarılaraq müzakirəsi təmin edilmişdir. “Elmi tədqiqat Siyasəti” sənədində ehtiyac yarandığı təqdirdə əlavə və düzəlişlərin edilə biləcəyinə dair qeyd öz əksini tapmışdır.

### 4.2. Tədqiqat resursları

#### 4.2.1. GDU-nun infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Gəncə Dövlət Universitetində elmi-tədqiqat işlərinin aparılması üçün iki ədəd elm-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Həmin elmi-tədiqat layihələrinin saxlanılması üçün universitet büdcəsindən illik müəyyən maliyyənin ayrılması təmin edilir.

2024-cü ildə yaradılması nəzərdə tutulmuş yeni laboratoriyaların layihəsi hazırlanmış, tələb olunan avadanlıq və inventarların siyahısı müəyyənləşdirilərək tədarük ediləcəyi firmalar tərəfindən təkliflər alınmışdır. 2024-cü ilin maliyyə planlaşdırması zamanı yeni elmi-tədqiqat laboratoriyalarının qurulması üçün əsaslı maliyyə ayrılmışdır.

Eyni zamanda elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsi üçün yerli və beynəlxalq qrantlara müraciət edilir. Həmin qrant layihələri əsasında elmi-tədqiqatların həyata keçirilməsinə əlavə maliyyənin cəlb edilməsi təmin edilir.

Bütün bu kimi məsələlər universitetin 2023-2028-ci illər üzrə təsdiq edilmiş “Strateji Planı”na uyğun olaraq həyata keçirilir. “Strateji Plan”da məqsədlər üzrə universitet büdcəsindən elmi-tədqiqat ilə bağlı fəaliyyətlərin həyata keçirilməsi üçün maliyyə resurslarının ayrılması nəzərdə tutulmuşdur. Mühasibatlıq şöbəsinin “Fəaliyyət Planı”nda da bu məsələ öz əksini tapmışdır.

#### 4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Universitetdə aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Elmlər doktoru | 14 | 15 | 15 | 14 | 15 | 16 | 17 | 19 | 19 |
| Fəlsəfə doktoru doktorant | 46 | 57 | 61 | 60 | 62 | 62 | 48 | 34 | 29 |
| Fəlsəfə doktoru dissertant | 68 | 81 | 100 | 111 | 110 | 108 | 89 | 70 | 44 |

### 4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Universitetdə gənc alimlərin təşkilatlanması, elmi fəaliyyətlərinin gücləndirilməsi məqsədilə rektorluğun 28.12.2022-ci il tarixli 5/472 saylı əmri ilə Nizami Gəncəvi adına "Gənc Alimlər Şurası" yaradılmışdır.

### 4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

GDU ARETN-nin yaratdığı Konsorsiumda yer alaraq müəyyən məbləğdə maliyyə ödəmək şərti ilə Clarivate Analitics şirkətinə məxsus olan "Web of Science" beynəlxalq elmi məlumat bazasından istifadə imkanı əldə etmişdir. Eyni zamanda Elsevier, Springer, Scopus kimi beynəlxalq elmi məlumat bazalarına çıxışı təmin etmək üçün yeni bir Konsorsiumun yaradılması işlərinə başlanılmışdır. Lazımi texniki və təşkilati proseslər yekunlaşdıqdan sonra bu bazalardan istifadə üçün əməkdaşlara şərait yaradılacaqdır.

Eyni zamanda universitetin professor-müəllim heyəti və gənc tədqiqatçıları "Google scholar" və s. kimi açıq beynəlxalq elmi məlumat bazalarından istifadə edirlər.

### 4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün GDU EŞ-nin 14.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun tarixli saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və mükafatlandırma Siyasəti" və "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün Əsasnamə" adlı sənədlər əsas götürülür.

Eyni zamanda rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar" müəyyən edilmişdir. Bu qaydalar isə rektorluğun 13.04.2016-cı il tarixli 5/97 saylı əmri ilə təsdiq edilmişdir. Əmrə əsasən hər təqvim ilinin sonunda elmi və metodik fəaliyyətə görə il ərzində ən yüksək bal toplayan 20 nəfərin (10 nəfər professor, 10 nəfər fəlsəfə doktoru və ya dərəciz müəllim) əmək haqqına 200 AZN miqdarında əlavələr edilir. Eyni zamanda "Web of Science" bazasına daxil olan jurnallarda çap olunmuş hər bir məqaləyə görə (h indeksindən asılı olaraq) 300-800 AZN, Elmlər doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün 800 AZN, Fəlsəfə doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün isə 500 AZN miqdarında pul mükafatının verilməsi nəzərdə tutulmuşdur.

### 4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

17 fevral 2017-ci il tarixdə universitetdə qeyri-üzvü sistemlərin fiziki-kimyəvi tədqiqi ilə bağlı yaradılmış “Kimyəvi materialşünaslıq” elmi-tədqiqat laboratoriyası AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə “Mis və gümüşün çoxkomponentli xalkogenidləri əsasında yeni superion keçiricilərinin və termoelektrik materiallarının alınması və tədqiqi” adlı layihə ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) elan etdiyi birinci “Elm-Təhsil İnteqrasiyası” adlı qrant müsabiqəsinə müraciət etmişdir. Layihənin həyata keçirilməsi üçün 2018-ci ilin 2-ci yarısından etibarən maliyyə ayrılmışdır. Layihədə rəhbər, həm rəhbər və icraçılar olmaqla ümumilikdə 6 nəfər fəaliyyət göstərmişdir. Layihənin icra müddəti 12 ay və ümumi büdcəsi 60 000 (altmış min) AZN təşkil etmişdir.

Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artırılması məqsədi ilə bir çox yerli və beynəlxalq elmi müəssisə və təşkilatlarla birlikdə layihələr hazırlanaraq donorlara təqdim edilmişdir.




### 4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Universitet olaraq elmi-tədqiqat sahəsində yerli və beynəlxalq elmi müəssisə və təşkilatlarla əməkdaşlıqların qurulması və inkişaf etdirilməsi daima diqqətdə saxlanılır. Belə ki, universitetin “Strateji Plan”, “Fəaliyyət Planı”, “Təlim və Tədris Siyasəti” və “Elmi-tədqiqat Siyasəti” kimi sənədlərində bu məsələ diqqət mərkəzində saxlanılmış və icrasına dair fəaliyyətlər qeyd edilmişdir.

Universitetin bir çox yerli və beynəlxalq elmi müəssisə və təşkilatlarla bağlanmış “İkitərəfli əməkdaşlıq müqavilələri” mövcuddur. Həmin müqavilələrdə elmi-tədqiqat sahəsində əməkdaşlığın qurulmasına və inkişafına xüsusi diqqət yetirilmişdir.

Eyni zamanda Bakı Biznes Universitetinin koordinatorluğu ilə həyata keçirilən Erasmus+ KA2 "ECAR - Azərbaycanda Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində tərəfdaş universitetlər arasında "İkitərəfli əməkdaşlıq müqaviləsi" imzalanmış və bir neçə Komitə yaradılmışdır. Həmin müqavilə əsasında elmi-tədqiqat sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədi ilə "Elmi işlər üzrə Komitə" yaradılmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) arasında imzalanmış Əməkdaşlıq Sazişi üzrə Müştərək Proqram çərçivəsində Azərbaycan və Türkiyənin universitetləri, tədqiqat mərkəzləri və elmi müəssisələrinin alimləri üçün 11 dekabr 2019-cu il tarixindən 6 mart 2020-ci il tarixinə qədər layihə müsabiqəsi elan edilmişdir. Bu müsabiqədə iştirak etmək üçün təqdim edilməli olan layihə təklifləri Türkiyə və Azərbaycandan olan tərəfdaş qruplar tərəfindən birlikdə ingilis dilində hazırlanmalı idi. Bu məqsədlə İnnovasiyalar departamentinin əməkdaşlarından ibarət işçi qrup tərəfindən Gəncə Dövlət Universiteti və Bingöl Universitetinin ortaq iştirakı ilə tələblərə uyğun formada "Production of Hive by using Different Herbal Wastes with Hydrophobic Additives and Effects on Honey Quality (Hidrofob qatqılarla fərqli bitki mənşəli tullantılardan istifadə edərək pətək istehsalı və bal keyfiyyətinə təsir)" layihəsi hazırlamış və təqdim edilmişdir. Layihə müsabiqənin final mərhələsinə seçilmişdir. Ancaq bu günə qədər təşkilatçılar tərəfindən qalib açıqlanmamışdır. Cavab olaraq prosesin müəyyən səbəbdən dayandığını, yaxın zamanda nəticələrin açıqlanacağını bildirmişlər.

### 4.3. Elmi-tədqiqat fəaliyyəti

#### 4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Universitetdə elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə Elm və innovasiyalar üzrə prorektorluq fəaliyyət göstərir. Elmi-tədqiqatın innovasiyalar ilə bağlı fəaliyyətlərini İnnovasiyalar departamenti və nəzdində fəaliyyət göstərən şöbələr icra edir. Universitet EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 25.06.2023-cü il tarixli 5/180 saylı əmri ilə Doktorantura şöbəsi yaradılmışdır. Yaxın zamanda "Elm şöbəsi"nin yaradılması düşünülür. Elm və innovasiyalar üzrə prorektorluğun universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"na uyğun olan "Fəaliyyət Planı" mövcuddur.

#### 4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Universitetdə təşkil edilmiş elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Respublika konfransı | 8 | 3 | 2 | 2 | | 7 | 5 | 2 |
| Beynəlxalq konfrans | 1 | 1 | 2 | 3 | 2 | 6 | 2 | 5 |
| Onlayn konfrans | | | | | 2 | 12 | 1 | |
| Seminar | 6 | 2 | 3 | 2 | 1 | 4 | 7 | 3 |
| Onlayn seminar | | | | | 1 | 3 | | 1 |
| Ustad dərsləri | | | | 1 | | 3 | 2 | 6 |

Yuxarıdakı cədvəldə qeyd edilmiş statistik məlumatlardan əlavə universitetin bütün fakültələrində də hesabatlılıq dövründə müxtəlif elmi-tədqiqat xarakterli konfranslar, seminarlar, görüşlər və s. tədbirlər həyata keçirilmişdir. Eyni zamanda fakültələrin professor-müəllim heyəti tərəfindən də həm universitetdə həm də digər təhsil müəssisələrində ustad dərsləri təşkil edilmişdir. Buna dair məlumatlar həm fakültələrin həm də universitetin rəsmi internet səhifələrində əks olunmuşdur.

2023-cü ildə “Heydər Əliyev İli” çərçivəsində “Milli ekoloji prioritetlər və qlobal iqtisadi təhdidlər: yeni çağırışlar, imkanlar və perspektivlər” mövzusunda Gəncə şəhərində təşkil edilmiş elmi-praktiki konfransın “Yaşıl enerji, yaşıl şəhərlər və yaşıl nəqliyyat” sessiyasında aparılmış müzakirələrin nəticəsi və Gəncə Dövlət Universitetinin (GDU) təklifi nəzərə alınaraq, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU), Mingəçevir Dövlət Universiteti (MDU) və Azərbaycan Texnologiya Universiteti (ATU) tərəfindən hər il Gəncə Yaşıl İqtisadiyyat Forumunun (GYİF) təşkil edilməsinə dair birgə təşəbbüs yaranmışdır. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ilk Forum Gəncə Dövlət Universiteti tərəfindən təşkil edilməsi və “Yaşıl inkişaf xəbərləri” bülleteninin nəşr edilməsi nəzərdə tutulur. 06.03.2024-cü il tarixində beş universitet tərəfindən Gəncə Yaşıl İqtisadiyyat Forumunun keçirilməsi barədə Anlaşma Memorandumunun imzalanması məqsədilə onlayn formatda görüş təşkil edilmişdir. https://gdu.edu.az/unec-gdu-adau-mdu-və-atu-arasinda-gəncə-yasil-iqtisadiyyat-forumunun-kecirilməsi-barədə-anlasma-memorandumu-imzalanib/

### 4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Universitetdə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Respublika konfransda iştirak edən | 130 | 170 | 74 | 190 | | 136 | 143 | 156 |
| Beynəlxalq konfransda iştirak edən | 1113 | 1202 | 1611 | 1343 | 708 | 730 | 1088 | 2338 |
| Onlayn konfransda iştirak edən | | | | | 186 | 565 | 60 | |
| Seminarda iştirak edən | 25 | 36 | 15 | 42 | 8 | 28 | 66 | 16 |
| Onlayn seminarda iştirak edən | | | | | 40 | 46 | | 43 |
| Ustad dərslərində iştirak edən | | | | | | 6 | 15 | 18 |

### 4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Universitetdə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Respublika konfransında | 221 | 220 | 226 | 231 | 100 | 182 | 210 | 237 |
| Beynəlxalq konfransda | 75 | 81 | 71 | 69 | 23 | 43 | 91 | 127 |
| Onlayn konfransda | | | | | 78 | 365 | 67 | |
| Seminarda | 346 | 142 | 112 | 87 | 56 | 147 | 234 | 108 |
| Onlayn seminarda | | | | | 23 | 93 | | 14 |
| Ustad dərslərində | | | | 16 | | 76 | 48 | 145 |

### 4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Universitet olaraq 2016-2023-cü illər aralığında Avropa Komissiyasının TEMPUS proqramı çərçivəsində "Beynəlxalq əlaqələr sahəsində universitet idarəçiliyinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi" (UNIVIA) və "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil

müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) layihələri həyata keçirilmişdir. Eyni zamanda Erasmus+ KA2 proqramı çərçivəsində "Tələbələr üçün Ombudsman xidmətinin yaradılması" (AESOP, 2016-2018), "Azərbaycanın ali təhsil müəssisələrində tədris və təlimin təkmilləşdirilməsi" (PETRA, 2017-2019), "Azərbaycan universitetlərində Keyfiyyətə Təminat Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" (EQAC, 2018-2021), "Mediasiya: təlimin və cəmiyyətin transformasiyası" (MEDIATS, 2019-2022), "Azərbaycan ali təhsilində sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE, 2023-2025), "Azərbaycan universitetlərində yaşıl və davamlı qlobal iqtisadi təkmilləşdirmə: bərpa olunan enerji mənbələrinin və iqlim dəyişikliyinin mitiqasiyası" (REFRESH, 2023-2025) və "Azərbaycanda institusional repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA, 2023-2025) layihələrində tərəfdaş olaraq iştirak edir.

Universitet olaraq Alman Akademik Mübadilə Xidmətinin (DAAD), İsveçin, Litvanın, Latviyanın, Polşanın, Macarıstanın təqaüd proqramları, Asiya İnkişaf Bankının, Türkiyənin TİKA, YTB, Yunus Emre İnstitutu, MEVLANA, TUBİTAK və s. kimi bir çox müxtəlif beynəlxalq qrant layihələrində də iştirak təmin edilmişdir.

Bundan başqa universitet olaraq Avropa Komissiyasının Erasmus+ KA1 mübadilə proqramları çərçivəsində bir çox əməkdaşlarımız müxtəlif Avropa universitetlərində olmuşlar. Proqram çərçivəsində bir çox xarici əməkdaş isə universitetimizdə elm və təhsil sahəsində prosesə cəlb edilmişdir.

### 4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Hesabatlılıq dövründə universitetin əldə etdiyi patentlərə (ixtira və faydalı model) dair məlumatlar bunlardır:

- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2020 0048, "Spektral Analizator", İddia sənədinin №-si a 2018 0022, Dövlət reyestrində qeyd olunma tarixi: 01.09.2020
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2020 0049, "Yarımkeçirici Fotorezistor", İddia sənədinin №-si a 2018 0048, Dövlət reyestrində qeyd olunma tarixi: 01.09.2020
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2023 0002, "Fotorezistor", İddia sənədinin № a 2021 0065, Dövlət reyestrində qeyd olunma tarixi: 14.06.2021

- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, Faydalı Model F2022 0001, “Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu”, İddia sənədinin № u 2020 0024, Dövlət reyestrində qeyd olunma tarixi: 28.01.2022
- Eurasian Patent Organization, Eurasian Patent Office, Patent, Faydalı Model, “Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu”, İddia sənədinin № 202391011, Dövlət reyestrində qeyd olunma tarixi: 27.10.2023

Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti aşağıdakı infoqrafikda öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Patent, ixtira | | | | | 2 | 1 | | |
| Patent, Faydalı model | | | | | | | 1 | 1 |
| Kommersiyalaşdırılıb | | | | | | | 1 | 1 |

“Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu” adlı Patent (Faydalı Model) “Anti-Varroa” adlı startap layihəsi əsasında hazırlanmış qurğudur. “Anti-Varroa” layihəsi ilk dəfə İnnovasiyalar Departamentinin təşkilatçılığı ilə keçirilən “Yeni Bir Fikrim Var” təşəbbüskarlıq müsabiqəsinin qalibi olub. Layihə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Aqrar Elm və İnnovasiya Mərkəzinin, “Startap Azərbaycan” və “İNNOLAND” Akselerasiya Mərkəzi tərəfindən həyata keçirilən “AgroX” startap müsabiqəsində 1-ci yerə layiq görülərək 6 min manat pul mükafatı qazanıb. 2021-ci ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) elm və dəstək sahələri üzrə layihələrin maliyyələşdirilməsi məqsədilə keçirdiyi müsabiqədə qalib olaraq 17300 manat məbləğində maliyyə dəstəyi qazanıb. İnnovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən “Startap” şəhadətnaməsi verilib. “Anti-Varroa” layihəsi XXV “Arximed” Beynəlxalq ixtiralar və innovasiya texnologiyaları sərgisində iştirak edən layihələr arasında beynəlxalq ekspert və münsiflər heyətinin iştirakı ilə keçirilən müsabiqə proqramında qalib gələrək, qızıl medal və fəxri fərmanla təltif olunub (https://azertag.az/xeber/GDU_innovasiya_texnologiyalari_sahesinde_novbeti_nailiyyet_qazanib-2080319). Layihə Belqradda təşkil olunan “Belgrade Association of İnvertors – Nikola Tesla - 2022” və Rusiya Federativ Respublikasında 2022-ci ildə təşkil edilmiş

Biotexnologiyalar üzrə beynəlxalq müsabiqələrdə qızıl medala layiq görülmüşdür. Eyni zamanda həmin layihə ilə komandanın gənc üzvü 25 yaşa qədər gənclər arasında "Взгляд в будущее - Москва – 2022" beynəlxalq müsabiqənin qızıl medalı ilə təltif olunub.

Layihə əsasında hazırlanmış qurğudan bu günə qədər 3 ədəd sifariş alınmış və hazırlanaraq təhvil verilmişdir. Hazırda qurğu ilə beynəlxalq bir təşkilat maraqlanır. Beynəlxalq təşkilat tərəfindən qurğunun müxtəlif bölgələrdə sənağı təşkil edilib, təsərrüfat sahiblərinin fikir və rəyləri toplanılır. Nəticə yaxşı olduğu halda beynəlxalq təşkilat tərəfindən böyük sayda sifarişin verilməsi planlaşdırılır.

**4.3.7. İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq GDU-nun nəzdində Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi təsis edilmişdir (https://csscr.gdu.edu.az/csscr). Mərkəzin əsas məqsədlərindən biri dövlət, özəl sektor, universitetlər, qeyri-hökumət təşkilatları və xarici qurumlar arasında tərəfdaşlığı təşviq etmək və birgə tədqiqatlar aparmaqdır. Hal hazırda mərkəzin yerli kordinatorun olduğu Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "Yaşıl şəhərlər" proqramı çərçivəsində İngiltərənin Atkins şirkəti və Mərkəzin birgə elmi-tədqiqat fəaliyyəti ilə Gəncə şəhərinin "Yaşıl Şəhər Fəaliyyət Planı" hazırlanır. AYİB-in "Yaşıl şəhərlər" proqramı çərçivəsində icra olunacaq layihələr Gəncə şəhərinə ən aktual ekoloji problemləri, iqlim dəyişikliyi risklərini müəyyən etmək və prioritetləşdirməkdə kömək edəcək.

Ümumi pedaqogika kafedrası Moskva Dövlət Mədəniyyət İnstitutu ilə birgə "Pedaqogika və psixologiyanın aktual problemləri" adlı beynəlxalq elmi metodiki konfrans təşkil edir.

15.11.2023-cü il tarixdə GDU və Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə "6-cı Piri rəis adına Beynəlxalq dil, Tarix, Coğrafiya" və "İSPEC 4-cü Beynəlxalq elmi araşdırmalar" mövzusunda beynəlxalq konfrans keçirilib.

Erasmus+ KA2 ECAR layihəsi çərçivəsində tərəfdaş universitetlər arasında ikili əməkdaşlığa dair müqavilə imzalanmışdır. Eyni zamanda layihə çərçivəsində müxtəlif istiqamətlər üzrə Komitələr yaradılmışdır. Həmin Komitələrə hər il tərəfdaş universitetlər

arasından sədr seçilir və illik fəaliyyəti müəyyən edilir. Həmin fəaliyyət planına uyğun olaraq mütəmadi görüşlər təşkil edilərək hesabatlılıq təmin edilir.

### 4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Universitetin bütün kafedraları problem mövzularına uyğun olaraq ölkənin bir çox elmi müəssisələri və təşkilatları ilə tədqiqat sahəsində əməkdaşlıq edərək birgə tədqiqat proqramları həyata keçirir. Misal olaraq "Kimyəvi materialşünaslıq" elmi-tədqiqat laboratoriyası AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə "Mis və gümüşün çoxkomponentli xalkogenidləri əsasında yeni superion keçiricilərinin və termoelektrik materiallarının alınması və tədqiqi" adlı birgə tədqiqat layihəsini göstərmək olar.

Avropa Komissiyasının Erasmus + proqramı çərçivəsində olan layihələr vasitəsi ilə müxtəlif birgə tədqiqatlar aparılmışdır. 2016-2023-cü illər ərzində mövcud olan layihələr çərçivəsində (2 TEMPUS və 7 ERASMUS+) GDU əməkdaşları yerli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq vasitəsi ilə tədqiqatlar aparmış və elmi məqalələr yazmışdır. PETRA layihəsi çərçivəsində "Azərbaycan universitetlərində tədrisdə mükəmməllik: konseptuallaşdırma", ENGAGE layihəsi çərçivəsində "Azərbaycan ali təhsil məkanında sahibkarlıq ekosistemin araşdırılması", REFRESH layhihəsi çərçivəsində "Azərbaycan universitetlərində bərpa olunan enerinin vəziyyəti" mövzularında birgə tədqiqatlar aparılmışdır.

### 4.3.9. Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Universitetin professor-müəllim heyəti və tədqiqatçıları "Web of Science", "ORCID", "Researchgate", "Academia" və s. kimi beynəlxlaq elmi-tədqiqat şəbəkələrində aktiv olaraq iştirak edir. Eyni zamanda Azərbaycan Təhsil Şəbəkəsinə qoşularaq şəbəkənin resursları üzərindən GEANT beynəlxalq akademik şəbəkəsinə çıxış əldə edə və bu şəbəkənin elmi araşdırma potensialından yararlana bilərlər.

### 4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Universitetin "Elmi-tədqiqat Siyasəti" adlı sənədində, "Təlim və Tədris Siyasəti" və 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi nəzərə alınmışdır. Universitetin 2023-2028-ci illəri əhatə edən "Fəaliyyət Planı"nda da elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi nəzərə alınmışdır.

### 4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Universitetdə elmi-tədqiqat materiallarinin dərc edilməsi üçün hər il bir neçə cilddə “Elmi Xəbərlər” nəşr olunur. “Elmi Xəbərlər”in hamı üçün əlçatanlığını təmin etmək üçün universitetin rəsmi internet səhifəsində yerləşdirilir.

Elmi-tədqiqat materiallarının dərc edilməsinə dair məlumatlar aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| "Elmi xəbərlər" | 3 | 3 | 4 | 4 | 2 | 4 | 3 | 4 |
| "Tələbə və magistrantların elmi konfransının materialları" | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |

2024-cü ilin yeni başlandığını nəzərə alaraq heç bir elmi-tədqiqat materialının dərc edilmədiyi üçün infoqrafikdə cari ilə aid heç bir say  göstərilməmişdir.

Universitetin “Elmi xəbərlər” jurnalının dövri nəşri ilə bağlı çap “ISSN” və elektron beynəlxalq standart seriya nömrəsi “e-ISSN” alınması üçün xidmətlərin göstərilməsi barədə 15.09.2023-cü il tarixdə “Xidməti müqavilə” imzalanmışdır. Eyni zamanda “Elmi xəbərlər” jurnalının rəqəmsal obyekt identifikator (Digital Object Identifier-DOI) prefikn nömrəsinin təminatı üçün xidmətlərin göstərilməsi barədə 02.10.2023-cü il tarixdə “Xidməti müqavilə” imzalanmışdır.

Universitetin “Elmi xəbərlər” jurnalının “Pedaqogika”, “Tarix” və “Filologiya” bölmələri AAK-ın “Azərbaycan Respublikasında məqalələrin dərc olunmasi tövsiyə edilən dövri elmi nəşrlər” siyahısına daxildir.

### 4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Universitetin tədqiqatçıları tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası aşağıdakı infoqrafikdə əks olunmuşdur:




### 4.3.13. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Tədris planında magistrtaura səviyyəsində 23 fərqli adda tədqiqat yönümlü fənnlər tədris olunur. Buraya “Tədqiqat üsulları”, “Genetikanın tədqiqat metodları”, “Botanikanın tədqiqat üsulları”, “Marketinq tədqiqatları və marketinq informasiya sistemləri”, “Zoologiyanın tədqiqat üsulları”, “Kimyanın tədrisi prosesində nəzəri və eksperimental tədqiqatların təşkili”, “Elmi-tədqiqat işinin metodika və metodologiyası”, “Müasir fiziki tədqiqat üsulları”, “Üzvi kimyada fiziki tədqiqat üsulları”, “Gənclərlə sosial işdə tədqiqat metodları”, “Sosial işdə tədqiqat metodları”, “Elmi tədqiqatın təşkili və qiymətləndirilməsi” və s. kimi tədqiqat yönümlü fənlər daxildir.

### 4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif illərdə aşağıdakı mövzularda təlimlər təşkil olunmuşdur:

- Azərbaycanlı tədqiqatçılara Avropada olan tədqiqatlarda iştirak etmək üçün yaradılan imkanlar
- Beynəlxalq jurnallarda məqalə dərc etmək üçün əsas tələblər
- Yeni qəbul olunmuş doktorant tələbələr üçün fəaliyyət planı. Dissertasiyanın tamamlanması üçün tələblər.
- İnkişaf etməkdə olan tədqiqat sahələri və xaricdə tədqiqatın edilməsi
- Tədqiqat və İnnovasiya. İnnovasiya növləri
- Tədqiqatları biznes imkanlarına çevirmək. Startaplar.
- Startaplar üçün biznes modeli və minimal işlək məhsul

- Tədqiqat və Startupların maliyyələşməsi

### 4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi məsələsi universitetin mövcud “Elmi Tədqiqat Siyasəti” adlı sənədində öz əksini tapmışdır.

Rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə “Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar” müəyyən edilmişdir. Həmin qaydalar rektorluğun 13.04.2016-cı il tarixli 5/97 saylı əmri ilə təsdiq edilmişdir. Əmrə əsasən elmlər doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün 800 AZN, fəlsəfə doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün isə 500 AZN miqdarında pul mükafatının verilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olan akademik heyətin elmi-tədqiqata olan marağını artırmaq məqsədilə rektorluğun 02.05.2023-cü il tarixli 5/118 saylı əmrinə əsasən yaşı 70-dən yuxarı olan və heç bir elmi dərəcəsi olmayan müəllimlərlə bağlanılmış əmək müqaviləsinə həmin tədris ilinin sonunda xitam verilmişdir.

### 4.3.16. Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Təhsilin hər iki səviyyəsində təhsil proqramları üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayı aşağıdakı infoqrafikdə əks olunmuşdur:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Elmlər doktoru, professor | 11 | 11 | 11 | 11 | 11 | 11 | 10 | 11 |
| Elmlər doktoru, dosent | 3 | 4 | 3 | 3 | 4 | 5 | 6 | 7 |
| Elmlər doktoru, müəllim | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Fəlsəfə doktoru, Professor | 2 | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |

**4.3.17. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

Təhsilin hər iki səviyyəsində təhsil proqramları üzrə tədris prosesində iştirak edən elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi dinamikası aşağıdakı infoqrafikdə əks olunmuşdur:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Elmi dərəcəsi olan tədqiqatçılar | 202 | 224 | 228 | 225 | 219 | 225 | 225 | 236 |
| Akademik heyət | 559 | 545 | 560 | 576 | 589 | 586 | 580 | 584 |
| Nisbət | 36,1 | 41,1 | 40,7 | 39,1 | 37,2 | 38,4 | 38,8 | 40,4 |

**4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının GDU-nun elmi tədqiqat hədəflərinə uyğunluğu təmin edilir. Universitetin 2016-2020-ci və 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ı təsdiq edildikdən sonra bu məsələyə diqqət daha çox artırılmışdır. Son illərdə elmi dərəcə alan akademik heyətin böyük əksəriyyətinin kvalifikasiyası universitetin elmi-tədqiqat hədəflərinə tam uyğundur.

İnnovasiyalar departamentinin nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi adına dayanıqlı ağıllı şəhərlər və regionlar mərkəzi də bu məsələnin daima diqqətdə saxlanılmasını təmin edir.

**4.3.19. Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Universitetin elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi prosesi GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" və "Keyfiyyət Təminatı Sisteminin Tətbiqi, Monitorinqi və Qiymətləndirilməsi Təlimatı" adlı sənədləri əsasında tənzimlənir. Elm və innovasiyalar üzrə prorektor bu sənədlər əsasında illik hesabat hazırlayaraq universitet EŞ-də məlumat xarakterli məruzə edir. Eyni zamanda illik hesabat ARETN-ə aidiyəti üzrə təqdim edilir.

**4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Universitetdə doktorantura dissertasiyasının hazırlanması prosesi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş (07 may 2021-ci il, 09 dekabr 2022-ci il tarixli qərarı ilə əlavə və dəyişiliklər edilmişdir) “Dissertasiyanın tərtibi qaydası”na uyğun təşkil edilir. Dissertasiya işini tamamlayaraq müdafiəyə hazırlaşan namizədlərin ilkin müdafiəsi universitetin ixtisas kafedralarında həyata keçirilir. Universitetdə “Müdafiə Şuraları”nın olmamasına görə müdafiəyə hazırlaşan namizədlər digər təşkilatlarda fəaliyyət göstərən “Müdafiə Şuraları”nda öz dissertasiya işlərini müdafiə edir.

**4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti**

**4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**

GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə “Antiplagiat və akademik dürüstlük siyasəti” təsdiq edilmişdir. Eyni zamanda 2023-2028-ci illəri əhatə edən “Strateji Plan” sənədində bu meyarla bağlı olaraq “2.4.3. Plaqiarizmlə sistemli mübarizəyə imkan verən əlçatan proqram təminatını təkmilləşdirmək və anti-plagiat proqramından istifadə olunmaqla plaqiata qarşı mübarizə aparmaq” adlı fəaliyyət qeyd edilmişdir.

**4.4.2. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**

Elmi-tədqiqat ilə bağlı prosesdə köçürmə hallarının qarşısının alınması məqsədi ilə GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Antiplagiat və akademik dürüstlük Siyasəti” əsasında professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris vəsaitləri, elmi-tədqiqat işləri “Plagiat.pl” şirkətinə məxsus anti-plaqiat proqramı vasitəsilə yoxlanılır. Buraxılış və dissertasiya işləri 2020/2021, 2021/2022-ci tədris illəri pandemiya dövrünə təsadüf etdiyi üçün antiplagiat sistemi ilə yoxlanılmayıb. ARETN-nin müvafiq əmrləri ilə təsdiq edilmiş təhsil proqramlarında buraxılış işləri nəzərdə tutulmadığına görə cari tədris ilində də antiplagiat sistemi tətbiq edilməyib. Magistr dissertasiyalarının 2023/2024-cü tədris ilindən antiplagiat sistemi ilə yoxlanıması planlaşdırılıb.

Universitetdə tədris prosesində köçürmə hallarının qarşısının alınması ilə bağlı effektiv alətlər mövcuddur. Belə ki, hər semestrin sonunda biliyin qiymətləndirilməsi üçün

təşkil edilmiş imtahanlarda köçürmə hallarının qarşısının alınması ilə bağlı imtahan otaqlarında xüsusi kameralar quraşdırılmış və kameralara nəzarət otağı yaradılmışdır. Nəzarət otaqlarından imtahan prosesi daima izlənilir, hər hansı bir köçürmə halı aşkar edilərsə, tələbənin nəticəsi akt tərtib edilərək ləvğ edilir və tələbə imtahan otağından çıxarılır. Qeyd edək ki, bu tip kameralar tədris təşkil edilən bütün otaqlarda quraşdırılmış və hər fakültədə kameralara nəzarət üçün şərait yaradılmışdır. Bunun vasitəsilə tədrisin daha səmərəli təşkili üçün əlavə imkanlar yaradılmış olur.

Universitetdə tədris prosesində köçürmə hallarının qarşısının alınması ilə bağlı təsdiq olunmuş yazılı prosedurlar da mövcuddur. Belə ki, hər semestrin əvvəlində rektorluğun müvafiq əmri ilə təsdiq edilmiş "imtahanların təşkilinə dair qaydalar"da köçürmə hallarının qarşısının alınması ilə bağlı xüsusi qeydlər yer alır. Həmin sənəd tələbələrin əlçatanlığını təmin etmək üçün universitetin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı digər sosial şəbəkələr, qruplar vasitəsilə də yayılması təmin edilir. Eyni zamanda hər imtahan sessiyasının əvvəlində imtahanlara nəzarət və köçürmə hallarının qarşısının alınması məqsədilə rektorluğun müvafiq əmri ilə "otaq nəzarətçiləri" və "ümumi nəzarətçilər" təyin edilir.

### 4.4.3. GDU-nun antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Universitetdə anti plagiat proqramı 2015-ci ildən fəaliyyət göstərir. Tədris vəsaitlərinin plagiat hallarının qarşısının alınması sahəsində rektorluq tərəfindən təsdiq edilmiş "Tədris vəsaitlərində plagiat hallarının qarşısının alınması sahəsində tədbirlər planı"nı əsas götürərək universitet tərəfindən antiplagiat sisteminin istifadəsinə başlanılması ilə əlaqədar rektorluğun 30.12.2016-cı il tarixli 5/381 saylı əmri ilə "Antiplagiat Komissiyası" yaradılmışdır.

Sonuncu dəfə "Plagiat.pl" şirkətinə məxsus anti-plaqiat proqramından istifadə üçün 26.05.2023-cü il tarixində 010/23 saylı müqavilə bağlanılmışdır. Professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris vəsaitləri, elmi-tədqiqat işləri həmin müqavilə əsasında "Plagiat.pl" şirkətinə məxsus anti-plaqiat proqramı vasitəsilə yoxlanılır. Buraxılış və dissertasiya işləri 2020/2021, 2021/2022-ci tədris illəri pandemiya dövrünə təsadüf etdiyi üçün antiplagiat sistemi ilə yoxlanılmayıb. ARETN-nin müvafiq əmrləri ilə təsdiq edilmiş təhsil proqramlarında buraxılış işləri nəzərdə tutulmadığına görə cari tədris ilində də antiplagiat sistemi tətbiq edilməyib. Magistr dissertasiyalarının 2023/2024-cü tədris ilindən antiplagiat sistemi ilə yoxlanıması planlaşdırılıb.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1. İdarəetmə orqanları

#### 5.1.1. GDU-da ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti

ARETN-nin 10.10.1997-ci il tarixli 792 saylı əmri ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin Elmi Şuraları haqqında Əsasnamə"sinə uyğun olaraq universitetin ali idarəetmə orqanı Elmi Şura hesab edilir. Həmin Əsasnaməyə əsasən EŞ-in yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası müəyyən olunur. GDU-nun Elmi Şurasının tərkibi ARTN-nin 04.07.2022-ci il tarixli F-416 saylı əmri və rektorluğun 05.07.2022-ci il tarixli 5/237 saylı əmri ilə üç il müddətinə (04.07.2025-ci il tarixinə qədər) təsdiq edilmişdir. ARETN-nin 20.11.2023-cü il tarixli 3-29/3-2-665F/2023 saylı əmri və rektorluğun 21.11.2023-cü il tarixli 5/349 saylı əmri və ARETN-nin 22.12.2024-cü il tarixli 3-29/3-2-81F/2024 saylı əmri və rektorluğun 23.02.2024-cü il tarixli 5/64 saylı əmri ilə EŞ-in tərkibində dəyişiklik olmuşdur.

EŞ-in 09.01.2014-cü il tarixli (pr. № 01) Qərarı və rektorluğun 17.01.2014-cü il tarixli 5/15 saylı əmri ilə "GDU-nun fakültələri haqqında", "GDU-nun kafedraları haqqında" və "GDU-nun tədris şöbəsi haqqında" Əsasnamələri təsdiq edilmişdir.

GDU rektorunun 13.04.2022-ci tarixli 5/109 saylı əmri ilə sonuncu yaradılmış Tədris-Metodiki Şura (TMŞ) tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi-metodiki təminatını yüksəltməyə xidmət edən istiqamətverici-məsləhət orqanıdır. Onun tərkibinə kadr hazırlığı həyata keçirən ixtisasların aparıcı mütəxəssisləri, bəzi kafedra müdirləri, elmi-metodiki strukturların rəhbərləri, müəyyən pedaqoji və elmi-metodiki iş təcrübəsinə malik olan yüksəkixtisaslı müəllim və mütəxəssislər daxildir. TMŞ-ya Botanika kafedrasının müdiri rəhbərlik edir. TMŞ öz işini əsasnaməsi və illik iş planı (sonuncu: 06.06.2023-cü il tarixdə 5/155 saylı əmr ilə təsdiq edilib) əsasında təşkil edir. TMŞ-nın 27 üzvündən 3-ü elmlər doktoru, professor, qalanları isə fəlsəfə doktoru, dosentdir.

Eyni zamanda bütün fakültələrdə də müvafiq olaraq EŞ və TMŞ fəaliyyət göstərir. Universitetdə idarəetmə işinin müasir tələblərə uyğun səviyyədə qurulması və şəffaflığın artırılması məqsədilə, həmçinin kadr islahatları ilə əlaqədar rektorluğun 16.11.2023-cü il tarixli 5/330 saylı əmri ilə yeni tərkibdə "İdarəedici Şura" və universitetdə tədris, tərbiyə və əmək intizamını möhkəmləndirmək məqsədilə rektorluğun 25.04.2022-ci il tarixli 5/142 saylı əmri ilə "Əmək İntizamı ilə əlaqədar Daimi Komissiyası", yaradılmışdır. Həmçinin

ARETN-nin 16.05.2024-cü il tarixli 600 saylı əmrinə əsasən universitetdə professor-müəllim heyəti arasında və tələbələrlə etik davranış qaydaları ilə bağlı meydana çıxan problemləri araşdıraraq müvafiq qərar qəbul etmək məqsədilə rektorluğun 22.10.2018-ci il tarixli 5/205 saylı əmri ilə yeni tərkibdə "Etika Komissiyası" yaradılmışdır. Yeni işə qəbul edilən gənc müəllimlərin peşəkarlığının yoxlanılması məqsədilə hər tədris ilinin əvvəlində açıq dərslərin təşkil edilməsi üçün "Müsabiqə Komissiyası" (12.09.2023-cü il tarixli 5/224 saylı əmr ilə təsdiq edilmiş qaydalar əsasında), tədris prosesində, o cümlədən hər imtahan sessiyasının əvvəlində universitetdən kənar ictimai nəzarəti həyata keçirən "İctimai Nəzarət Şurası" (sonuncu: rektorluğun 21.11.2023-cü il tarixli 5/347 saylı əmr), hər ilin əvvəlində satınalmalarla bağlı tender və katirovka məsələlərini müzakirə edən "Tender Komissiyası" (sonuncu: 11.03.2024-cü il tarixli 5/82 saylı əmr) və s. bu kimi ictimai qurumlar fəaliyyət göstərir.

Universitetdə çalışan tədris-köməkçi və inzibati işçilərin rektorluğun 19.04.2022-ci il tarixli 5/124 saylı əmri ilə növbəti attestasiyadan keçirilməsi ilə əlaqədar 04.05.2022-ci il tarixli 5/155 saylı əmr ilə "Attestasiya Komissiyası" və həmin tarixli 5/153 saylı əmr ilə komissiyanın nəzdində "İşçi qrup" yaradılmışdır. EŞ-in 26.05.2022-ci il tarixli (pr. № 13) Qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/185 saylı əmri ilə "Attestasiya Qaydaları" təsdiq edilmişdir. EŞ-in 14.11.2022-ci il tarixli (pr. № 02) Qərarı və rektorluğun 18.11.2022-ci il tarixli 5/372 saylı əmri ilə "Bilik və Bacarıqların Qiymətləndirilməsi Meyarları" və bu məqsədlə hazırlanmış formalar təsdiq edilmişdir.

Bütün bu qurumlar rektorun əmri ilə təsis edilmiş, kollegial fəaliyyət göstərən, iclasları protokollaşdırılan, qərarları rektor və EŞ üçün tövsiyə xarakteri daşıyan qurumlardır. Bütün qurumların qərarları maraqlı tərəflərə göndərilir.

**5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

Hazırda qüvvədə olan EŞ-in tərkibi tutduğu vəzifəyə görə 23, gizli səsvermə yolu ilə 17 və rektorun təqdimatı ilə 3 nəfər olmaqla, cəmi 43 nəfərdən ibarətdir. EŞ-in sədri universitetin rektoru, sədr müavini isə Tədris məsələləri üzrə prorektordur. Qaydalara görə tərkibdə universitetin müvafiq struktur rəhbərləri və professor-müəllim heyətinin təmsilçiləri ilə yanaşı, ictimai təşkilatların (Həmkarlar İttifaqları Komitəsinin, Tələbə Həmkarlar İttifaqı Komitəsinin, Tələbə-Gənclər Təşkilatının, Tələbə Elmi Cəmiyyətinin rəhbərləri) təmsilçiləri də yer almaqdadır.

**5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

Universitet EŞ-sı tədris ilinin hər semestri üzrə təsdiq edilmiş "İş Planı" əsasında ayda bir dəfə iclaslarını keçirir və müvafiq qərarlar verir.

**5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

Universitet EŞ-sı öz işini əsasnaməsi əsasında qurur və onun qərarları rektorun əmri ilə icraya yönəldilir. Spesfik məsələlər öncə Tədris-Metodiki Şurada və GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 29.12.2023-cü il tarixli 5/438 saylı əmri ilə təsdiq edilmiş Təhsil və Elm Komissiyasında, Sosial-İqtisadi Komissiyada, Maliyyə-Təsərrüfat Komissiyasında və Nizam-İntizam Komissiyasında kollegial qaydada müzakirə edilərək EŞ-ya çıxarılır. TMŞ, EŞ nəzdində fəaliyyət göstərən komissiyalar zərurət olduqda toplanır, qərarları kollegial qəbul edir və protokollaşdırılır. EŞ-nin bütün iclas sənədləri müvafiq olaraq Elmi katiblikdə, Şura və Komissiya katibliklərində saxlanılır.

**5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu gözlənilir. İdarəetmə orqanları tərəfindən keçirilmiş iclara dair gündəliyin və digər məlumatların universitetin rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında paylaşılması təmin edilir.

**5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

Universitet EŞ-i üzvləri arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın təşkil edilməsi məqsədi ilə Whatsapp şəbəkəsində yaradılmış "Elmi Şura" adlı qrupdan, "Eduman" platformasından, Microsoft Teams platformasında yaradılmış "Elmi Şura" qrupundan, universitetin rəsmi korporativ e-mail ünvanlarından istifadə edilir.

**5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü GDU Nizamnaməsi, daxili əsasnamələr, struktur sxemi və iş öhdəlikləri ilə müəyyən olunub. Onların fəaliyyəti,

gündəliyin təsdiqi, qərarların verilməsi reqlamenti və s., məsələlər daxili əsasnamələr ilə müəyyən edilmişdir.

**5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Universitetdə idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi məqsədi ilə EŞ-in 06.03.2017-ci il tarixli (pr. № 02) Qərarı və rektorluğun 09.03.2017-ci il tarixli 5/55 saylı əmri ilə “Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsi” yaradılmış və onun Əsasnaməsi təsdiq edilmişdir. İdarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatlar müvafiq strukturlar tərəfindən hazırlanaraq aidiyəti üzrə təqdim edilir. Hesabatlar təhlil edilərək aidiyəti üzrə EŞ-da müzakirə olunur.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Kafedralarda baş müəllim, dosent və professor vəzifələrini tutmaq üçün müraciət edən professor-müəllim heyətinin sənədlərinin rektorluğun 04.10.2017-ci il tarixli 5/216 saylı əmrinin tələblərinə uyğun araşdırılması üçün rektorluğun 18.02.2022-ci il tarixli 5/61 saylı əmri ilə komissiya yaradılmışdır.

Kafedralarda boş olan baş müəllim və dosent vəzifələrini tutmaq üçün ilk dəfə müsabiqədə iştirak etmək istəyən iddiaçıların açıq dərslərinin təşkili üçün rektorluğun 30.03.2022-ci il tarixli 5/96 saylı əmri ilə İşçi Qrup yaradılmışdır.

Universitetdə idarəetmə orqanları öz fəaliyyətlərini GDU-nun Nizamnaməsi və öz əsasnamələri əsasında qururlar. İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar müvafiq şura iclaslarında müzakirə edilərək qəbul olunur, protokollaşdırılır və hesabatlar aidiyyəti üzrə təqdim olunur.

**5.2. İnsan resurslarının idarə edilməsi**

**5.2.1. GDU-da işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

İxtisas üzrə mütəxəssis hazırlığına cəlb edilmiş akademik və inzibati heyətlə əmək müqavilələrinin bağlanılması və xitam verilməsi mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin tələblərinə, ARETN-nin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı

Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na, 07 avqust 1996-cı il tarixli 401 saylı əmrinə 1 saylı Əlavə ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"sinə, GDU EŞ-nin 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı ilə təsdiq edilmiş "İşə Qəbul Siyasəti" ilə "Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları"na və GDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

"İşə Qəbul Siyasəti" və "Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları"na uyğun olaraq hər tədris ilinin əvvəlində yeni işə qəbul edilən akademik heyətin bilik və bacarıqları Maraqlı Tərəflərin iştirak etdiyi rektorun əmrləri ilə yaradılmış Komissiyalar tərəfindən (sonuncu əmr: 01.09.2023-cü il tarixli 5/219) açıq dərs formasında dinlənilərək rektorluğun 12.09.2023-cü il tarixli 5/224 saylı əmri ilə təsdiq edilmiş qaydalar əsasında qiymətləndirilir.

İşə qəbul prosesinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün "İşə Qəbul Siyasəti" və "Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları" universitetin internet səhifəsində yerləşdirilmişdir. "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na və "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq ictimaiyyət üçün əlçatanlığını təmin edilməsi üçün vakant vəzifələr barədə KİV-də elan verilir.

**5.2.2. GDU-nun akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

GDU-nun akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğunluğuna dair proqnoz cədvəlləri hazırlanmışdır. 2023-2028-ci illəri əhatə edən "Strateji Plan" əsasında hazırlanmış "Fəaliyyət Planı"nda (2023-2028) fəaliyyətlərə cavabdehlik və icra müddəti göstərilmişdir.

Muhasibatlıq şöbəsi tərəfindən "Strateji Plan" əsasında maliyyə resurslarının planlaşdırılması ARETN-nin müvafiq qaydaları əsasında illik olaraq nəzərdə tutulur. Mühasibatlıq şöbəsi tərəfindən illik planlaşdırmaya dair sənəd bütün rəy və təkliflər nəzərə alınaraq hazırlanıb rektor tərəfindən təsdiq edildikdən sonra razılaşdırılması üçün ARETN-ə göndərilir.

GDU-da akademik heyətlə inzibati heyətin nisbəti 3:1 səviyyəsini ödəyir.

| Tədris illəri | Akademik heyət | İnzibati heyət | Say Nisbəti |
|---|---|---|---|
| 2016/2017 | 599 | 148 | 4,0 |
| 2017/2018 | 592 | 149 | 4,0 |
| 2018/2019 | 607 | 156 | 3,9 |
| 2019/2020 | 625 | 149 | 4,2 |
| 2020/2021 | 621 | 142 | 4,4 |
| 2021/2022 | 619 | 140 | 4,4 |
| 2022/2023 | 615 | 142 | 4,3 |
| 2023/2024 | 599 | 186 | 3,2 |

Akademik heyətlə inzibati heyətin nisbətinin tələb olunan səviyyəyə (3:1) uyğunluğunun gözlənilməsi GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Planı”nda hədəf olaraq müəyyən edilmişdir.

### 5.2.3. GDU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

Universitetdə işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq xüsusi əmək haqqı sistemi mövcud deyil. 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da bununla bağlı “2.3.2. Universitetin diferensial əmək haqqı sisteminə keçməsi ilə bağlı təkliflər hazırlamaq və həyata keçirmək”, “2.3.1. Tədqiqatçının nəaliyyətlərini nəzərə alan yeni stimullaşdırıcı əmək haqqı sistemi hazırlamaq”, “Gənc tədqiqatçıların fəaliyyətinin stimullaşdırılması sahəsində uyğun model yaratmaq”, “5.2.5. Əməyin motivasiya sistemlərini davamlı olaraq təkmilləşdirmək” adlı fəaliyyətlər müəyyən edilmişdir.

Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdırılması EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Motivasiya və Mükafatlandırma Siyasəti”nə əsasən həyata keçirilir. Siyasətə uyğun olaraq əlamətdar günlərdə pedaqoji fəaliyyətdə fəqlənən təhsilverənlərə dövlət başçısı və ARETN tərəfindən fəxri adların verilməsi üçün təqdimatlar verilir. Həmçinin rektorluq və AHİK tərəfindən “Fəxri Fərman”, “Təşəkkürnamə” və “Pul mükafatı”, yay tətilinin səmərəli təşkili məqsədi ilə sanatoriyalara göndərişlər verilir. Akademik heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə universitet EŞ-nin Qərarları ilə hesabat dövrünün əvvəlində GDU EŞ-nin 28.10.2019-cu il tarixli (pr. № 07) Qərarı və rektorluğun 29.10.2019-cu il tarixli 5/273 saylı əmri və sonunda GDU EŞ-nin 24.11.2023-cü il tarixli (pr. № 02) Qərarı və rektorluğun 01.12.2023-cü il tarixli 5/371 saylı əmri ilə əmək haqları artırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18.06.2019-cu il tarixli 1265 saylı Sərəncamı əsasında GDU EŞ-nin 24.09.2019-cu il tarixli (pr. № 06) Qərarı və rektorluğun 25.09.2019-cu il tarixli 5/228 saylı əmri ilə əməkhaqları minimum aylıq əmək haqqı səviyyəsinə çatdırılmışdır.

GDU EŞ-nin 31.01.2024-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 12.02.2024-cü il tarixli 1/67 saylı əmri ilə tədris işləri üzrə dekan müavinlərinin aylıq əmək haqlarına 200 (iki yüz) AZN əlavə edilmişdir.

Eyni zamanda tədrisi ingilis dilində aparılan "Kimya və biologiya müəllimliyi" ixtisasında pedaqoji fəaliyyətlə məşğul olan, xüsusi bacarıq və səriştələri olan müəllimlərin əmək haqlarına 2022/2023-cü tədris ilində EŞ-in 01.03.2023-cü il tarixli (pr. № 05) Qərarı və rektorluğun 30.03.2023-cü il tarixli 1/100 saylı əmri ilə və 2023/2024-cü tədris ilində EŞ-in 28.02.2024-cü il tarixli (pr. № 06) Qərarı və rektorluğun 29.02.2024-cü il tarixli 1/103 saylı əmri ilə müəyyən əlavələr edilmişdir.

Universitetin mövcud maliyyə imkanlarını nəzərə alaraq əməkdaşların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə EŞ-in müvafiq qərarlarına əsasən rektorluğun müvafiq əmrləri əsasında bir sıra əlamətdar və bayram günləri ilə əlaqədar mükafatlar verilir. Bununla yanaşı əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsinə, müəssisədaxili intizam qaydalarına əməl edilməsinə görə fərqlənmiş əməkdaşlara fərdi qaydada həvəsləndirici mükafatlar verilir, yubileyi olan işçilərə pul mükafatı yazılır və ya qiymətli əşyalar hədiyyə edilir.

| **İllər üzrə** | **Maddi yardım mükafat** | **Həvəsləndirmə** | **Yubiley** | **Fəxri fərman** |
|---|---|---|---|---|
| 2016 | | | 3 | 23 |
| 2017 | 1 | 88 | | 118 |
| 2018 | 48 | 60 | | 183 |
| 2019 | 3 | 42 | 5 | 56 |
| 2020 | | 20 | 2 | 21 |
| 2021 | 60 | 68 | 3 | 62 |
| 2022 | 2 | 16 | 4 | 50 |
| 2023 | 129 | 43 | 4 | 85 |
| 2024 | 8 | | 5 | 56 |

Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün GDU EŞ-nin EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və mükafatlandırma Siyasəti" və "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün Əsasnamə" adlı sənədlər əsas götürülür.

Eyni zamanda rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar" müəyyən edilmişdir. Bu qaydalar isə rektorluğun 13.04.2016-cı il tarixli 5/97 saylı əmri ilə təsdiq edilmişdir. Əmrə əsasən hər təqvim ilinin sonunda elmi və metodik fəaliyyətə görə il ərzində ən yüksək bal toplayan 20 nəfərin (10 nəfər professor, 10 nəfər fəlsəfə doktoru və ya dərəciz müəllim) əmək haqqına 200 AZN miqdarında əlavələr edilir. Eyni zamanda "Web of Science" bazasına daxil olan jurnallarda çap olunmuş hər bir məqaləyə görə (h indeksindən asılı olaraq) 300-800 AZN, Elmlər doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün 800 AZN, Fəlsəfə doktoru proqramı üzrə dissertasiyanın müdafiəsi (diplom təqdim olunduqda) üçün isə 500 AZN miqdarında pul mükafatının verilməsi nəzərdə tutulmuşdur.

**5.2.4. GDU-da işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

GDU-da işçilərin motivasiyası və mükafatlandırılması EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və Mükafatlandırma Siyasəti"nə əsasında həyata keçirilir.

**5.2.5. GDU-da işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti**

Universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"nda tələbə və müəllimlərin inkişafı, uğurları, razılıq dərəcəsi və s. ilə bağlı mütəmadi sorğuların keçirilməsi nəzərdə tutulmuşdur. Həmin fəaliyyət ilə bağlı KTM tərəfindən müvafiq sorğular təşkil edilmişdir. GDU-da işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması GDU EŞ-nin tarixli (pr. № ) Qərarı və rektorluğun tarixli saylı əmri ilə təsdiq edilmiş "İnsan Resursları şöbəsinin Əsasnaməsi"ndə də öz əksini tapmışdır.

**5.2.6. GDU-da işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

GDU-da işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlər universitetdə yaradılmış Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi, STEAM laboratoriyasında həyata keçirilir. Əməkdaşların bilik və bacarıqlarının artırılması üçün beynəlxalq mübadilə proqramlarında və elmi-praktiki konfranslarda iştirakı təmin edilir. Eyni zamanda beynəlxalq layihələr çərçivəsində xarici ekspertlər tərəfindən təlimlər təşkil

edilir. Nəticədə əməkdaşlar bilik və bacarıqlarını artırmaqla bərabər, beynəlxalq təcrübəni öyrənərək müvafiq sertifikatlarla təmin olunur.

GDU-da işçilərin müasir informasiya texnologiyalarının imkanlarından istifadə etmək məqsədilə fərdi şəkildə ayrı-ayrı özəl kurslarda təlimlərdə olmuşdular. Universitetdə bu sahədə bir neçə təlim təşkil edilmişdir, xüsusilə də “Ağıllı lövhələr”dən və digər informasiya texnologiyalarından istifadəsi ilə bağlı təlimlər təşkil olunmuşdur. Bunlarla yanaşı Eduman platformasından istifadəyə dair 4 mərhələdən ibarət olan təlim paketi həyata keçirilib.

### 5.2.7. GDU-da işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

GDU-da işçilərə münasibətdə sosial və mədəni tədbirlərin təşkili kifayət qədər olsa belə bu tədbirlərin təşkili İnsan Resursları şöbəsi tərəfindən icra olunmur. Bu fəaliyyətlə əsasən Humanitar məsələlər üzrə prorektorluq, Azad Həmkarlar İttifaqı Komitəsi, THİK, İdman Klubu və TGT məşğul olur. Əməkdaşların ictimai fəallıqlarının artırılması məqsədilə şəhərmiqyaslı və ölkəmiqyaslı müxtəlif sosial mövzularda layihələr, konfranslar, dəyirmi masalar, seminarlar, görüşlər, müsabiqələr, ağacəkmə aksiyaları, iməciliklər və s. keçirilir. Bayram və əlamətdar günlərdə professor-müəllim heyəti, əməkdaşlar və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir.

Əməkdaşların asudə vaxtlarının, istirahətlərinin, sağlam həyat tərzlərinin və idmanla məşğul olmalarının səmərəli təşkili məqsədilə açıq və qapalı idman zallarından və fitnes zalından istifadəyə şərait yaradılır və mütəmadi olaraq idman və mədəni-kütləvi tədbirləri İdman Klubunun təşkilatçılığı ilə təşkil olunur.

Əməkdaşların məzuniyyət dövründə istirahətinin səmərəli təşkili üçün Həmkarlar İttifaqı Komitəsinin köməyi ilə ölkənin müxtəlif kurort-sanatoriya müəssisələrinə göndərişlər verilir. Professor-müəllim heyətinin, qeyri-akademik heyətin və tələbələrin şəxsi yaradıcılıqlarının inkişaf etdirilməsi məqsədi ilə klub və dərnəklərin fəaliyyəti üçün zəruri şərait yaradılır.

Yuxarıda qeyd edilən sosial və mədəni tədbirlərin keçirilməsinə dair məlumatlar “Mətbuat və ictimaiyyətlə əlaqələr Xidməti” tərəfindən mütəmadi olaraq universitetin rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında paylaşılır.

### 5.2.8. Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətlə (inzibati, texniki və köməkçi işçilər) əmək müqavilələrinin bağlanılması və xitam verilməsi mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin

tələblərinə, GDU EŞ-nin 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı ilə təsdiq edilmiş “İşə Qəbul Siyasəti” ilə “Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları”na, “İnsan resursları şöbəsinin Əsasnaməsinə” və GDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) İşə qəbul prosesinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün “İşə Qəbul Siyasəti” və “Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları” universitetin internet səhifəsində yerləşdirilmişdir. İctimaiyyət üçün əlçatanlığın təmin edilməsi üçün vakant vəzifələr barədə KİV-də elan verilir.

**5.2.9. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

Qeyri-akademik heyətin tabe olduğu struktur bölmələrdə “İllik iş planı” mövcuddur. Müvafiq struktur bölmə rəhbərinin sədrliyi ilə keçirilən iclasda əməkdaşın müəyyən olunmuş müddət üzrə hesabatı dinlənilir, qiymətləndirilir və müvafiq qərarlar qəbul olunur.

**5.2.10. Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin və digər müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla tələbləri gözlənilməklə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir.

Əmək müqavilələri, onlarda dəyişikliklərin edilməsi və ya xitam verilməsi universitet tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə elektron imza vasitəsilə daxil edilir. Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

**5.3. Maliyyə resurslarının idarə edilməsi**

**5.3.1. GDU-nun maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

ARTN tərəfindən 17.01.2013-cü il tarixdə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 15.03.2013-cü il tarixli 53 saylı qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış “GDU-nun Nizamnaməsi” və rektorluq tərəfindən 09.01.2014-cü ildə təsdiq edilmiş “Mühasibatlıq şöbəsinin Əsasnaməsi” əsas götürülərək dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s. kimi maliyyə resurslarının mənbələri müəyyən olunur.

### 5.3.2. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Universitetin maliyyə resurslarının planlaşdırılması ARETN-nin müvafiq qaydaları əsasında illik olaraq nəzərdə tutulur. Mühasibatlıq şöbəsi tərəfindən illik planlaşdırmaya dair sənəd hazırlanaraq rektor tərəfindən təsdiq edildikdən sonra razılaşdırılması üçün ARETN-ə göndərilir.

### 5.3.3. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Mühasibatlıq şöbəsinin "Fəaliyyət Planı" əsasında universitetin 2023-2028-ci illəri əhatə "Strateji Plan"ı nəzərə alınaraq maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlər icra olunur.

### 5.3.4. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti

Universitetdə əlavə maliyyə resurslarının əldə edilməsi üçün imkanlar mövcuddur. Universitet büdcəsinə əlavə maliyyə əsasən beynəlxalq qrant və layihələrdən, icarədən, konfransların təşkilindən, reklamdan və "Yüksəliş" qəzetinin satışından daxil olur. Əlavə maliyyə resurslarının illər üzrə statistikası aşağıdakı cədvəldə göstərilmişdir:

| Hesabat ili | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Yataqxanadan gələn gəlir | | | | | | | 53,286.00 | 254,797.00 |
| İcarədən gələn gəlir | | | | | 2,469.00 | 1,251.58 | 1,577.22 | 7,499.26 |
| Konfransdan gələn gəlir | | | | | | | | 20,000.00 |
| Reklamdan gələn gəlir | | | | | | | | 15,000.00 |
| "Yüksəliş" qəzetindən əldə edilən gəlir | | | | | | | 500.00 | 500.00 |
| Cəmi: | | | | | 2,469.00 | 1,251.58 | 55,363,22 | 297,796.26 |

Əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə fəaliyyət istiqamətlərinin genişləndirməsi universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında da öz əksini tapmışdır. Universitet yuxarıda qeyd edilən əlavə maliyyə resursları hesabına gələn gəlirləri artırmaqla yanaşı elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması, elmi-tədqiqat laboratoriyasının təqdim etdiyi xidmətlər, elmi-tədqiqat cihazlarından istifadə, şəxsi ianələr, xeyriyyə vəsaitləri, özəl sektor tərəfindən elmi tədqiqatlara investisiya qoyuluşu və s. hesabına gəlirlərinin artırılmasını planlaşdırır.

Aşağıdakı cədvəldə qeyd edilən məlumatlara nəzər yetirsək, təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbətini müəyyən edə bilərik.

| Hesabat ili | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Ötən ildən qalan qalıq | 2.481.596,49 | 3.540.468,60 | 3.245.362,42 | 2.891.379,00 | 3.985.618,29 | 3.285.405,75 | 4.516.011,55 | 5.494.103,72 |
| Dövlət sifarişli təhsil haqqından gələn gəlir | 5.247.072,75 | 4.693.123,00 | 4.956.928,00 | 6.282.388,00 | 9.529.445,00 | 9.893.710,00 | 9.492.067,00 | 10.031.700,00 |
| Ödənişli təhsildən gələn gəlir | 7.406.593,35 | 5.854.304,64 | 5.810.706,73 | 6.212.471,00 | 4.871.237,24 | 6.283.630,48 | 7.462.482,20 | 7.387.316,90 |
| Digər gəlirlər | | | | | 2.469,00 | 1.251,58 | 55.563,22 | 297.796,26 |
| Müəssisənin ümumi büdcəsi | 15.135.262,59 | 14.087.896,24 | 14.012.997,15 | 23.386.238,00 | 18.388.769,53 | 19.463.997,81 | 21.526.123,97 | 23.210.916,88 |
| Ümumi xərclər | 11.594.793,99 | 10.842.533,82 | 11.121.618,15 | 19.400.619,71 | 15.103.363,78 | 14.947.986,26 | 16.032.020,25 | 18.008.807,50 |
| Təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbəti | | | | | 5473,9 | 12925,53 | 305,14 | 58,49 |

### 5.3.5. Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Hesabatlılıq dövründə universitetdə iki dəfə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (ARMN) Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən müvafiq yoxlamalar həyata keçirilmişdir. Birinci yoxlama (2015-ci ilin noyabr ayından 2019-cu ilin noyabr ayına kimi) ARMN-nın 26.11.2019-cu il tarixli MN seriyalı 000003819 vəsiqəsinə əsasında, ikinci yoxlama (2020-2023) isə ARMN-nın 26.12.2023-cü il tarixli 000001204 və 18.01.2024-cü il tarixli 000002894 və 000002895 saylı vəsiqələri əsasında həyata keçirilmişdir. ARMN tərəfindən hər iki yoxlamaya dair "Akt" tərtib edilərək hər iki tərəfin imzası ilə təsdiq edilmişdir. Maliyyə hesabatlılığına dair məlumatlar vaxtaşırı olaraq rektora təqdim edilir.

### 5.3.6. Maliyyə resurslarından istifadənin GDU-nun Nizamnaməsinə uyğunluğu

Təhsilin və müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə ARETN-nin müvafiq əmrinə əsasən hər il üzrə müəyyən edilmiş məbləğdə Təhsilin İnkişafı Fonduna yönəldilməsi (sonuncu əmr: 20.04.2023-cü il 3-29/3-2-183F/2023) nəzərdə tutulmuşdur.

Universitetin Nizamnaməsinin 7.3.-cü bəndində göstərilən mənbələrdən (büdcə vəsaiti istisna olmaqla) daxil olan vəsait hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir (Nizamnamənin 7.1. bəndində nəzərdə tutulur).

### 5.3.7. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun GDU-nun Nizamnaməsinə uyğunluğu

Mühasibatlıq şöbəsi tərəfindən universitetin maliyyə vəziyyəti haqqında hesabatlar, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlar, pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar, xalis aktivlərdə dəyişikliklər haqqında illik hesabatlar Azərbaycan Respublikasının Prezidentinin 29 iyun 2004-cü il tarixli 716-IIQ saylı Sərəncamı ilə təsdiq

edilmiş "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu" əsas götürülərək Milli Mühasibat uçotu standartlarına uyğun hazırlanır və rektor tərəfindən təsdiq edildikdən sonra ARETN-nə təqdim edilir.

Nizamnamənin 7.1. bəndinə əsasən universitetə ayrılan büdcə vəsaitindən, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək universitetin əsas vəzifə və hüququ olaraq tanınmışdır.

**5.3.8. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir (Nizamnamənin 7.2. bəndi). Rektor universitetin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir (Nizamnamənin 7.1. bəndi). Universitetə ayrılan büdcə vəsaitindən, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir və buna nəzarəti həyata keçirir (Nizamnamənin 7.2. bəndi).

Rektorluğun 11.03.2024-cü il tarixli 5/82 saylı əmri ilə yaradılmış "Tender Komissiyası" universitetdə tədris və təsərrüfatda yaranmış tələbatı nəzərə alaraq tender və katirovka keçirilməsi məqsədilə həyata keçirilən satınalmaların səmərəliliyinə, bağlanılmış satınalma müqavilələrinin icrasına nəzarət edir. Mühasibatlıq şöbəsi universitetin illik smetalarının icra vəziyyətini təhlil edir, səlahiyyətləri daxilində bu işlərin təşkilinə nəzarəti həyata keçirir. Şöbə universitetdə əsas fəaliyyət göstəriciləri üzrə proqnozların icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirir.

**5.3.9. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Muhasibatlıq şöbəsi bağlanılmış bütün satınalma müqavilələrinin icrasına nəzarət edir. "Tender Komissiyası" il ərzində satınalma ilə bağlı prosedurun müəyyən edilməsi və qanunla icazəsi tələb olunan satınalma prosedurlarını həyata keçirir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi Azərbaycan Respublikasının Prezidentinin 14 iyul 2023-cü il tarixli 988-VIQ saylı Sərəncamı əsasında təsdiq edilmiş "Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələbləri gözlənilməklə təsdiq edilmiş müqavilə əsasında və müqavilədə göstərilmiş "Qiymətlərin razılaşdırılması protokolu"na uyğun həyata keçirilir. Dövlət satınalmaları üzrə vahid internet portalı vasitəsilə müvafiq işlər görülür, hesabatlar təqdim edilir.

**5.3.10. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Universitet Azərbaycan Respublikasının Prezidentinin 29 iyun 2004-cü il tarixli 716-IIQ saylı Sərəncamı ilə təsdiq edilmiş "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu" ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Universitet Azərbaycan Respublikasının Prezidentinin 18 fevral 1994-cü il tarixli 789 saylı "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir. Muhasibatlıq şöbəsi universitet aktivlərinin və öhdəliklərinin inventarizasiyasının aparılması və onların mühasibat uçotu hesablarında düzgün əks etdirilməsini təmin edir. SİNAM ERP proqramı vasitəsilə malların (iş və xidmətlərin) anbara mədaxil və məxaric sənədlərinin icra edilməsini təmin edir.

**5.3.11. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

Universitet üzrə maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və vergi, statistika, nazirliklər və s. kimi aidiyyəti orqanlara təqdim olunması Mühasibatlıq şöbəsinin illik iş planı əsasında həyata keçirilir.

**5.3.12. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

Universitetə dair maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq Mühasibatlıq şöbəsi tərəfindən hazırlanaraq rektorluğa təqdim edilir. Rektorluq tərəfindən hesabatlar təhlil edildikdən sonra təsdiq edilərək ARETN-yə göndərilir.

**5.3.13. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Universitetdə maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili auditin aparılmasına "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" adlı sənəddə nəzərdə tutulan "İdarəetmə və xidmət keyfiyyətinə nəzarət Komissiyası" tərəfindən həyata keçiriməsi nəzərdə tutulmuşdur. Gələcəkdə bu sahədə daha effektiv monitorinq və təhlilin aparılması, qiymətləndirilməsi, səmərəli işin təşkili üçün müvafiq rəy və təkliflərin verilməsi, eyni zamanda məsələ ilə bağlı nəzarət tədbirlərinin görülməsi üçün

universitet EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 29.12.2023-cü il tarixli 5/438 saylı əmri ilə EŞ-in tərkibində “Maliyyə-Təsərrüfat Komissiyası” yaradılmışdır.

**5.3.14. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Universitet üzrə maliyyə resurslarının əldə olunması və istifadəsinə nəzarətin təşkil edilməsi üçün hesabatlılıq dövründə iki dəfə ARMN tərəfindən kənar audit aparılmışdır. ARMN tərəfindən hər iki yoxlamaya dair “Akt” tərtib edilərək hər iki tərəfin imzası ilə təsdiq edilmişdir.

**5.3.15. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsinə dair 2023-2028-ci illər üzrə “Strateji Plan”ında “3.3.2. Startaplara ilkin biznes fəaliyyətinin təşkili məqsədilə maliyyə dəstəyinin tapılması üçün köməklik göstərmək” və “5.3.4. Maliyyə mənbələrini diversifikasiya etmək və artırmaq” adlı fəaliyyətlər qeyd edilmişdir.

**5.4. İnformasiya idarəetmə sistemi**

**5.4.1. GDU-da informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

Universitetdə informasiya idarəetmə sisteminin qurulması məqsədi ilə “ULTRA MMC” ilə “Eduman” (www.eduman.gdu.edu.az) platformasının alınması ilə bağlı ikitərəfli müqavilə imzalanmışdır. Müqaviləyə əsasən nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün “Texniki Tapşırıq” sənədi hazırlanmış və tərəflər arasında razılaşdırılaraq imzalanmışdır. Həmin sənəd əsasında sistem tam hazırlanaraq istifadəyə verilmişdir. Sistemin qurulmasına və fəaliyyətiniun səmərəli təşkilinə nəzarət edilməsi üçün EŞ-in 25.09.2020-ci il tarixli (pr. № 05) Qərarı və rektorluğun 28.09.2020-ci il tarixli 5/186 saylı əmri ilə İnnovasiyalar departamentinin nəzdində “İnformasiya resurslarının formalaşması (İRF)” şöbəsi yaradılmış, Əsasnaməsi təsdiq edilmiş və vəzifələr yaradılaraq ştat cədvəlinə əlavə edilmişdir. Rektorluğun 01.03.2021-ci il tarixli 1/46 saylı əmri ilə şöbəyə müdir təyin olunmuşdur. Şöbənin 2023-2028-ci illəri əhatə edən “Fəaliyyət Planı” və illik “İş Planı” mövcuddur. Şöbə öz işini bu sənədlər əsasında müəyyən edir və həyata keçirir.

**5.4.2. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı , məlumatların yenilənməsi vəziyyəti**

“Təhsil İdarəetmə Sistemi” proqramında universitetdə təhsil alan tələbələr və işçi heyət haqqında bütün məlumatlar saxlanılır. Təhsil müəssisəsinin inzibatçıları sistemdə olan bu məlumatları idarə edə bilərlər. Bundan əlavə sistemdə tədris proqramı, işçi təris planı və fənn proqramları, dərs cədvəli işlənib hazırlanmışdır. Sistemin əsas məqsədi – universitetdə olan bütün məlumatları və müəssisə daxilində olan bir çox idarəetmə proseslərini vahid bir bazada saxlamaqdır. Proqramın interfeysi Azərbaycan dilindədir.

İstifadəçi tipindən asılı olaraq menyular əks olunur. İnzibati bölmədə sistem administratoru, rektor, prorektorlar, operator üçün lazım olan menyular əks olunur və burada istənilən əməliyyatın aparılması mümkündür. Bütün bunlar qrup və imtiyazlarla idarə olunur.

Sistem “Tələbələr”, “Məzunlar”, “Arxiv”, “Əməkdaşlar”, “Təşkilati struktur”, “Fənn üzrə qrup”, “Fənn üzrə yarımqrup”, “Akademik qrup”, “Fənn kataloqu”, “Akademik təqvim”, “Təqvim planı”, “Tədris planı”, “Dərs cədvəli”, “Elektron jurnal”, “Sərbəst iş”, “Transkript”, “Tədris materialları”, “İstifadəçilər”, “Soraqça”, “Axtarış”, “Hesabat”, “Qaydalar”, “Xəbərlər”, “Elanlar”, “Sənəd şablonları”, “Müəllim kabineti” və “Tələbə kabineti” adlı modullardan ibarətdir.

İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı təmin olunmuşdur. İRF şöbəsinin rəhbərliyi ilə rektorluğun 18.10.2023-cü il tarixli 5/268 saylı əmri ilə təyin edilmiş fakültələr üzrə “məsul şəxslər” tərəfindən “Eduman” sistemi idarə edilir və mütəmadi olaraq məlumatların yenilənməsi icra olunur. İRF şöbəsi tərəfindən “Eduman” sistemindən səmərəli istifadəyə dair fakültələr üzrə “məsul şəxslər”ə xüsusi təlimlər təşkil edilmişdir. 2024-cü ilin yaz semestrindən etibarən rektorluğun 19.01.2024-cü il tarixli 5/16 saylı əmri ilə sistemin “Pilot Layihə” kimi qəbul edilmiş ixtisaslarda tam olaraq tətbiqinə başlanıldığını nəzərə alaraq həmin ixtisaslar üzrə tədris aparan professor-müəllim heyətinə şöbə tərəfindən 4 mərhələdən ibarət olan təlimlər təşkil edilmişdir.

**5.4.3. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu**

“Eduman” sistemində universitetin strukturu əsasında idarəetmə orqanları üzrə rektorluğun razılığı əsasında səlahiyyət bölgüsü aparılmışdır. İRF şöbəsi tərəfindən struktur-bölmələrə öz səlahiyyətlərinə dair təlimlər təşkil edilmiş və vəzifə öhdəlikləri izah

edilmişdir. Eyni zamanda sistemin tətbiq edildiyi ixtisaslarda tədris aparan professor-müəllim heyətinə də öz səlahiyyətləri və vəzifə öhdəliklərinə dair təlimlər təşkil edilmişdir.

### 5.4.4. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

"Eduman" sisteminin tətbiq edildiyi ixtisaslarda təlim və tədris prosesində bütün tədris fəaliyyətləri tam olaraq rəqəmsallaşdırılmışdır. Bütün fəaliyyətlər "Fənn üzrə qrup", "Fənn üzrə yarımqrup", "Akademik qrup", "Fənn kataloqu", "Akademik təqvim", "Təqvim planı", "Tədris planı", "Dərs cədvəli", "Elektron jurnal", "Sərbəst iş", "Transkript", "Tədris materialları", "Hesabat", "Müəllim kabineti" və "Tələbə kabineti" adlı modullardan istifadə edilməklə həyata keçirilir.

### 5.4.5. İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

"Eduman" sisteminin "Əməkdaşlar", "Təşkilati struktur", "Müəllim kabineti" və "Tələbə kabineti" adlı modulları vasitəsilə əlçatanlıq təmin edilmişdir. Tələbələrin informasiya idarəetmə sistemindən səmərəli istifadə edə bilməsi üçün fakültələr üzrə "məsul şəxslər" tərəfindən xüsusi təlimlər keçirilmişdir. Professor-müəllim heyəti və tələbələrin "Eduman"a əlçatanlığını təmin etmək üçün sistemə həm universitet daxili şəbəkədən həm də kənardan internet vasitəsilə daxil olması üçün şərait yaradılmış, universitet serverində bununla bağlı sazlamalar həyata keçirilmişdir.

### 5.4.6. İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"nda qeyd edilən məqsədlərdən biri "Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək" adlanır. Həmin məqsədin 5.4. saylı hədəfində informasiya idarəetmə sisteminin tətbiqinə dair xüsusi fəaliyyətlər nəzərdə tutulmuşdur.

KTM tərəfindən hazırlanmış normativ-hüquqi sənədlərdə informasiya idarəetmə sisteminin tətbiqi nəticəsində keyfiyyətli idarəetmənin yaranacağına dair qeydlər öz əksini tapmışdır. İnformasiya idarəetmə sisteminin tətbiqi ilə həmin sənədlərdə qeyd edilən müddəaların icrası nəticəsində universitetin strukturları arasında səmərəli kommunikasıyanın qurulması, dərslərin müasir metodlar əsasında keçirilməsi, tələbələrin biliyinin şəffaf və obyektiv qiymətləndirilməsi, proseslərin izlənilməsi, məlumatların əlçatanlığı və s. kimi keyfiyyət göstəricilərinin əldə edilməsinə nail olunmuşdur.

### 5.4.7. İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

Universitetdə distant təhsilin tətbiqi, onlayn görüşlərin və təlimlərin həyata keçirilməsi üçün istifadə olunan Microsoft Teams və Zoom, Tədris departamentinin istifadə etdiyi portal.edu.az, TMMS, DİM, ATİS, Keyfiyyətin Təminatı Mərkəzinin istifadə etdiyi TMİS, İnsan resursları şöbəsinin istifadə etdiyi e-gov.az, Mühasibatlıq şöbəsinin istifadə etdiyi Sinam platformalarının gələcəkdə "Eduman"a inteqrasiya edilməsi planlaşdırılmışdır.

Sistemin universitetdə tətbiqinin yeni olduğunu və hər bir sistemin inteqrasiyası üçün əlavə maliyyənin tələb olunduğunu nəzərə alaraq prosesin illər üzrə pilləli şəkildə həyata keçirilməsi planlaşdırılmışdır. Hazırda cari ildə yazılı və test imtahan modulunun alınması üçün katirovka sənədləri hazırlanmış və tələb olunan maliyyənin ayrılması təmin edilmişdir.

### 5.4.8. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

2023-2028-ci illəri əhatə edən "Strateji Plan" sənədində bu meyarın icrası ilə bağlı "5.4.5. Mövcud olan elektron xidmətlərin təhlükəsizliyini və keyfiyyətini yüksəltmək" adlı fəaliyyət müəyyən edilib.

Universitetdə mövcud olan informasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığı İKT şöbəsi tərəfindən təmin edilir. Bunun üçün universitetin mövcud server infrastrukturu təkmilləşdirilmiş, yeni avadanlıqlar və "Palalto" təhlükəsizlik divarı qurulmuşdur. Server otağının təhlükəsizliyini təmin etmək üçün xüsusi sistemlər quraşdırılmışdır.

## 5.5. İctimaiyyətlə əlaqələr

### 5.5.1. GDU-nun rəsmi saytının mövcudluğu vəziyyəti

Universitetin rəsmi internet səhifəsi (www.gdu.edu.az) İKT şöbəsi tərəfindən hazırlanmışdır. Səhifənin gündəlik yenilənməsinin və təhlükəsizliyinin təmin olunması da İKT şöbəsi tərəfindən həyata keçirilir. İKT şöbəsi tərəfindən universitetin rəsmi internet səhifəsi ilə yanaşı hər bir fakültənin ayrıca internet səhifəsi də yaradılmışdır. Bütün bunlarla yanaşı şöbə tərəfindən universitetin sosial şəbəkələrdə rəsmi səhifələri də qeydiyyatdan keçirilmişdir.

### 5.5.2. GDU-nun rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

2014-cü ildən etibarən yaradılmış Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti tərəfindən universitetin rəsmi internet səhifəsində gündəlik olaraq məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi prosesi GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/471 saylı əmri ilə təsdiq edilmiş "Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

### 5.5.3. GDU-nun ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da bu meyarın icrası ilə bağlı olaraq "7.7.1. Univeristetin fəaliyyəti haqqında informasiya resursları hazırlamaq", "7.7.2. Rəsmi elektron səhifədə məlumatların əlçatanlığını təmin etmək" adlı fəaliyyətlər müəyyən edilib. Universitetə dair məlumatların ictimaiyyət üçün əlçatanlığını təmin etmək məqsədi ilə İnnovasiyalar departamenti tərəfindən YouTube sosial şəbəkəsində "Department of Innovations at Ganja State University" adlı kanal yaradılmışdır. Departamenti tərəfindən universitetə dair məlumatların ictimaiyyət üçün əlçatanlığını təmin etmək məqsədi ilə hər il "Promo Jurnal" və universitetin marketinq işinin təşkili məqsədi ilə müxtəlif növdə "promo məhsullar" hazırlanmışdır.

Universitetin 1968-ci ildən fəaliyyətə başlamış redaksiyası tərəfindən A-3 formatında, ayda bir dəfə, hər tədris ilində 10 nömrə olmaqla 2 rəngdə (mavi və qara) "Yüksəliş" adlı qəzet nəşr edilərək paylanılması təmin edilir. Qəzet universitetin həyatında baş verən bütün mühüm hadisələri – tədris, elmi-tədqiqat sahəsində nailiyyətlər, ali təhsil ocağının maddi-texniki bazasının zənginləşdirilməsi, açıq dərslərin, ustad dərslərinin, pedaqoji və istehsalat təcrübələrinin təşkili, respublika və xarici ölkə universitetləri ilə əlaqələr, tələbələrin istedadlarının tanıdılması, mədəni-kütləvi tədbirlərin keçirilməsi mövzularında maraqlı rubrikalarla çap olunur.




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İllik nömrə sayı | 10 | 10 | 10 | 10 | 4 | 8 | 10 | 10 | 2 |
| Səhifə | 40 | 40 | 40 | 40 | 16 | 32 | 40 | 40 | 8 |
| Material sayı | 162 | 185 | 154 | 179 | 33 | 110 | 178 | 196 | 43 |

Bununla yanaşı Respublika üzrə rəsmi dövlət qəzetlərində (“Azərbaycan”, “Respublika”, “Xalq”, “Azərbaycan müəllimi”, “Gəncənin səsi” və s. qəzetlər), müxtəlif KİV-lərə məxsus TV-lərdə (AzTV, Kəpəz, Səs) və internet səhifələrində (“azertag.az”, “modern.az”, “apa.az”, “report.az”, “sia.az” və s.) müvafiq müqavilələr əsasında universitetə dair müxtəlif dövrlərə aid məlumatlar əks olunmuşdur.

Hər il universitetin təbliğ olunması ilə bağlı Baku Expo Mərkəzində təşkil olunan “Təhsil və Karyera Sərgisi”ndə aktiv iştirak təmin edilir.

### 5.5.4. GDU-nun ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti

Universitetin Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinin illər üzrə “İş Planı” mövcuddur. Sonuncu “İş Planı” GDU EŞ-nin 31.05.2023-cü il tarixli (pr. № 08) Qərarı və rektorluğun 06.06.2023-cü il tarixli 5/155 saylı əmri ilə təsdiq edilmişdir.

### 5.5.5. GDU-nun məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da müəyyən edilmiş “7.6.2. Tələbə və müəllimlərin inkişafı, uğurları, razılıq dərəcəsi və s. ilə bağlı mütəmadi sorğular keçirmək” adlı fəaliyyətin icrası ilə bağlı universitetdə mütəmadi olaraq sorğular təşkil edilir.

KTM tərəfindən keçirilmiş məmnunluq sorğularında GDU-nun məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsinin ölçüləbilməsini təmin etmək üçün suallar daxil edilmiş və sorğuda maraqlı tərəflərin iştirakı təmin edilmişdir. Bu məsələ ilə bağlı Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti tərəfindən bir neçə dəfə sorğular hazırlanaraq həyata keçirilmişdir. Sonuncu dəfə rektorluğun 20.12.2023-cü il tarixli 5/421 saylı əmri ilə universitetdə ictimaiyyətin məlumatlandırılması vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsi məqsədi ilə 25.12.2023-cü ildən 27.12.2023-cü islədək “GDU-nun ictimaiyyəti məlumatlandırması fəaliyyətinin qiymətləndirilməsi” adlı sorğunun keçirilməsi planlaşdırılmışdır.

### 5.5.6. GDU-nun məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Universitetin rəsmi internet səhifəsində və digər internet səhifələrində hesabatlılıq dövründə dərc edilmiş məlumatların statistikası aşağıdakı infoqrafikdə göstərilmişdir:




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rəsmi internet səhifəsi | 150 | 156 | 167 | 170 | 98 | 224 | 203 | 237 | 70 |
| Digər internet səhifələri | 142 | 148 | 150 | 162 | 90 | 220 | 185 | 225 | 56 |

Universitetin məlumatlandırma fəaliyyətinin sosial şəbəkələr üzrə monitorinqi aparılmış və bir çox istiqamətdə məlumatlar əldə edilmişdir. Universitetin rəsmi facebook səhifəsində ümumi istifadəçilərin yaşına və cinsinə görə statistikası aşağıdakı diaqramda öz əksini tapmışdır:




Facebook səhifəsindən əldə edilən aşağıdakı məlumatlardan aydın olur ki, son 28 gündə 4451 ədəd status paylaşılmış, bu postlara 2964 nəfər tərəfindən baxış edilib. Universitetin rəsmi facebook səhifəsinə 59 nəfər yeni izləyici abunə olub.




Facebook-dan əldə edilən aşağıdakı məlumatlardan aydın olur ki, son 3 ay ərzində 14 min nəfərə yaxın istifadəçi universitetin rəsmi səhifəsinə daxil olmuşdur.



Facebook-dan əldə edilən aşağıdakı məlumatlardan aydın olur ki, son 3 ildə yeni abunə olanların sayı 8 min nəfəri keçmişdir. Eyni zamanda abunəçilərin yaşına və cinsinə görə də statistik məlumatları əks olunmuşdur.




Universitetin YouTube sosial şəbəkəsində mövcud olan “Department of Innovations at Ganja State University” adlı kanalından əldə edilən statistik məlumatlara nəzər yetirsək görərik ki, kanalın 1200 abunəçisi mövcuddur və bu günə qədər kanala 103248 ümumi baxış qeydə alınıb. Kanalda mövcud olan 59 video məlumata ümumilikdə 3100 saat baxış olmuşdur.




Universitetin İnstagram şəbəkəsində mövcud olan səhifəsindən əldə edilən statistik məlumatlara nəzər yetirsək görərik ki, hazırda səhifənin 4000-ə yaxın abunəçisi mövcuddur. Bu günə qədər 289 xəbər paylaşılıb.

Yuxarıda qeyd edilmiş statistik məlumatlar Özünütəhlil hesabatını hazırlamaq üçün yaradılmış İşçi Qrup tərəfindən toplanılmışdır. İşçi Qrup tərəfindən prosesin təkmilləşdirilməsinə dair müvafiq təkliflər Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinə bildirilmişdir.

## 6. İNFRASTRUKTUR

### 6.1. Tədris infrastrukturu

#### 6.1.1. Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Universitetdə tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu ARNK-nin 3 avqust 2012-ci il tarixli 171 saylı Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sangigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" adlı sənəd əsasında tənzimlənir.

Universitetdə tədris prosesi ümumi sahəsi 32058 $m^2$ olmaqla 5 tədris binasında həyata keçirilir. Tədris binalarında 30 mühazirə, 132 məşğələ auditoriyaları, mini futbol meydançaları, qaçış zolaqları, uzununa tullanma yeri, voleybol və basketbol meydançaları, ümumi sahəsi 939,2 $m^2$ sahəyə malik olan 2 ədəd idman zalı, ümumi sahəsi 601,6 $m^2$ olan 3 ədəd akt zalı və 1 ədəd 64,6 $m^2$ olan fitnes zalı mövcuddur. Tədris binalarının hər birində sanitar qovşaqlar, işıqlanma və istilik sistemləri standartlara uyğun olaraq tənzimlənir.

#### 6.1.2. Kitabxananın mövcudluğu vəziyyəti

Universitet kitabxanası 1953-1954-cü tədris ilindən etibarən fəaliyyətə başlayıb. Kitabxananın ümumi sahəsi 1518,8 $m^2$, ümumi kitab fondu isə 350485 ədəddir. Kitabxana öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 1998-ci il tarixli 611-IQ saylı Sərəncamı ilə təsdiq edilmiş "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu" sənədinə, universitetin nizamnaməsinə, rəhbərliyin əmr və göstərişlərinə uyğun şəkildə həyata keçirir. Kitabxanada "Kompleklәşdirmə şöbəsi", "Xidmət şöbəsi" və "Biblioqrafiya şöbəsi" fəaliyyət göstərir.

Universitetin bütün tədris binaları və "Tələbə Evi"ndə yerləşən hər biri 5 mərtəbədən ibarət olan üç yataqxana binası daxil olmaqla ümumi sahəsi 647,6 $m^2$ qiraət zalları mövcuddur. Yataqxana binalarının hər bir mərtəbəsində tələbələr üçün qiraət zalları yaradılmışdır.

Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın adının əbədiləşdiriməsi məqsədilə 5-ci tədris binasında Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə "Nuru Paşa adına kitabxana" yaradılmışdır.

2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da müəyyən edilmiş "7.5.4. Yeni kampuslar, yataqxanalar və kitabxanalar istifadəyə vermək", "7.5.5. Kitabxana resurslarını rəqəmsallaşdırmaq" adlı fəaliyyətlərin icrası ilə əlaqədar olaraq təlim və tədris resurslarının

təhsilalanlar üçün əlçatanlığını təmin etmək məqsədilə “Kapital Bank” ASC-nin maliyyə dəstəyi ilə elektron kitabxana sisteminin qurulması üçün ilkin razılıq əldə edilmişdir. Razılıq əsasında cari ilin mart ayında “Kapital Bank” tərəfindən universitetdə elektron kitabxana sisteminin qurularaq təhvil verilməsi planlaşdırılır.

### 6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Universitetdə kadr hazırlığı müxtəlif ixtisaslar üzrə 5 tədris binasında həyata keçirilir. I tədris binasında “Kimya-biologiya”, II tədris binasında “Fizika və texniki fənlər”, “Riyaziyyat-informatika” və “Pedaqoji”, III tədris binasında “Tarix-coğrafiya”, IV tədris binasında “İqtisadiyyat və idarəetmə”, V tədris binasında isə “Filologiya” və “Xarici dillər” fakültələri fəaliyyət göstərir. Tədris binaları üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:




| | I tədris binası | II tədris binası | III tədris binası | IV tədris binası | V tədris binası | Tələbə Evi |
|---|---|---|---|---|---|---|
| Mühazirə otağı | 2 | 7 | 5 | 4 | 12 | 0 |
| Seminar/praktik məşğələ otağı | 6 | 38 | 18 | 14 | 56 | 0 |
| Tədris laboratoriyası | 11 | 15 | 0 | 0 | 3 | 0 |
| Elmi-tədqiqat laboratoriyası | 1 | 1 | 0 | 0 | 0 | 0 |
| Emalatxana | 0 | 3 | 0 | 0 | 0 | 0 |
| Qiraət zalı | 1 | 2 | 1 | 1 | 1 | 13 |
| İdman zalı | 0 | 1 | 0 | 0 | 1 | 0 |
| Mərkəz | 4 | 0 | 0 | 0 | 6 | 0 |

### 6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Universitetdə ümumilikdə faydalı sahəsi 1050,4 $m^2$ olan 24 ədəd tədris laboratoriyaları mövcuddur. Movcud laboratoriyalar lazimi cihazla və avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriyalar üçün cari ildə yeni avadanlıqların alınması üçün yeni müqavilələr imzalanmış, laborator işlərinin yerinə yetirilməsi üçün lazım olan reaktivlərin təmin edilməsi üçün universitet büdcəsindən müvafiq maliyyə ayrılmışdır. Bundan əlavə 120 ədəd kompüterlə təchiz edilmiş 11 ədəd kompüter laboratoriyası mövcuddur.

### 6.1.5. İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Pedaqoji təcrübə universitetin Mehti Mehtizadə adına 4 saylı və Mir Cəlal Paşayev adına 39 saylı baza məktəblərində, 30-a yaxın orta ümumtəhsil məktəblərində və 2 saylı körpələr evi-uşaq bağçasında, qeyri-pedaqoji ixtisasların istehsalat təcrübələri isə Gəncə şəhərində yerləşən 60-a yaxın təşkilat və müəssisələrdə təşkil olunur. Hər tədris ilində pedaqoji və istehsalat təcrübələri keçirilən bütün təşkilat və müəssisələr ilə ikitərəfli əməkdaşlıq müqaviləsi imzalanır. Adları qeyd edilən baza məktəblərində universitet tələbələri üçün "Təcrübə və karyera Mərkəzi" fəaliyyət göstərir. Mərkəzlər universitetin daxili imkanları ilə müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunub. Müasir təlim metodunu həyata keçirmək məqsədilə həmin otaqlarda kompüterlər, ağıllı lövhələr, proyektorlar quraşdırılıb, kompüterlər yüksək sürətli internetlə təmin edilib. Rəhbər müəllimlər bu otaqlarıdan istifadə edərək pedaqoji tədqiqatlar aparır və tələbələrin "açıq dərs"lərinin müzakirəsini təşkil edir.

### 6.1.6. GDU-da distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Universitetdə distant təhsil infrastrukturunun qurulması və inkişaf etdirilməsi üçün 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da "7.5.3. Distant təhsil üçün öyrənmə və tədris imkanlarını gücləndirmək" adlı fəaliyyət müəyyən edilib.

Universitetin bütün tədris binaları yüksəksürətli internetlə təmin edilmişdir. Pandemiya dövründə mövcud vəziyyətlə əlaqədar olaraq bütün ali təhsil müəssisələrində olduğu kimi bizim universitetdə də dərslər Microsoft Teams proqram təminatından istifadə edilməklə distant (məsafədən) formada təşkil edilmişdir. Həmin dövürdə universitetin bütün professor-müəllim və tələbə heyəti üçün universitetin domain ünvanına (www.gdu.edu.az) uyğun olaraq korporativ e-mail adresləri yaradılaraq tədris prosesinin təşkili üçün istifadəyə verilmişdir. Hazırda universitet əməkdaşları və tələbələri ehtiyac yarandığı halda bəzi məsləhət saatları üçün Microsoft Teams proqram təminatından istifadə edir.

İxtisas proqramları üzrə professor-müəllim və tələbə heyətinə müvafiq strukturlar tərəfindən distant təlimlərin keçirilməsi üçün xüsusi avadanlıqlar alınaraq (onlayn iclas təşkil etmək üçün nəzərdə tutulmuş Telycam qurğusu, Epson DC-13/DC-21 Document Camera, xüsusi işıqlandırma qurğuları, distant mikrofon sistemi, təqdimat lövhələri, xüsusi təyinatlı scaner qurğusu, kompüter və s.) istifadəsinə şərait yaradılmışdır.

Professor-müəllim heyəti tərəfindən distant formada tədrisin təşkili və video dərslərin yaradılması məqsədilə universitetin V tədris binasında yerləşən Müasir Təlim Mərkəzi və E-öyrənmə Mərkəzlərindən istifadəyə şərait yaradılmışdır.

**6.1.7. Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti**

Univerisetdə istismara yararlı 1 ədəd Qazel markalı yük maşını, 1 ədəd Hyundai markalı avtobus və 8 ədəd minik avtomobili (1 ədəd Nissan maxima, 1 ədəd Nissan Tiana, 1 ədəd Kia Sportage, 2 ədəd Hyundai Sonata, 1 ədəd Toyota Camry, 1 ədəd Chevrolet Malibu, 1 Ədəd Nazlifan) olmaqla ümumilikdə 10 ədəd nəqliyyat vasitəsi mövcudur.

**6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti**

Universitetin professor-müəllim heyətinin, tələbələrin, şəhər ictimaiyyətinin və digər universitet nümayəndələrinin kitabxanadan istifadəsi üçün əlçatanlığın təmin edilməsi prosesi GDU EŞ-nin 06.02.2017-ci il tarixli (pr. № 12) Qərarı və rektorluğun 13.02.2017-ci il tarixli 5/34 saylı əmri ilə təsdiq edilmiş “Kitabxana İnformasiya Mərkəzinin Əsasnaməsi” və “Kitabxana İnformasiya Mərkəzindən istifadə Qaydaları” əsasında həyata keçirilir.

Universitetin və digər universitetlərin tələbələri, həmçinin digər universitetlərdən dəvət edilən professor-müəllim heyətinin yataqxanadan istifadəsinin əlçatanlığının təmin edilməsi GDU EŞ-nin 02.12.2021-ci il tarixli (pr. № 07) Qərarı, rektorluğun 06.12.2021-ci il tarixli 5/404 saylı əmri ilə təsdiq edilmiş “Tələbə Evinin Əsasnaməsi” və rektorluğun 06.12.2021-ci il tarixli 5/408 saylı əmri ilə təsdiq edilmiş “Tələbə Evinin Daxili Qaydaları” əsasında həyata keçirilir.

Universitetin professor-müəllim heyətinin, tələbələrin, şəhər ictimaiyyətinin və digər maraqlı tərəflərin idman və fitnes zalına, meydançalara və s. əlçatanlığı rektorluğun 07.11.2023-cü il tarixli 5/310 saylı əmri əsasında təmin edilir.

**6.1.9. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti**

Universitetdə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün Avropa İttifaqının TEMPUS proqramının ESFIDIP layihəsi (2014-2017) çərçivəsində GDU EŞ-nin 30.11.2015-ci il tarixli (pr. № 12) Qərarı və rektorluğun 29.12.2015-ci il tarixli 1/523 saylı əmri ilə “Əlilliyi olan şəxslər üçün Mərkəz” yaradılmışdır. Mərkəzin GDU EŞ-nin 02.07.2015-ci il tarixli (pr. № 9) Qərarı ilə təsdiq edilmiş Əsasnaməsi, Strateji Planı və İllik Fəaliyyət Planı mövcuddur. Mərkəz layihə çərçivəsində 25 min Avro dəyərində Avropa və Amerika Birləşmiş Ştatlarının istehsalı olan tədris resursları (The Braille printer (Braille embosser) + Duxbury Braille translation program, Pearl + Openbook Document Reading Camera, Braille display 40 Cells - Blue Focus 40 cell, MAGIC large print keyboard, Maltron expanded keyboard, Haydi switch, Magic for windows, JAWS Screen Reader Professional

Murad, Ulviye Voice with DONGLE key, audio-vizual tədris materialları, brayl əlifbası ilə çap edilmiş bəzi dərsliklər, “Qurani Kərim” və s.) ilə təchiz olunmuşdur. Mərkəzin yerləşdiyi bina Avropa standartları əsasında əsaslı təmir edilmişdir. Binada sağlamlıq imkanları məhdud şəxslərin tam sərbəst hərəkəti üçün bütün şərait yaradılmışdır. Belə ki, onların binaya daxil olması üçün pandusla təmin edilmiş xüsusi giriş yaradılmış, binada yerləşən kitabxanadan, tələbə yeməkxanasından, sanitar qovşaqlardan istifadə üçün bütün şərait və lazımi infrastrukturla təchiz edilib.

### 6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti

Universitetin hər bir tədris binasında tələbələrin həm yemək yeməlı həm də asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə ümumi sahəsi 485,4 $m^2$ olan “bufet” tipli kafelər fəaliyyət göstərir. “Tələbə evi”ndə isə ümumi sahəsi 986,7 $m^2$ olan yeməkxana binası mövcuddur. Yeməkxananın özünəməxsus qaydaları, yemək menyusu və qiymət cədvəli mövcuddur.

### 6.1.11. Yataqxanaların mövcudluğu vəziyyəti

2019-2020-ci illərdə Şəhərin Dədə Qorqud küçəsində yerləşən və vaxtilə tələbə şəhərciyi tipində inşa edilmiş hər biri 5 mərtəbədən ibarət 3 yataqxana binası dövlət büdcəsindən ayrılmış 8,5 milyon manatlıq vəsait hesabına əsaslı təmir olunmuşdur. Hazıda həmin şəhərcik “Tələbə evi” adı altında fəaliyyət göstərir. “Tələbə evi”nin ümumi sahəsi 16609 $m^2$ təşkil edir. “Tələbə evi”ndə ümumilikdə 706 nəfər tələbənin birgə yaşaması nəzərdə tutulmuşdur. “Tələbə evi”nin nəzdində digər ali təhsil müəssisələrindən yüksəkixtisaslı professor-müəllim heyətinin cəlb olunması üçün hər biri 19 $m^2$ olmaqla ümumilikdə 4 ədəd xüsusi otaq ayrılmış və müvafiq qonaqlama şəraiti ilə təmin edilmişdir.

Cavad Rəfibəyli küçəsində yerləşən V tədris binasında ümumi sahəsi 5536,3 $m^2$ olan bir ədəd 5 mərtəbədən ibarət yataqxana binası mövcuddur. Həmin binada uzun müddət məcburi köçkünlər yerləşdirilmiş, onların köçürülməsindən sonra isə bina yararsız hala düşmüşdür. Həmin yataqxana binasının yenidən təmir edilərək tələbələrin istifadəyə verilməsi üçün müvafiq təbirlər görülmüş və layihəsi hazırlanaraq Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinə (TİKA) dəstək olması üçün təqdim edilmişdir. Layihə TİKA-nın rəhbərliyi tərəfindən dəyərləndirilmiş və tələb olunan maliyyənin ayrılması təmin edilmişdir. Yaxın zamanlarda TİKA-nın maliyyə yardımı vasitəsilə tenderi qazanmış şirkət tərəfindən təmir işlərinə başlanılması planlaşdırılır.

Bayan 143 A ünvanında yerləşən ümumi sahəsi 6125,7 $m^2$ olan bir ədəd 5 mərtəbədən ibarət yataqxana binası mövcuddur. Həmin binada uzun müddətdir məcburi köçkünlər yerləşdirilmişdir. Məcburi köçkünlərin hələ də başqa yerlərə köçürülməməsi səbəbindən tələbələrin istifadəsinə verilməmişdir.

### 6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetin hər bir tədris binasında və "Tələbə evi" kompleksində professor-müəllim heyəti və tələbələr üçün tibbi xidmətin göstərilməsi məqsədilə hər birinin sahəsi 10 $m^2$ olmaqla "İlkin tibbi yardım mərkəzi" yaradılmış və ilkin tibbi yardımın göstərilməsi üçün həkim və ya tibb işçisi ilə təmin edilmişdir.

### 6.1.13. İT xidmətinin mövcudluğu vəziyyəti

Universitetdə İT xidmətinin göstərilməsi üçün rektorluğun müvafiq əmri ilə 2007-ci ildə İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) yaradılmışdır. 2017-ci ildən İKT şöbəsi İnnovasiyalar departamentinin nəzdində fəaliyyətini davam etdirir. Şöbə öz fəaliyyətini EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "İKT şöbəsinin yeni Əsasnaməsi" əsasında həyata keçirir.

İKT şöbəsi tərəfindən universitetin bütün tədris binaları arasında optik kabel vasitəsilə daxili şəbəkə qurulmuş və yüksək surətli internet ilə təmin edilmişdir. Şəbəkənin idarəedilməsi üçün 2010-cu ildə serverlər alınmış, 2023-cü ildə isə yenidən müasir serverlərin alınması təmin edilmişdir. Əsas tədris binasında qurulmuş "Server otağı"nın fəaliyyətinə İKT şöbəsi nəzarət edir. Belə ki, serverlərin işlək olmasına, şəbəkənin problemsiz işləməsinə, təhlükəsizliyin təmin edilməsinə, kompüter və qurğulara nəzarət və s. kimi məsələlərin həllinə İKT şöbəsi cavabdehlik daşıyır.

### 6.1.14. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

İxtisas proqramları üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması məqsədilə fakültə dekanı və müvafiq struktur bölmə rəhbərlərinin vəsatəti ilə İnzibati təsərrüfat işləri üzrə prorektorluğa müraciət edilir. Edilmiş müraciət əsasında müvafiq prorektorluq tərəfindən yaradılmış İşçi Qrup yerində baxış keçirir və təhlillər apararaq müvafiq qiymətləndirmə həyata keçirir. Aşkar edilmiş çatışmazlıqlar aktlaşdırıldıqdan sonra təkliflərlə birlikdə rektorluğa təqdim edilir. Rektor tərəfindən müvafiq qərar qəbul edilərək icra üçün uyğun strukturlara tapşırıq verilir.

### 6.2. Elmi-tədqiqat infrastrukturu

### 6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

GDU EŞ-nin 06.03.2017-ci tarixli (pr. № 02) Qərarı və rektorluğun 09.03.2017-ci il tarixli 5/55 saylı əmri ilə İnnovasiyalar departamenti yaradılmış və onun “Əsasnaməsi”, “Nizamnaməsi”, “Quruluşu”, “Strukturu” və “Ştat cədvəli” təsdiq edilmişdir. Departamentin nəzdində “İnnovasiya texnologiyalarının transferi və marketinqi”, “Strateji təhlil, monitorinq və qiymətləndirmə”, “İnformasiya resurslarının formalaşması”, “İnformasiya və Kommunikasiya Texnologiyaları” və “Beynəlxalq əlaqələr” şöbələri fəaliyyət göstərir. Bütün şöbələrin “Əsasnamə”si və digər hüquqi sənədləri mövcuddur.

Departamentin nəzdində EŞ-in 04.10.2021-ci il tarixli (pr. № 05) Qərarı ilə Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzinin “Əsasnaməsi” təsdiq edilmişdir. GDU EŞ-nin 02.12.2021-ci il tarixli (pr. № 07) Qərarı və rektorluğun 06.12.2021-ci il tarixli 5/414 saylı əmri ilə Mərkəz İnnovasiyalar departamentinin strukturuna daxil edilmişdir. GDU EŞ-nin 02.12.2021-ci il tarixli (pr. № 07) Qərarı və rektorluğun 06.12.2021-ci il tarixli 5/410 saylı əmri ilə Mərkəzin nəzdində “Resurs səmərəliliyi və daha təmiz istehsal klubu” yaradılmışdır. Klubun nəzdində Qərb regionundan 20-yə yaxın KOB təmsil olunur. Bundan başqa departamentdə “Müasir Təlim Mərkəzi”, “E-öyrənmə”, “Əlilliyi olan tələbələr üçün Mərkəz”, “Mediasiya”, “Tələbə Ombudsmanı”, “Dil resursları” kimi mərkəzlər fəaliyyət göstərir.

Departament universitetin “Strateji Planı”nın “İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək” adlı Məqsədində qeyd edilən Hədəflərə çatmaq üçün bir çox fəaliyyətlər icra etmişdir. “3.1. İnnovasiya və sahibkarlığın inkişafı üçün infrastrukturun yaradılması” Hədəfinin “3.1.1. Fondların, texnologiyalar parkının, inkubasiya və akselerasiya mərkəzlərinin, ideya, dizayn, prototipləmə və test mərkəzinin və digər infrastrukturların yaradılması ilə bağlı təkliflər vermək, onları təsis etmək, yaradılmasını maliyyələşdirmək” və digər qeyd edilmiş fəaliyyətlərin icrası məqsədi ilə departamentin əməkdaşları rəhbərliyin iştirakı ilə birlikdə ikili əməkdaşlıq müqavilələri əsasında universitetin maliyyə dəstəyiylə Türkiyə Republikasının İstanbul, Nişantaşı, ODTÜ, İzmir Dokuz Eylül, İzmir Yüksək Texnologiyalar İnstitutunun, Ege, Manisa Calal Bayar, Avstriyanın BOKU və Erasmus+ KA1 mübadilə proqramı çərçivəsində Rumuniyanın Galati, Macarıstanın Debrecen, Türkiyənin Gazi universitetlərinin texnoparklarına səfər etmişdir. Həmçinin Cənubi Kareya universitetlərinin startap ekosisteminin öyrənilməsi üçün ASAN xidmət və Asiya İnkişaf Bankının birgə həyata keçirdiyi “Yerli Texnoloji Startapların İnkişafının Təşviqi” layihəsi ilə Hannam, Hanyang, Soongsil universitetlərinin texnoparklarına, Koreya

Qabaqcıl Elm və Texnologiya İnstitutuna (KAIST), Qlobal Bilik Mübadiləsi və İnkişaf Mərkəzinə (GKEDC), Qlobal Rəqəmsal İnnovasiya Şəbəkəsinə (GDIN) səfər edilmişdir.

Departament "Strateji Plan"a uyğun universitetdə startap ideyalarının dəstəklənməsi üçün bir çox uğurlu fəaliyyətlər icra edib. Belə ki, departament tərəfindən universitetdə mövcud olan startaplar üçün kreditlərə, investisiyalara, qrantlara, biznesə dəstək (venture) kapitalına və s. çıxış imkanları yaradılmış, startaplara ilkin biznes fəaliyyətinin təşkili məqsədilə maliyyə dəstəyinin tapılması üçün köməklik göstərilmiş, "Made in Azerbaijan" brendi ilə innovativ və yüksək texnoloji startapların yaradılmasına təkan verilmiş, həmçinin mövcud startapların beynəlxalq arenaya çıxmasına şərait yaradılmışdır.

Departament universitetin professor-müəllim heyətinə və tələbələrinə innovativ layihələr (o cümlədən startaplar), innovativ məhsul və xidmətlər üzrə əqli mülkiyyət hüquqlarının qorunması üçün köməklik göstərir. Eyni zamanda biznes potensialına malik ideyaların kommersiyalaşmasına dəstək verir, ali təhsil müəssisələri və biznes qurumları arasında əməkdaşlığı genişləndirir, innovativ sahibkarlığı təşviq etmək üçün startapların ali təhsil və elmi tədqiqat müəssisələri və texnoloji transfer mərkəzləri ilə qarşılıqlı fəaliyyətini əlaqələndirir. Universitetdə innovasiya təşəbbüskarlığını və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarını təşviq etməklə yanaşı, əməkdaşların bu sahədə maariflendirilməsi, onların bilik və bacarıqlarının artırılması məqsədilə onlara təlim, məsləhət, informasiya, beynəlxalq mübadilə proqramlarında iştirak və digər dəstək xidmətləri göstərir.

### 6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Universitetdə elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş 2 ədəd ümumi sahəsi 112,8 m$^2$ olan elmi-tədqiqat laboratoriyası mövcudur. Bunlardan biri qeyri-üzvü sistemlərin fiziki-kimyəvi tədqiqi ilə bağlı yaradılmış "Kimyəvi materialşünaslıq", digəri isə yarımkeçiriçilərin alınması və tətbiqi ilə əlaqədar yaradılmış "Yarımkeçiricilər fizikasının aktual problemləri" elmi-tədqiqat laboratoriyasıdır.

Eyni zamanda universitetin "Strateji Planı"na uyğun olaraq müasir mövzularda aparılan elmi-tədqiqatlar zamanı "dizayn, prototipləmə və test" kimi ehtiyacların qarşılanması, eyni zamanda elmi-innovativ layihələrin həyata keçirilməsi, müasir texnologiyaların və texnoloji həllərin əldə olunması və onların transferinin təşkil edilməsi, rəqəmsal transformasiya məqsədli məhsul və xidmətləri müəyyənləşdirilməsi, robot və bulud texnologiyalarına, irihəcmli məlumatların emalına, süni intellektə əsaslanan həllərin dəstəklənməsi məqsədilə tədqiqatçılara "STEAM laboratoriyası"nda şərait yaradılmışdır.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### 7.1. Beynəlmiləlləşmə siyasəti

#### 7.1.1. GDU-nun beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

1995-ci ildən etibarən yaradılmış Beynəlxalq əlaqələr şöbəsi EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Əsasnamə" əsasında fəaliyyət göstərir. Şöbə bütün fəaliyyətini EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Beynəlmiləlləşmə Siyasəti" əsasında qurur.

"Beynəlmiləlləşmə Siyasəti"nin yenilənmiş versiyası EŞ-in 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli 5/11 saylı əmri ilə təsdiq edilmişdir. Universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ının IV Məqsədi "Beynəlmiləl universitetə çevrilmək" olaraq müəyyən edilmişdir.

#### 7.1.2. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Mübadilə proqramlarının təşviqi məqsədi ilə GDU-nun "Beynəlmiləlləşmə Siyasəti"ndə Erasmus+, Mövlanə Mübadilə Proqramı və digər oxşar proqramlar çərçivəsində beynəlxalq əlaqələri genişləndirmək, yeni akademik tərəfdaşlıqlar qurmaq, kredit mobilliyi proqramları ilə əməkdaşlığı inkişaf etdirmək və beynəlxalq təhsil layihələrində iştirak etmək kimi fəaliyyətlər müəyyən edilmişdir. "Beynəlmiləlləşmə siyasəti"nin prioritet istiqamətlərindən biri məhz beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsinə həsr edilmişdir. Burada nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almaq arzusunda olanlar üçün imkanlar yaratmaq, müvafiq beynəlxalq proqramlar çərçivəsində professor-müəllim heyətinin və tələbələrin mobilliyini artırmaq və təlimlərdə iştirakını gücləndirmək, professor-müəllim heyəti və tələbələr üçün xarici dil öyrənmək imkanı yaratmaq, beynəlxalq tərəfdaşlarla əlaqələri gücləndirmək və onların sayını artırmaq kimi məqsədlər öz əksini tapmışdır.

"Beynəlmiləlləşmə Siyasəti" ilə yanaşı universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"nda "4.2. Beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsi" adlı hədəfin "4.2.2. Müvafiq beynəlxalq proqramlar çərçivəsində professor-müəllim heyətinin və tələbələrin mobilliyinin artırmaq və təlimlərdə iştirakı gücləndirmək" fəaliyyəti müəyyən edilib.

### 7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” əsasında hazırlanmış “Beynəlmiləlləşmə Siyasəti”nin prioritet istiqamətlərindən biri də məhz əcnəbi təhsilalanların cəlb olunmasına həsr edilmişdir. Burada “əcnəbi tələbələrin sayını artırmaq”, “beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələr qurmaq”, “beynəlxalq sertifikatlar əsasında tələbə qəbulu imkanlarını genişləndirmək”, “əcnəbi tələbə və müəllimlər üçün Azərbaycan dilini öyrənmək imkanı yaratmaq” kimi fəaliyyətlər öz əksini tapmışdır.




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Bakalvriat | 8 | 14 | 50 | 68 | 42 | 41 | 42 | 41 |
| Magistratura | | | 2 | 5 | 8 | 3 | 1 | 3 |
| Doktorantura | 4 | | | | 1 | 4 | 5 | 4 |

### 7.1.4. Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” əsasında hazırlanmış “Beynəlmiləlləşmə Siyasəti”nin prioritet istiqamətlərindən biri beynəlxalq təcrübə əsasənda akademik imkanların gücləndirilməsinə həsr edilmişdir. Buraya “beynəlxalq əcnəbi professor-müəllim heyətini universitetdə əmək fəaliyyətinə cəlb etmək”, “xaricdə dövlət hesabına təhsil sahəsində əldə edilmiş təcrübə əsasında universitetin akademik potensialını gücləndirmək” kimi fəaliyyətlər müəyyən edilmişdir.

### 7.1.5. Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” əsasında hazırlanmış “Beynəlmiləlləşmə Siyasəti” beynəlxalq tədqiqatçılarla münasibətlərin qurulması və inkişaf etdirilməsi ilə bağlı məqamları özündə əks etdirir. Buraya “birgə tədqiqatlar aparmaq üçün beynəlxalq tədqiqatçılar ilə əlaqələrin qurulması”, “beynəlxalq tərəfdaşlarla birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək”, “birgə tədqiqat işlərinin aparılması və tədqiqat şəbəkəsinin genişləndirilməsi məqsədi ilə nüfuzlu xarici ali təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıqlar qurmaq üçün fakültələr və

departamentlərə bu sahədə kömək etmək”, “universitetdə birgə beynəlxalq elmi konfransların keçirilməsinə dəstək göstərmək” kimi fəaliyyətlər müəyyən edilmişdir.

**7.1.6. Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” əsasında hazırlanmış “Beynəlmiləlləşmə Siyasəti”nin əsas istiqamətlərindən biri beynəlxalq təhsil şəbəkələri, beynəlxalq təhsil təşkilatları və dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq edərək təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasıdır. Buraya “ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə tədrisi dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırmaq” və “fənn proqramlarını beynəlxalq təşkilatlar tərəfindən akkreditasiya etmək” kimi fəaliyyətlər daxildir.

**7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” əsasında hazırlanmış “Beynəlmiləlləşmə Siyasəti” beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi ilə bağlı müəyyən fəaliyyətləri özündə əks etdirir. Buraya “beynəlxalq ikili diplom proqramları yaratmaq və ikili diplom proqramlarının sayını davamlı artırmaq”, “ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, universitet təhsil sistemini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək” kimi fəaliyyətlər daxil edilmişdir. İkili diplom proqramlarına dair fəaliyyətlər EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Təlim və Tədris Siyasəti” sənədində də müəyyən edilmişdir.

**7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti**

“Beynəlmiləlləşmə Siyasəti”nin yenilənmiş versiyası EŞ-in 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli 5/11 saylı əmri ilə təsdiq edilmişdir.

**7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu**

**7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti**

Universitetdə beynəlmiləlləşmə proseslərinin idarə edilməsi məqsədi ilə 1995-ci ildə “Xarici Əlaqələr” şöbəsi yaradılmışdır. EŞ-in 07.02.2018-ci il tarixli (pr. № 01) Qərarı və

rektorluğun 12.02.2018-ci il tarixli 5/26 saylı əmri ilə şöbənin adı dəyişdirilərək “Beynəlxalq Əlaqələr” şöbəsi adlandırılmışdır.

“Beynəlxalq Əlaqələr” şöbəsi EŞ-in 06.03.2017-ci il tarixli (pr. № 02) Qərarı və rektorluğun 09.03.2017-ci il tarixli 5/55 saylı əmri ilə İnnovasiyalar departamentinin tabeliyinə verilmişdir. “Beynəlxalq Əlaqələr” şöbəsinin Əsasnaməsində strukturuna dair məlumatlar əks olunmuşdur.

Beynəlmiləlləşmə proseslərinin idarə edilməsinə dair dövrü hesabatlar şöbə tərəfindən hazırlanaraq aidiyəti üzrə təqdim edilir. İnnovasiyalar departamenti tərəfindən hesabatlar təhlil edilir və EŞ-nin müzakirəsinə təqdim olunur.

### 7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Beynəlxalq əlaqələr şöbəsi bütün fəaliyyətini “Beynəlmiləlləşmə Siyasəti” əsasında qurur. Şöbə müdiri əməkdaşlar arasında vəzifə bölgüsü apararaq, onların öz fəaliyyətlərini beynəlmiləlləşmə siyasətinə uyğun olaraq hazırlanmış illik “İş Plan”ları əsasında həyata keçirməsinə nəzarət edir.

### 7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” və 20.05.2019-cu il tarixli 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi” Qaydaları, GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli əmri ilə təsdiq edilmiş “Bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları” əsasında tənzimlənir.

Kreditlərin tanınması və ekvalentliyinin müəyyən edilməsi üçün tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin təlim nəticələri, fənlərin sillabusları zəruri sənədlər kimi təhlil olunur. Proses zamanı müvafiq sənədləşmə, əmrləşdirmələr aparılır.

Kreditlərin sayını, fənlərin məzmununun uyğunluğunu və kreditlərin sayılmasını təsdiq edən rəsmi sənədləşmə həyata keçirilir.

Bütün bu kimi fəaliyyətlər icra olunan zaman GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Təlim və Tədris Siyasəti" adlı sənədə istinad edilir.

Mübadilə proqramlarında iştirak etmək istəyən təhsilalanlara bu qaydalar haqqında ətraflı məlumat verilir və gələcəkdə üzləşə biləcəkləri çətinliklərin yaşanmaması üçün qaydalara əməl etməsi tövsiyə edilir.

Sözügedən qaydalar əlçatanlığın təmin edilməsi üçün universitetin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

### 7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi məqsədi ilə universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"nda "4.5.1. Əcnəbi professor-müəllim heyətini universitetdə əmək fəaliyyətinə cəlb etmək" adlı fəaliyyət müəyyən edilmişdir.

Əcnəbi professor-müəllim heyəti Avropa İttifaqının Erasmus+ KA1 və Türkiyə Respublikasının Mevlana mübadilə proqramları, əməkdaşlıq müqavilələri və "ikili diplom" proqramları əsasında universitetdə tədris prosesinə cəlb edilir. Bunu göstərən statistik məlumatlar aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Erasmus+ KA1 | | 2 | 3 | | | 2 | 1 | |
| Mevlana | | | | | | | | |
| İkili əməkdaşlıq müqaviləsi | | | | | | 1 | | 2 |
| İkili diplom proqramı | | | | | | | 4 | |

Universitetdə tədris prosesinə cəlb edilmiş əcnəbi professor-müəllim heyətinin ölkələr üzrə statistikası aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




### 7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Universitetin tərəfdaş olaraq iştirak etdiyi beynəlxalq layihələrdəki fəaliyyətinin səmərəliliyi layihə çərçivəsində təyin edilmiş ekspert tərəfindən layihənin icra müddətində hesabatlılıq dövrləri nəzərə alınmaqla monitorinq edilir. Eyni zamanda layihənin ekspertləri ilə yanaşı layihənin icra müddəti daxil olmaqla layihə bitdikdən sonra 5 il müddətində Avropa Komissiyasının audit üzrə ekspertləri tərəfindən monitorinq işlərinin aparılması nəzərdə tutulur.

Universitetdə beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin daxili monitorinqi “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” əsasında həyata keçirilir.

### 7.2.6. GDU-da təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2018-ci il tarixli 711 saylı Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” əsasında universitetdə icrası planlaşdırılan fəaliyyətlərdən biri də ikili diplom proqramlarının yaradılması və inkişaf etdirilməsidir. Bu məsələ 2023-2028-ci illər üzrə “Strateji Plan”ında “4.3. Beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi” adlı hədəf olaraq qeyd edilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Türkiyə Respublikasının İzmir Dokuz Eylül Universiteti ilə birlikdə “İkili diplom” proqramı çərçivəsində bakalavriat səviyyəsində “Biologiya”, “İqtisadiyyat” və “Tarix” ixtisasları, magistratura səviyyəsində isə “İqtisadiyyat” ixtisasının “İqtisadiyyatın hüquqi tənzimlənməsi” ixtisaslaşması üzrə mütəxəssis hazırlığı

aparılmasına başlanılması barədə universitet EŞ-nin 07.07.2022-ci il tarixli (pr. № 14) Qərarı və rektorluğun 13.07.2022-ci il tarixli 5/247 saylı əmri verilib.

Mütəxəssis hazırlığına başlanılmasına dair müqavilə Türkiyə Respublikasının Yüksək Öğretim Kurumu (YÖK) tərəfindən təsdiq edilib. “İkili diplom” proqramı çərçivəsində mütəxəssis hazırlığı aparılan ixtisasların tədris planları GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/430 saylı əmri ilə təsdiq edilmişdir. Tədris planlarında nəzərdə tutulan fənlərin kreditləri AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğundur.

İkili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun formada təşkil edilməsi hər iki tərəfdən imzalanmış “Protokol”da öz əksini tapmışdır. İkili diplom proqramlarında aparılan təlim və tədris prosesi həmin “Protokol” əsasında icra olunur. Bütün bu prosesin təşkilində universitetin “Təlim və Tədris Siyasəti” sənədinə də istinad edilir.

### 7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Universitetin professor-müəllim heyəti Avropa İttifaqının Erasmus+ KA1, Türkiyə Respublikasının Mevlana mübadilə proqramları, əməkdaşlıq müqavilələri və “ikili diplom” proqramları əsasında xarici universitetlərdə tədris prosesinə cəlb edilmişdir. Mübadilə proqramlarında iştirak edən akademik heyətə dair statistik məlumatlar aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Erasmus+ KA1 | | | 7 | | | 1 | 1 | |
| Mevlana | | | 1 | | | | | |
| İkili diplom proqramı | | | | | | | 4 | |
| Təqaüd proqramı | 2 | | | | | 4 | 1 | 1 |
| Xüsusi dəvət | 2 | 2 | | | | 2 | 6 | |

Xarici universitetlərdə tədris prosesinə cəlb edilmiş universitetin professor-müəllim heyətinin ölkələr üzrə statistikası aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




### 7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Akademik və inzibati heyətin mübadiləsi prosesində şəffaflığın təmin edilməsi, beynəlxalq mübadilə proqramlarında, beynəlxalq təlim və seminarlarda iştirak etmək istəyən namizədlərin qiymətləndirilməsi məqsədi ilə rektorluğun 10.05.2022-ci il tarixli 5/457 saylı əmri ilə “Komissiya” yaradılmışdır.

Koordinator qismində iştirak edən tərəfdaş universitetlər tərəfindən qəbula dair məlumat verildikdə, Beynəlxalq əlaqələr şöbəsi tərəfindən qəbul qaydaları haqqında universitetin elektron səhifəsinin elanlar bölməsində məlumat verilir. Beynəlxalq mübadilə proqramlarında iştirak etmək istəyən namizədlərin seçimi universitet tərəfindən deyil kordinator universitetin tələb etdiyi kriteriyalar əsasında aparılır.

Əməkdaşlıq müqaviləsi mövcud olan koordinator universitetlərdən proqrama qəbul ilə bağlı müraciət daxil olduqda, həmin çağırışa dair məlumatlar universitetin rəsmi internet səhifəsində yer alan elanlar bölməsində yerləşdirilir. Eyni zamanda Beynəlxalq əlaqələr şöbəsi tərəfindən fakültələrdə məlumatlandırma günləri (info days) təşkil edilir. Tələb olunan kriteriyalara uyğun olan namizədlər sərbəst şəkildə müraciət edirlər. Müraciət əsasında seçim həyata keçirilir.

### 7.2.9. GDU-da mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

GDU-da mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması cari “Strateji Plan”da “4.2. Beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsi”, təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun formada təşkili isə “7.3. Tələbələrin qəbulu, irəliləməsi, kreditlərin tanınması, attestasiyası işlərinin aparılması” hədəf olaraq qeyd edilmişdir. Bütün bu prosesin təşkilində universitetin “Təlim və Tədris Siyasəti” və

“Bakalavriat və magistratura səviyyələrinə qəbul olunmuş və hal-hazırda təhsil alan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Qaydaları” adlı sənədlərə istinad edilir.

Universitetin mübadilə proqramları üzrə iştirakçılılığının təmin olunmasına dair statistik məlumatlar aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




Xarici universitetlərdə mübadilə proqramları çərçivəsində iştirak etmiş tələbələrin ölkələr üzrə statistikası aşağıdakı infoqrafikdə öz əksini tapmışdır:




### 7.2.10. Beynəlxalq reytinqlərdə GDU-nun təmsil olunma vəziyyəti

Universitet "Webometrics" (https://www.webometrics.info/) beynəlxalq reytinq sistemində ölkə üzrə 11-ci, dünya üzrə 9225-ci mövqedə yer tutur. Bunu göstərən statistik məlumatlar aşağıdakı formada əks olunmuşdur:

| ranking | World Rank | University | Det. | Impact Rank* | Openness Rank* | Excellence Rank* |
|---|---|---|---|---|---|---|
| 1 | 3067 | Azerbaijan State University of Economics / Azərbaycan Dövlət İqtisad Universiteti | » | 4265 | 3439 | 3660 |
| 2 | 3528 | Baku State University / Bakı Dövlət Universiteti | » | 8647 | 3223 | 3268 |
| 3 | 3829 | Khazar University / Xəzər Universitəsi | » | 6363 | 6172 | 3713 |
| 4 | 4551 | ADA University | » | 3847 | 5625 | 5515 |
| 5 | 5011 | Azerbaijan State University of Oil Industry | » | 13874 | 4414 | 4648 |
| 6 | 5279 | Azerbaijan University / Azərbaycan Universiteti | » | 16749 | 8370 | 3063 |
| 7 | 5443 | Azerbaijan Medical University / Azərbaycan Tibb Universiteti | » | 13338 | 4961 | 5257 |
| 8 | 5585 | Baku Engineering University (Qafqaz University) | » | 14539 | 5787 | 5143 |
| 9 | 6110 | Azerbaijan Technical University / Azərbaycan Texniki Universiteti | » | 13376 | 5572 | 5848 |
| 10 | 6449 | Azerbaijan State Pedagogical University / Azərbaycan Dövlət Pedagoji Universiteti | » | 17508 | 6001 | 5570 |
| 11 | 9225 | Ganja State University / Gəncə Dövlət Universiteti | » | 15559 | 8370 | 6141 |
| 12 | 10908 | Azerbaijan University of Architecture and Construction / Azərbaycan Memarlıq və İnşaat Universiteti | » | 14861 | 7687 | 6850 |
| 13 | 11068 | Sumqayit State University (Sumgait State University) / Sumqayıt Dövlət Universiteti | » | 18088 | 6201 | 6850 |
| 14 | 11467 | Azerbaijan State Agricultural University / Azərbaycan Dövlət Aqrar Universiteti | » | 14794 | 5810 | 7223 |
| 15 | 11762 | Nakhchivan State University / Naxçıvan Dövlət Universiteti | » | 15132 | 5897 | 7223 |
| 16 | 12250 | Azerbaijan University of Languages | » | 13300 | 7396 | 7223 |
| 17 | 12283 | Baku Higher Oil School / Bakı Ali Neft Məktəbi | » | 9794 | 8370 | 7223 |

Windows'u Etkinleştir

Universitet "EduRank" (https://edurank.org/) beynəlxalq reytinq sistemində ölkə üzrə 9-cu, asiya üzrə 2876-cı, dünya üzrə 7360-cı mövqedə yer tutur. Burada universitetin reytinqi 3 faktora əsaslanır: tədqiqat nəticələri (EduRank indeksində reytinq universitetə aid 263 akademik nəşr və 546 sitat əsasında müəyyən edilmişdir), qeyri-akademik reputasiya və tanınmış məzunların təsiri. Bunu göstərən statistik məlumatlar aşağıdakı formada əks olunmuşdur. Sistemə daxil olaraq digər sahələr üzrə statistik məlumatları da əldə etmək mümkündür.

| | |
|---|---|
| #7360 of 14,131<br>In the World | #2876 of 5,830<br>In Asia |
| #9 of 36<br>In Azerbaijan | #1 of 3<br>In Ganja |
| #4780 of 4,859<br>For Metallurgical Engineering | #5541 of 5,728<br>For Materials Science |
| #5592 of 5,673<br>For Organic Chemistry | #4825 of 7,738<br>For Alumni Impact |
| #11971 of 14,131<br>For Non-academic Prominence | |

Universitet "Academic Influence " (https://academicinfluence.com/) beynəlxalq reytinq sistemində dünya üzrə 1740-cı mövqedə yer tutur. Bunu göstərən statistik məlumatlar aşağıdakı formada əks olunmuşdur. Sistemə daxil olaraq digər sahələr üzrə statistik məlumatları da əldə etmək mümkündür.




Universitet "UniRank" (https://www.4icu.org/) beynəlxalq reytinq sistemində ölkə üzrə 28-ci, dünya üzrə 10843-cü mövqedə yer tutur. Bunu göstərən statistik məlumatlar aşağıdakı formada əks olunmuşdur. Sistemə daxil olaraq digər sahələr üzrə statistik məlumatları da əldə etmək mümkündür.




Times Higher Education ”Impact Rankings” sisteminə tələb edilən məlumatlar hazırlanaraq müvafiq normalar gözlənilməklə daxil edilmişdir. Yay aylarında nəticələrin elan olunması gözlənilir.

Universitetin beynəlxalq reytinq sistemlərində təmsil olunması işinin səmərəli təşkili üçün ARETN yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən Whatsapp sosial şəbəkəsində “AZE Reytinqlər işçi qrupu” adlı qrup yaradılmışdır. Universitet olaraq qrupda qeyd edilən bütün tövsiyə və tapşırıqların icrasına xüsusi önəm verilir. Hazırda “QS Sustainability Rankings 2025”, “QS HUB” və “Times Higher Education World University Rankings 2025” üçün məlumatların toplanması və sistemə əlavə edilməsi prosesi icra edilir.

Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin təmin olunması məqsədilə ali təhsil müəssisələrinin qlobal rəqabətə davamlılığının artırılması və beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar olaraq beynəlxalq reytinqlərdə iştirak və irəliləmənin təmin olunması, sözügedən istiqamət üzrə fəaliyyətlərin əlaqələndirilməsi məqsədilə rektorluğun 10.01.2024-cü il tarixli 5/03 saylı əmri ilə “İşçi Qrup” yaradılmışdır.

### 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

### 7.3.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

“Beynəlmiləlləşmə Siyasəti”ndə nəzərdə tutulan bəzi fəaliyyətlərin (beynəlxalq konfransların təşkili, beynəlxalq konfranslara dəvət edilən məruzəçilərin səfər xərcinin

qarşılanması, beynəlxalq təhsil və karyera sərgilərində iştirakı dəstəkləmək, beynəlxalq məlumat bazalarına girişin təmin edilməsi, beynəlxalq ezamiyyələrin dəstəklənməsi, beynəlxalq indeksli jurnallarda dərc edilən məqalələrə görə həvəsləndirici mükafatların verilməsi, ikili diplom proqramlarının hazırlanması zamanı prosesə uyğun olaraq qarşı tərəfə edilən səfərlərin maliyyələşdirilməsi və s.) icrası məqsədi ilə universitet büdcəsindən müəyyən maliyyə ayrılmışdır.

### 7.3.2. Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

“Beynəlmiləlləşmə Siyasəti”nin icrasına dair universitetin 2023-2028-ci illəri əhatə edən “Fəaliyyət Planı”nda fəaliyyətlərin aidiyəti üzrə səmərəli təşkilini həyata keçirmək üçün vəzifə bölgüsü edilərək məsul qurumlar müəyyən edilmişdir. Eyni zamanda Beynəlxal əlaqələr şöbəsinin təsdiq edilmiş illik “İş Planı”nda əməkdaşlar arasında vəzifə bölgüsü edilmişdir. Bütün nəzərdə tutulmuş fəaliyyətlərin icrasına dair rektorluğun müvafiq əmrləri əsasında “İşçi Qrup”lar yaradılmışdır.

Eyni zamanda universitetin tərəfdaş olaraq iştirak etdiyi Avropa İttifaqının Erasmus+ KA2 Bilik və bacarıqların artırılması layihələrində “Layihə Komandaları” yaradılmış və müvafiq qaydada təsdiq edilmişdir. Avropa İttifaqının Erasmus+ KA2 Bilik və bacarıqların artırılması layihələrinə aid məlumatlar aşağıdakı cədvəldə qeyd edilmişdir:

| S/S | Layihənin adı | İcra müddəti |
|---|---|---|
| 1 | TEMPUS UNIVIA “Beynəlxalq əlaqələr üzrə universitet idarəetməsinin inkişafı və təkmilləşdirilməsi” | 2014-2017 |
| 2 | TEMPUS CURDEUS “Avropa Birliyi araşdırmaları üzrə kurrikulumların işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi” | 2013-2017 |
| 3 | TEMPUS ESFIDIP “Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üzrə fondun yaradılması” | 2014-2017 |
| 4 | Erasmus+ AESOP “Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması” | 2016-2018 |
| 5 | Erasmus+ PETRA “Azərbaycan universitetlərində tədris və təlimdə aliliyin təbliğ olunması” | 2017-2019 |
| 6 | Erasmus+ EQAC “Azərbaycan ali təhsil müəssisələrində keyfiyyətin təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” | 2017-2020 |
| 7 | Erasmus+ MEDIATS “Təlimin və Cəmiyyətin transformasiyası” | 2018-2021 |
| 8 | Erasmus+ ENGAGE “Azərbaycan ali təhsil sistemində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi” | 2023-2025 |
| 9 | Erasmus+ REFRESH “Azərbaycan universitetlərində yaşıl və davamlı qlobal iqtisadi təkmilləşdirmə: bərpa olunan enerji mənbələrinin və iqlim dəyişikliyinin mitiqasiyası” | 2023-2025 |
| 10 | Erasmus+ DIRNA “Azərbaycan İnstitusional Repozitorlar Şəbəkəsi” | 2023-2025 |

### 7.3.3. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Universitetin “Beynəlmiləlləşmə Siyasəti”nə uyğun olaraq icrası nəzərdə tutulmuş fəaliyyətlər üçün tələb olunan bütün infrastruktur mövcuddur. Belə ki, xarici tələbələrin universitetə cəlb edilməsi, eyni zamanda xarici akademik heyətin və tələbələrin mübadilə proqramları çərçivəsində universitetin yataqxanasından istifadəsi üçün lazımi şərait yaradılmışdır.

“İkili diplom” proqramları çərçivəsində təlim və tədris prosesinin daha səmərəli təşkili üçün tələb olunan yeni laboratoriyaların alınması üçün cari ildə universitet büdcəsindən xüsusi maliyyə ayrılmışdır. Həmin laboratoriyaların yaxın zamanda universitetdə qurulması ilə bağlı işlər davam etdirilir.

Eyni zamanda beynəlmiləlləşmə siyasətində nəzərdə tutulmuş fəaliyyətlərin icrasını səmərəli təşkil etmək üçün “Nizami Gəncəvi adına dayanıqlı ağıllı şəhərlər və regionlar mərkəzi”, “STEAM” laboratoriyası, “RSDTİ Klubu”, “Mediasiya Mərkəzi”, “Tələbə Ombudsmanı Mərkəzi”, “E-öyrənmə Mərkəzi”, “Müasir Təlim Mərkəzi”, “Dil Resursları Mərkəzi” və s. kimi resurslardan da istifadəyə müvafiq şərait yaradılmışdır. Həmin mərkəzlərin bir çoxu qrant layihələr əsasında yaradılmış və müvafiq infrastruktur ilə təmin edilmişdir.

### 7.3.4. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq icrası planlaşdırılmış fəaliyyətlərin həyata keçirilməsi üçün tələb olunan resurslar, fəaliyyətin icrasına cavabdeh olan strukturlar tərəfindən müəyyən edilərək universitet rəhbərliyinə təklif formasında təqdim edilir. Universitet rəhbərliyi qaydalara uyğun olaraq həmin resursların təminedilməsinə dair təkliflər hazırlayır və universitet büdcəsindən müəyyən məbləğdə maliyyənin ayrılmasına göstəriş verir.

Universitetin tərəfdaş olaraq iştirak etdiyi beynəlxalq layihələr çərçivəsində əldə etdiyi resursların monitorinqi layihə çərçivəsində təyin edilmiş ekspert tərəfindən icra edilir. Eyni zamanda layihənin ekspertləri ilə yanaşı layihənin icra müddəti daxil olmaqla layihə bitdikdən sonra 5 il müddətində Avropa Komissiyasının audit üzrə ekspertləri tərəfindən beynəlxalq layihələr çərçivəsində əldə edilən resursların monitorinqinin aparılması nəzərdə tutulur.

### 7.4. Beynəlmiləlləşmə performansı

#### 7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrə dair hesabatlar Elm və innovasiyalar üzrə prorektor, İnnovasiyalar departamentinin direktoru və Beynəlxalq əlaqələr şöbəsinin müdiri tərəfindən müvafiq qaydada hazırlanaraq müzakirə edilməsi üçün EŞ-ya təqdim edilir. EŞ üzvləri tərəfindən hesabat dinlənildikdən sonra münasibət bildirilir. Ortaya çıxan rəy və təkliflər əsasında müəyyən qərarlar qəbul edilir.

#### 7.4.2. Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Universitetin 2023-2028-ci illəri əhatə edən “Strateji Planı” hazırlanan zaman aparılan araşdırmalarda müəyyən ehtiyaclar ortaya çıxmışdır. Həmin ehtiyacların qarşılanmasını və lazım gəldikdə təkmilləşdirilməsini nəzərə alaraq “Nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almaq arzusunda olanlar üçün imkanlar yaratmaq”, “Professor-müəllim heyəti və tələbələr üçün xarici dil öyrənmək imkanı yaratmaq”, “İngilis, rus, alman və s. xarici dillərdə təhsil proqramları təsis etmək”, “Tələbələr üçün xarici dillərdə hazırlıq proqramı təklif etmək”, “Əcnəbi professor-müəllim heyətini universitetdə əmək fəaliyyətinə cəlb etmək”, “Xaricdə dövlət hesabına təhsil sahəsində əldə edilmiş təcrübə əsasında universitetin akademik potensialını gücləndirmək” kimi fəaliyyətlərin icrası müəyyən edilmişdir.

Eyni zamanda bu sahədə təlimlərin təşkilinə dair ehtiyacın olduğu müəyyən edilərək 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da “2.2.2. Akademik heyət üzvləri və tələbələrin elmi müsabiqələrdə, eyni zamanda beynəlxalq və yerli təşkilatlar, fondlar tərəfindən maliyyələşdirilən elmi-tədqiqat layihələrdə iştirak üçün təlimlər keçirmək” adlı fəaliyyət nəzərdə tutulmuşdur.

İnnovasiyalar departamenti tərəfindən beynəlmiləlləşmə prosesinin inkişafına dəstək ola biləcək bir neçə təlimlər və məlumatlandırma günləri “info days” təşkil edilmişdir. Buna dair məlumatlar universitetin rəsmi internet səhifəsində dərc edilmişdir.

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri**

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 42 | | | | + |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 13 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **55** | | | | **+** |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | + |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 30 | | | + | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **54** | | | | **+** |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | + |
| 3.2 Təhsil proqramları | 30 | | | | + |
| 3.3 Tədrisin təşkili | 66 | | | | + |
| 3.4 Tədris metodları və üsulları | 24 | | | | + |
| 3.5 Təlim və tədris resursları | 46 | | | + | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 36 | | | | + |
| 3.7 Professor-müəllim heyəti | 32 | | | + | |
| 3.8 Tələbəyönümlü tədris | 36 | | | | + |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 13 | | | + | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 13 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **308** | | | | **+** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 24 | | | | + |
| 4.2 Tədqiqat resursları | 19 | | | + | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 60 | | | | + |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **112** | | | | **+** |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 27 | | | | + |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 30 | | | | + |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 40 | | | + | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 24 | | | | + |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **139** | | | | **+** |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 38 | | | + | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **43** | | | **+** | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | + |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 27 | | | + | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 12 | | | | + |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **69** | | | | **+** |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **780** | | | | **+** |

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər**

Elmi Şuranın 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli 5/11 saylı əmri ilə təsdiq edilmiş Təşkilat Komissiyası universitetdə akkreditasiya üzrə aparılan özünütəhlil işlərinin nəticəsində aşağıdakı əsas nəticələrə gəlmişdir:

**1. Strateji inkişaf istiqaməti üzrə**

- Rektorluğun 30.12.2015-ci il tarixli 5/334 saylı əmri ilə yaradılmış komissiya tərəfindən hazırlanan 2016-2020-ci illəri əhatə edən 3 əsas istiqamətdən ibarət "Strateji İnkişaf Planı" EŞ-in 29.02.2016-cı il tarixli (pr. № 01) Qərarı ilə təsdiq edilmişdir. Pandemiya şəraiti ilə əlaqədar 2016-2020-ci illəri əhatə edən "Strateji İnkişaf Planı"nda nəzərdə tutulan fəaliyyətlərin bir qismi icra edilmədiyindən, nəzərdə tutulan məqsəd və hədəflərə tam nail olmaq üçün GDU EŞ-nin 28.12.2021-ci il tarixli (pr. № 08) Qərarı və rektorluğun 30.12.2021-ci il tarixli 5/459 saylı əmri ilə mövcud "Strateji Plan"ın müddəti 2022-ci ilin sonuna qədər uzadılmışdır.
- Universitetin növbəti 5 il ərzində nəzərdə tutulmuş məqsədləri və fəaliyyətləri özündə əks etdirən "Strateji Planı"nın hazırlanması məqsədilə rektorluğun 03.05.2021-ci il tarixli 5/138 saylı əmri ilə İşçi Qrup yaradılmışdır. Universitetin yaranma tarixinin 1938-ci il olmasını və 2028-ci ildə 90 illiyinin qeyd ediləcəyini nəzərə alaraq hazırlanacaq "Starteji Plan"ın 2023-2028-ci illəri əhatə etməsi planlaşdırılmışdır.
- GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 13.12.2022-ci il tarixli 5/431 saylı əmri ilə təsdiq edilmiş 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında 7 əsas istiqamət (1. Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq; 2. Elmi tədqiqatları inkişaf etdirmək; 3. İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək; 4. Beynəlmiləl universitetə çevrilmək; 5. Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək; 6. Dayanıqlı inkişafı təşviq etmək; 7. Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq) müəyyən edilmişdir.
- Cari "Strateji Plan"da I Məqsəd üzrə 7 Hədəf və 16 Fəaliyyət; II Məqsəd üzrə 4 Hədəf və 16 Fəaliyyət; III Məqsəd üzrə 6 Hədəf və 14 Fəaliyyət; IV Məqsəd üzrə 7 Hədəf və 18 Fəaliyyət; V Məqsəd üzrə 4 Hədəf və 20 Fəaliyyət; VI Məqsəd üzrə 6 Hədəf və 15 Fəaliyyət; VII Məqsəd üzrə 9 Hədəf və 19 Fəaliyyət müəyyən edilmişdir.

- Cari “Strateji Plan”da universitetin missiyası “Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və innovativ xidmətlər göstərir” olaraq qeyd edilmişdir.
- Cari “Strateji Plan”da universitetin vizionu “Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və innovativ xidmətlər göstərir” olaraq qeyd edilmişdir.
- Cari “Strateji Plan” tərtib edilən zaman GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)” adlı sənəd əsasında maraqlı tərəflərin iştirakı təmin edilmişdir.
- Cari “Strateji Plan” hazırlanan zaman aidiyyəti üzrə mövcud olan Sərəncamlar, Dövlət proqramları, Qaydalar, Qanunlar, Qərarlar və digər hüquqi sənədlər nəzərə alınmışdır.
- Cari “Strateji Plan” əsasında universitetin “Fəaliyyət Planı (2023-2028)” hazırlanmış, fəaliyyətlərin icrası üçün vəzifə bölgüsü aparılaraq cavabdeh olan strukturlar, fəaliyyətlərin icra müddəti və nəticələri qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən etmək üçün “Nəticə indikatorları” təyin edilmişdir.
- Strukturların illik “İş Planı” universitetin “Fəaliyyət Planı (2023-2028)” nəzərə alınmaqla hazırlanmışdır. Ayrı-ayrı strukturların illik hesabatları qanunvericiliyə uyğun olaraq hazırlanaraq müvafiq sahə prorektorluqlarına təqdim edilir. Prorektorlar tərəfindən tabeliyində olan strukturların illik fəaliyyəti nəzarətdə saxlanılaraq mütəmadi monitorinqi aparılır, təqdim edilən hesabatlar dinlənilir. Müvafiq prorektorlar tərəfindən yekun nəticələr və təkliflərə dair hesabatlar müzakirə üçün EŞ-ya təqdim edilmişdir.
- Universitetin illər üzrə büdcə planlaşması hazırlanan zaman cari “Strateji Plan”da qeyd edilən fəaliyyətlər nəzərə alınmışdır.

**2. Keyfiyyət təminatı istiqaməti üzrə**

- GDU-nun cari “Strateji Planı”nda “Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq” 7-ci Məqsəd olaraq müəyyən edilmişdir.
- GDU EŞ-nin 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə “Keyfiyyət Təminatı Siyasəti” təsdiq edilmişdir. Sənəd “Keyfiyyət təminatı siyasəti”, “Keyfiyyət təminatı siyasətinin əsaslandığı prinsiplər”,

“Keyfiyyət təminatı siyasətinin əsaslandığı əsas dəyərlər”, “Keyfiyyət təminatı siyasətinin hədəfləri” və “Siyasətin həyata keçirilməsində nəzərdə tutulan fəaliyyət və ya hərəkətlər” adlı başlıqlardan ibarətdir.

- Universitetin daxili keyfiyyət təminatı sistemini təmin etmək üçün EŞ-in 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 03.07.2023-cü il tarixli 5/183 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət təminatı sistemi haqqında direktiv”, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı”, “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” və EŞ-in 24.11.2023-cü il tarixli (pr. № 02) Qərarı və rektorluğun 01.12.2023-cü il tarixli 5/374 saylı əmri ilə təsdiq edilmiş “Keyfiyyət mədəniyyəti direktivi” adlı sənədlər mövcuddur. Qeyd edilən sənədlərdəki vəzifələrin icrasına nəzarət etmək məqsədilə rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə İşçi Qrup yaradılmışdır.
- “Keyfiyyət təminatı sistemi haqqında direktiv” sənəddə “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi qaydalarının həyata keçirilməsində istifadə olunan PİNT metodu” adlı diaqram əks olunmuşdur. Mexanizmin işlək olması vəziyyəti Keyfiyyətin Təminatı Mərkəzinin hazırladığı illik hesabatda yer almışdır.
- GDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə “Fəaliyyət Planı” və ona uyğun “Vəzifə Öhdəlikləri” hazırlanaraq təsdiq edilmişdir.
- Universitetin daxili keyfiyyət təminatı üzrə fəaliyyətinə dair illik Özünütəhlil Hesabatı Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən hazırlanaraq və universitet EŞ-da hesabatlılığı təmin edilmişdir.
- Universitetin fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi üçün keçirilmiş bütün sorğular GDU EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş “Sorğu Siyasəti” əsasında həyata keçirilmişdir.

**3. Təlim və tədris istiqaməti üzrə**

- GDU-nun cari “Strateji Planı”nda “Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq” 1-ci Məqsəd olaraq müəyyən edilmişdir. Eyni zamanda EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə “Təlim və Tədris Siyasəti” təsdiq edilmişdir.

- GDU-da bu müvafiq qanunvericilik əsasında mütəxəssis və elmi-pedaqoji kadrların hazırlanması prosesi təsdiq edilmiş Təhsil Proqramları əsasında tərtib olunan tədris planları üzə həyata keçirilmişdir.
- Tədris illərinə görə əmək bazarının tələblərinə uyğun sifarişlərin hazırlanması və təkliflərin verilməsi zamanı ilk olaraq son illərdəki məzunların işlə təmin olunma statisitikaları nəzərə alınır. Eyni zamanda müvafiq dövlət orqanları tərəfindən daxil olmuş proqnoz məlumatları əsasında gələcəkdə ehtiyac duyulacaq ixtisaslar üzrə (tədris dilləri də nəzərə alınmaqla), həmçinin ölkə üzrə məşğulluq imkanları da nəzərə alınaraq optimal tələbə qəbulu sifarişləri müəyyən edilmişdir.
- İllər üzrə tələbə qəbulu yerləri sifarişçi qismində iştirak edən ARETN və işə götürən tərəflərin iştirakı təmin olunmaqla müəyyən edilmişdir. Hazırlanmış proqnoz layihəsi məsləhətləşmək üçün müvafiq nazirliyə göndərilmişdir. Nazirlik də öz növbəsində bu proqnoz layihələrini ARNK ilə razılaşdırmaqla tədris illəri üzrə təsdiq edilmiş qəbul planı formasında universitetə göndərmişdir.
- GDU-ya qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması müvafiq qanunvericilik əsasında tənzimlənmişdir.
- Təhsil proqramları üzrə mütəmadi olaraq kafedralar tərəfindən təlim nəticələrinin məzmunu müzakirə olunmuş və müvafiq yenilənmələr aparılmış, nüsxələri kitabxanaya, dekanlıqlara və Tədris departamentinə göndərilmişdir. Qaydalara uyğun olaraq bütün fənlərin təlim nəticələrinin sillabuslarda öz əksini tapması təmin edilmişdir. İxtisas proqramı ilə fənlərin bağlılığını göstərən matris hazırlanmışdır. Eyni zamanda təhsil proqramları üzrə dərs saatları bölgüsu AKTTS-nin prinsiplərinə əsasən tənzimlənmişdir.
- GDU-da ixtisas və ixtisaslaşmaların tədris planında göstərilmiş fənlərin şirifti, tədris illəri, kreditlərin sayı, prerekvizit, korekvizit, tədrisi nəzərdə tutulan semestri əks etdirən tədris qrafiki tərtib edilmişdir.
- GDU-da tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların tədris planlarında ümumi və ixtisas fənləri arasında balans saxlanılmaqla məcburi və seçmə fənlərin bölgüsü aparılmışdır.
- GDU EŞ-nin 26.05.2022-ci il tarixli (pr. № 13) Qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri ilə universitet üzrə Akademik Məsləhətçilər (tyutor) xidməti yaradılıb.
- İxtisaslar üzrə tələbənin sərbəst işi müəllimin rəhbərliyi altında auditoriyadankənar şəkildə təşkil olunmuşdur.

- Müvafiq qaydalara uyğun olaraq universitetdə bakalavriat səviyyəsində 2023/2024-cü tədris ilindən etibarən pedaqoji internatura, magistratura səviyyəsində isə iki istiqamətdə pedaqoji və elmi tədqiqat xarakterli təcrübə təşkil olunmuşdur.
- İxtisaslar üzrə buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili YDA-nın təşkili qaydalarına uyğun olaraq həyata keçirilmişdir.
- İmtahan sessiyaları ARETN-nin hər bir sessiya üçün verilmiş əmrlərində göstərilmiş qaydalara uyğun olaraq təşkil olunmuşdur.
- Tədris metodlarının tətbiqi tədris prosesinin səmərəliyinin yüksəldilməsinə, təhsilalanların yüksək nailiyyətlər əldə etməsinə, onların bilik və peşə hazırlığı səviyyəsinin artırılmasına xidmət etmişdir. Təhsilverənlər və təhsilalanlar üçün yeni təlim və tədris metodlarının, interaktiv öyrənmənin təşviq edilməsi işləri aparılmışdır.
- GDU-da öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi mövcuddur. Eyni zamanda müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş və internetə çıxışı təmin edilmiş auditoriyalar da mövcuddur.
- Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılmış, təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir.
- Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları mövcuddur.
- Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi qanunvericiliyin tələblərinə uyğun olaraq təşkil edilmişdir.
- Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması, qiymətləndirmədə müxtəlif formalardan, metod və vasitələrdən istifadə olunması, həmçinin qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması təmin edilmişdir.
- Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi və onların beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı təmin edilmişdir.
- Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyi təmin edilmişdir.
- Təhsilalanların şikayət və təklifləri üçün müxtəlif vasitə və mexanizmlər mövcuddur.

- Təhsil proqramlarının monitorinqi və yenilənməsi qaydalara uyğun olaraq təşkil edilmişdir.
- Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi qaydalara uyğun olaraq təşkil edilmişdir. Məzunların əmək bazarında iştirakının izlənilməsi və onlarla davamlı əlaqə saxlanılması mexanizmi mövcuddur.

**4. Elmi-tədqiqat istiqaməti üzrə**

- GDU-nun cari "Strateji Planı"nda "Elmi tədqiqatları inkişaf etdirmək" 2-ci Məqsəd olaraq müəyyən edilmişdir. Eyni zamanda EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə "Elmi Tədqiqat Siyasəti" təsdiq edilmişdir. "Elmi Tədqiqat Siyasəti" adlı sənəd universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Planı"nın missiyasına və hədəflərinə uyğun hazırlanmışdır. Siyasətdə elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası və professor-müəllim heyətinin performansı nəzərə alınmışdır. Siyasətin hazırlanması zamanı maraqlı tərəflərin iştirakı təmin edilmişdir.
- GDU-nun infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu təmin edilmişdir.
- Universitetdə gənc alimlərin təşkilatlanması, elmi fəaliyyətlərinin gücləndirilməsi məqsədilə rektorluğun 28.12.2022-ci il tarixli 5/472 saylı əmri ilə Nizami Gəncəvi adına "Gənc Alimlər Şurası" yaradılmışdır.
- Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışı təmin olunmuşdur.
- Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər işlənib hazırlanmış və həyata keçirilmişdir.
- Hesabt dövründə müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri qurulmuşdur.
- Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə struktur bölmələrin müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planı mövcuddur.
- Hesabat dövründə kifayət qədər elmi-tədqiqat xarakterli konfranslar, seminarlar və s. tədbirlər həyata keçirilmişdir. Həmin tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının, gənc tələbə-tədqiqatçıların iştirakı təmin edilmişdir.
- Hesabat dövründə elmi-tədqiqat fəaliyyəti üzrə əldə edilmiş patentlər və onların kommersiallaşdırılmasına dair məlumatlar təqdim edilmişdir.

- Hesabat dövründə elmi-tədqiqat materiallarının dərc etdirilməsi üçün müvafiq şərait yaradılmışdır.
- Tədris planlarında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlər nəzərə alınmışdır.
- Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirməsi üçün müxtəlif təlim və seminarlar təşkil edilmişdir.
- Universitetin elmi-tədqiqat fəaliyyətinə dair montorinq və qiymətləndirilmə mexanizmi mövcuddur.
- Universitetdə elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlüyün təmin edilməsi üçün mexanizm mövcuddur.

**5. İdarəetmə sistemi istiqaməti üzrə**

- GDU-nun cari "Strateji Planı"nda "Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək" 5-ci Məqsəd olaraq müəyyən edilmişdir.
- GDU-da ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanları Nizamnaməyə uyğun olaraq yaradılmış və idarəetmə orqanlarının əsasnamələri tərtib edilmiş, fəaliyyət/iş planları hazırlanaraq təsdiq edildikdən sonra nəzərdə tutulmuş iclaslar, yığıncaqlar və tədbirlər həyata keçirilmişdir. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü aparılmış, onların şəffaf və nəticəyönümlü fəaliyyəti təmin edilmişdir.
- İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilmiş və əlçatanlığı təmin edilmişdir. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya yüksək səviyyədə təşkil edilmişdir.
- Universitetdə idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi üçün müvafiq mexanizm mövcuddur. Onların fəaliyyətinə dair dövrü hesabatlar hazırlanaraq aidiyəti üzrə təhvil verilmişdir.
- Universitetdə insan resurslarının idarə edilməsi prosesi müvafiq qanunvericilik əsasında qurulmuşdur. Belə ki, GDU-da işə qəbul üçün siyasət və meyarlar hazırlanmış, müvafiq qaydada təsdiq edilmişdir. Prosedurun şəffaf və əlçatan formada həyata keçirilməsi və seçkili vəzifələrin tutulması qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilmişdir.
- Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilmişdir.
- Universitetin maliyyə resurslarının idarə edilməsi mövcud qanunvericilik əsasında

həyata keçirilmişdir. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlər "Strateji Plan"a uyğun olaraq hazırlanmışdır. Əlavə maliyyə resurlarına və təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbətinə dair məlumatlar təqdim edilmişdir.

- Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru GDU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilmiş və ondan təyinatı üzrə istidafəyə dair cari nəzarət həyata keçirilmişdir.
- Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi satınalma prosedurlarına, maliyyə və mühasibat əməliyyatlarına dair mövcud qanunvericiliyin tələblərinə uyğun həyata keçirilmiş və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunmuşdur.
- GDU-da informasiya idarəetmə sistemi "Eduman" qurularaq istifadəyə verilmişdir. Sistemdə idarəetmə funksiyalarının əhatəliyi, funksionallığı, məlumatların yenilənməsi və sistemin əlçatanlığı təmin edilmiş, idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü aparılmışdır. İKT şöbəsi tərəfindən sistemin təhlükəsizliyi, məxfiliyi və etibarlılığı təmin edilmişdir.
- Universitetdə ictimaiyyətlə əlaqələr qanunvericiliyin tələblərinə uyğun olaraq təşkil edilmişdir. Universitetin rəsmi internet səhifəsi mövcuddur və orada məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi təşkil edilmişdir.
- GDU-nun məlumatlandırma fəaliyyətinin monitorinqi aparılmış və təkmilləşdirilməsi üçün müvafiq fəaliyyətlər icra edilmişdir.

**6. İnfrastruktur istiqaməti üzrə**

- Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu təmin edilmişdir.
- Universitetdə kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazası, tədris laboratoriyaları, istehsalat-təcrübə bazası, distant təhsil infrastrukturu, kitabxana və qiraət otaqları, yeməkxana, yataqxana, nəqliyyat xidməti, tibb xidməti, həmçinin sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcuddur. Tədris infrastrukturundan istifadənin əlçatanlığı təmin edilmişdir.
- Elmi-tədqiqat və innovasiya fəaliyyətinin icrası üçün GDU EŞ-nin 06.03.2017-ci tarixli (pr. № 02) Qərarı və rektorluğun 09.03.2017-ci il tarixli 5/55 saylı əmri ilə

İnnovasiyalar departamenti yaradılmışdır.

- Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş iki ədəd laboratoriya yaradılmışdır.

**7. Beynəlmiləlləşmə istiqaməti üzrə**

- GDU-nun cari "Strateji Planı"nda "Beynəlmiləl universitetə çevrilmək" 4-cü Məqsəd olaraq müəyyən edilmişdir. EŞ-in 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Beynəlmiləlləşmə Siyasəti" mövcuddur. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi təmin edilmişdir.
- Beynəlmiləlləşmə siyasətində mübadilə proqramları və əcnəbi təhsilalanların təşviq olunması yer almışdır.
- Beynəlxalq akademik heyətə, beynəlxalq tədqiqatçılara, beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına, ikili diplom proqramlarına dair məlumatlar beynəlmiləlləşmə siyasətində əks olunmuşdur.
- Universitetdə beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı struktur yaradılmışdır.
- Universitetdə mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizmi mövcuddur.
- Hesabat dövründə əcnəbi professor-müəllim heyəti tədris prosesinə cəlb edilmişdir.
- GDU-da təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesi AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənmişdir.
- Akademik və inzibati heyətin mübadiləsi prosesi şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar ilə təşkil edilmişdir.
- Universitetin "Webometrics", "EduRank", "Academic Influence" və "UniRank" kimi beynəlxalq reytinqlərdə təmsil olunması təmin edilmişdir.
- Beynəlmiləlləşmə siyasətinin icrasına insan və maliyyə resurslarının və infrastrukturun ayrılması təmin edilmişdir.
- Beynəlmiləlləşmə performansının ölçüləbilməsi üçün proses çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizmi və ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətləri icra edilmişdir.

Cari akkreditasiya qiymətləndirməsi zamanı Təşkilat Komissiyası Özünütəhlil Hesabatının yekun nəticəsi olaraq universitetin fəaliyyətini 780 (96 %) balla, yəni "Uyğundur" olaraq hesab etmişdir.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərs dənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.